**SURXAY SUBU**

# Yeddi oğul istərəm...

**"Elm və təhsil"**
**Bakı – 2021**

**Surxay Subu. Yeddi oğul istərəm...**
**Bakı, "Elm və təhsil", 2021, 172 səh.**

**ISBN 978-9952-37-417-9**

**© Surxay Subu , 2021**

## MÜƏLLİFDƏN

Hörmətli oxucu! Bu kitabı ikinci Qarabağ müharibəsini zəfərlə başa vuraraq,vətən torpaqlarını azad edərək, qalibiyyət qazanmış vətən oğullarına,onlardan geri qalmayan aslan qeyrətli qadın-qızlarımıza həsr etmişəm. Şəhidlərimizə allahdan rəhmət, qazilərimizə şəfa diləyirəm.

Bu qırx dörd günlük müharibəni izləyərkən erməni vandallarının yaşayış məntəqələrini, müqəddəs dini məbədləri,qəbirləri,insan yaşamının Allah tərəfindən təminatçısı olan təbiəti talan və darmadağın etmələrini gördükcə yadıma Alman filosofu İmmanuel Kantın bir hikmətli ifadəsi düşdü. "Əgər insan Allahın iradəsinə tabedirsə,onda o təbiətlə həmahəngdir."Görəsən böyük filosofun bu hikmətli ifadəsində varvar ermənilərin yeri necə görsənir? Allah evlərini dağıdıb təhqir edən,təbiətə qarşı amansızlıq göstərən bir millət yəqin ki, bu vandallıqları ilə Allahı inkar edir və təbiətlə bu millətin həmahəngliyi ola bilməz!Digər bir Alman filosof və şairinin fikrincə,-"təbiət,kainat Allahın fikridir." Mənə görə Allahın fikri olan təbiəti dağıdan bir millətin müqəddəs duyğuları (əgər olubsa)varvarlığa çevrilirsə şərçilik, böhtan-

çılıq, yalançılıq,vəhşilik,allahsızlıq bu millətin əsas amalına çevrilir.

Yarandıqları ilk gündən yad torpaqları zəbt etmək hisslərinin quluna çevrilən ermənilər insanlığı vəhşilik və varvarlıq kimi başa düşmüşlər.Yenə Corc Bernard Şounun bir hikmətli ifadəsini demək yerinə düşmüş olardı:-"Göydə quş kimi uçmağı,suda balıq kimi üzməyi öyrəndik,qalıb yerdə insan kimi yaşamağı öyrənmək."Qafqazda 300 il yaşam tarixi olan erməni toplumu görünür hələ insan kimi yaşamağı öyrənməyiblər!Zənnimizcə insanlığı dərk etmək istəyən bir millət,milli heysiyyətini dərk edərək şərçi və böhtançı hisslərini cilovlaya bilsəydi insan azadlığının da nə demək olduğunu anlamış olardı.Azadlığı anlamaq bir millət olaraq özünü tapmaq,dərk etmək deməkdir.Azadlıq əldə etmək üçün özünü dərk edən bir millət milli heysiyyətini qorumalı,onu maraqları naminə "alət" kimi istifadə edən kənar təsirlərdən uzaq saxlamağı bacarmalıdır.Əgər bir millət Allahın və onun fikiri olan kainatın bəxş etdiyi azadlıdan faydalana bilmirsə və azadlığı varvarlıq, vandallıq kimi başa düçürsə o zaman məcburiyyət meydana çıxmış olur.

Məhz bunun nəticəsidir ki, Azərbaycan xalqı,dövləti bu məcburiyyəti varvarlığa qarşı qoyaraq haqqın "Dəmir yumruğunu" göstərmiş oldu.

*Vətəndaş olmasa boş şeydir vətən!*
*Beş günlük, on günlük güney qarıdır.*
*Vətən məfhumunun özəyindəki*
*Vətənin vüqarlı oğullarıdır*!

***Xəlil Rza Ulutürk***

Həkəri çayının sahilində yerləşən və füsunkar mənzərəsi ilə haylı-haraylı çayla həmahənglik yaradan İşıqlı kəndinin yeniyetmə uşaqları isti yay günlərində çay daşlarından hövzə qurub gölməçə yaradaraq təlatümlə çağlayan çaya baş vurub yayın ləzzətini çıxardırdılar.Günəşin təsirindən od kimi yanan daş üstünə uzanaraq əvvəlcə qızaran və sonra tündləşməyə başlayan bədənlərinin dərisini ilan qabığı kimi soyardılar.Uşaqlar hava qaralana qədər çimər,nahar-şam yeməklərini belə unudardılar.Çayda balıq ovlayar,daşlar arasında odun közü qalayaraq balıq kabab edər,yaxud da çay qırağındakı moruqdan yeyib bulağın gözündən buz kimi su içərdilər.Bəli,İşıqlı kəndinin uşaq və yeniyetmələri yay istirahətlərini belə başa vurar, havalar soyuqlaşanda isə ev işlərində valideyinlərinə köməklik etməklə bərabər məktəb vaxtlarını da yaxşı oxumaqla başa vurardılar.Belə uşaqlardan biri də Fərman kişinin oğlu Hüseyin idi.Hüseyin Fərman kişinin yeganə oğlu olduğundan evdə anası Süsənin və

Fərman kişinin sevimli uşaqları sayılırdı.Hüseyin kəndin şirindilli uşağı kimi hamının ürəyinə yol tapa bilirdi. Kəndin qadın-qızları bu şirindilli oğlana az qala "elçi" düşər və deyərdilər:-ay şirindilli Hüseyin niyə səndən ikincisi yoxdur,hə?Hüseyin də gözaltı, bic-bic gülərək dədəmdən soruşun mən nə bilim?-deyə aradan çıxardı.

Fərman kişi hələ uşaq ikən atası Hüseyin müharibəyə getmiş və az keçməmiş ölüm xəbəri gəlmişdi.Fərmanla anası Rəbiyyə çox əziyyətlər bahasına yaşayıb müharibənin gətirdiyi aclıqları,Xruşovun "kukuruzunun"amansızlığını görmüşdülər.Rəbiyyə ana Fərmanını tezliklə evləndirmək istəsə də oğlu olduqca gec otuzundan sonra, özü deməli ev-eşik qurduqdan sonra evlənməyə razı olmuşdu. Fərman kəndin gözəl qızı sayılan Süsənlə ailə qurmuşdu ki, bu izdivacdan da Hüseyin dünyaya göz açıb ailənin şirindillisi olmuşdu.Bu şirindilli övladdan sonra Fərman kişi nağıllarda olduğu kimi yeddi oğul və bircə dənə qız-gəlin eşqi ilə yaşasa da,allahın məsləhətinə şükür etmiş və elə bir oğulla da kifayətlənmişdi.Orta məktəbin sonuncu sinifində oxuyan Hüseyinin nənəsi Rəbiyyə arvad dünyasını dəyişmişdi.Anasının ölümünü uzun müddət Fərman kişi unuda bilməmişdi.Nağıl dili yüyrək olar, -deyib atalar.Hüseyin bu minvalla orta məktəbi başa vurub təhsil almaq üçün Bakıya getmiş oldu.Hüseyin inşaatçı olmaq arzusu ilə sənədlərini texnikuma verib tələbə adını qazanaraq atası Fərman kişiyə teleqram vurub onu  o vaxt modda olan kremplin kostyum almaq hədiyyəsi ilə müşdülüqladı.Fərman kişi də

oğlunun kostyum arzusunu yerinə yetirib,özü deməli onu kremplin kostyumlu etmişdi.Texnikumu əla qiymətlərlə başa vuran Hüseyini evtikmə kombinatının nəzdində olan tikinti idarəsinə usta kimi təyinatla işə qəbul edib yataqxanada da yer verməklə qeydiyyata salmış oldular.Tikinti idarəsinin rəhbəri bu şirindilli və təvazökar insana yaxşı işlədiyi tərzdə,təhsilini ali məktəbdə davam etdirməyə kömək edəcəyini bildirmişdi.Əsgərliyə gedərək inşaat hərbi hissəsində xidmət edən Hüseyin hərbi sirrlərə yiyələnə bilməsə də,avtomat kalaşnikovu gözü yumulu söküb yığmağı bilir və üstəlik sərrast atəş açmağı da bacarırdı.İki illik əsgəri xidmətini başa vuran Hüseyin yenidən inşaat ustası kimi fəaliyyətinə başlamışdı.Bu elə bir vaxt idi ki, ermənilər Azərbaycana qarşı çoxdankı arzuları olan ərazi iddialarını irəli sürmüş,hətta Azərbaycanlıları öz dədə-baba torpaqlarından qovmağa başlamışdılar.Bir müddətdən sonra SSRİ adlanan Sovet hökuməti dağılmağa başlamış və bu məqamdan istifadə edən Ermənistan Respublikası və onun qondarma Dağlıq Qarabağ Vilayəti ərazi iddialarından əl çəkməyərək Azərbaycana qarşı müharibəyə başlamışdı.Azərbaycandakı səriştəsiz hakimiyyətin xaotizmindən yararlanan ermənilərin Azərbaycana qarşı apardığı əsassız müharibə ölkə əhlini ayağa qaldırmışdı.Əli silah tutan qocalı-cavanlı Azərbaycan oğul və qızları düşmənə qarşı mübarizəyə qalxaraq müharibəyə yollanmışdılar.Könüllü olaraq müharibəyə gedənlərdən biri də Hüseyin idi. Əsasən, Laçın-Şuşa istiqaqamətində könüllü olaraq vuruşurduq,-

deyə Hüseyin həyat hekayəsini danışmağa başladı. Hələ 1991-ci ildə Şuşa ətrafı kəndləri düşmənlərdən qorumaq üçün vuruşsaq da əlaqələrin pozulmasından,nizamlı döyüş olmadığından geri çəkilməli olur və xeyli itgilər də verirdik.1991-ci ilin soyuq dekabrında Cəmilli,Kərkicahan,Meşəli kəndlərini işğal edib dinc əhaliyə divan tutan ermənilər kəndləri bir-bir nəzarətə alaraq Şuşa-Laçın yolunu atəşə tuturdular.1992-ci ilin qarlı-çovğunlu yanvarında ermənilərin hucumlarının qarşısını almaq və müharibədə dönüş yaratmaq üçün Daşaltı əməliyyatı hazırlanmışdı.Yanvarın 25-dən hucuma başlayan Azərbaycan ordusu könüllülər də daxil olmaqla hucuma keçsək də taktiki səhvlər ucubatından, qruplar arasında əlaqələrin olmamasından, eyni zamanda əməliyyat sirrlərinin yayılması, bələdçilərin xəyanəti nəticəsində Nəbili kəndi istiqamətində Daşaltıya daxil olan hərbi tağımlarımız düşmənin pusqusuna düşərək tamamilə məhv edildi.Kəndə daxil olmaq istəyən digər tağımlar,o cümlədən mənim də vuruşduğum tağım geri çəkilməyə müvəffəq olsaq da,xeyli yaralı olmaqla itgilərə də düçar olmuşduq.Yaralananlar arasında mən də var idim.Ayağımın dizdən aşağı hissəsindən iki güllə yarası aldığımdan hərbi qospitala yerləşdirilmiş oldum.Çox təəssüf ki, qazi olaraq bir daha döyüşə gedə bilmədim. Erməni vəhşiliklərinə dözə bilməyib dar gündə çörəyimi yarı böldüyüm əsgər dostlarımın köməyinə getmək istəyirdim.Hərçənd, bu mümkün olmadı.Erməni quldurları demək olar ki, kənd və rayonları bir-birinin ardınca zəbt edərək əhalini kənd və qəsə-

bələrdən qovmaqla bərabər,kəndləri də yandırırdılar.Artıq, qanlı Xocalı soyqırımı baş vermiş xeyli qanlar tökülmüşdü.Erməni vəhşiliyinin həddi-hüdudu yox idi.Dinc və silahsız əhalinin güllələbaran edilməsi,dərisinin soyulması,diri-diri yandırılması,körpə uşaqların süngüdən keçirilməsi,qadın-qızların təhqir edilməsi dəhşətli və insanlığa sığmayan mənzərələr yaradırdı.1993-cü ilin əvvəllərində də silah-sursatın çatışmamazlığı ucundan ordumuz əraziləri tərk edirdilər ki, bu da erməni quldurlarının işğal əzmini artırırdı.Azərbaycan xalqını bu bəladan qurtaracaq yeganə lider H.Əliyev idi. Xalqın tələbi ilə ağır vəziyyətə düşmüş biçarə vətəni xilas etməyə gələn H.Əliyev tez bir zamanda nizami ordu yaradıb Horadiz qəsəbəsi istiqamətində düşmənə qarşı döyüşlərə rəvac verdi.H.Əliyev Araz boyu xeyli kəndləri,o cümlədən Horadiz qəsəbəsini azad etməklə,düşmənin sülhə qol çəkməsinə müvəffəq oldu.Sülh bağlansa da,ölkədə acınacaqlı vəziyyət yaranmışdı.Bakıda,o cümlədən rayonlarda çadırlarda,vaqonlarda yaşayan qaçqın kütləsi meydana gəlmişdi.Yaranmış bu ağır vəziyyəti aradan qaldırmaq,ölkəni acınacaqlı mərhumiyyətlərdən qurtarmaq üçün H.Əliyev bütün imkanları səfərbər edərək yeni Azərbaycan uğrunda mübarizəyə başladı.

Kəndlərinin işğalı nəticəsində köçkün olmuş atasını və anası Süsəni yataqxana otağında yerləşdirən Hüseyin acınacaqlı yaşam tərzi ilə qarşılaşmışdı.İşlədiyi tikinti idarəsi bağlanmışdı. Bütün sahələrdə olduğu kimi tikintidə də işsizlik yaranmışdı.Yaralı ayağım da mənə çox ağ-

rılar verirdi, -deyə Hüseyin sözünə davam etdi.Axır vaxtlar yaralarım çirk verməyə başlamışdı.Həkimlərin dediyinə görə əgər çirk vermiş qıçam dizdən amputasiya olunmasa qanqrena halını almış ayağım baldır nahiyəmə doğru yayılaraq ağır fəsadlar yaradardı.Atam və anamdan baş vermişləri gizlədib bir aylıq qonşu rayona işləmək adı ilə,xəstəxanaya yerləşmiş oldum.Ayağımı diz topuğundan amputasiya edib məni cəfəng ağrılardan xilas etdilər.Hərbi xəstəxanada iyirmi gün müalicə aldıqdan sonra darısqal,vur-tut 18 kv.m.olan atalı-analı yataqxana otağımıza qayıdıb baş vermişləri olduğu kimi valideyinlərimə danışmış oldum.Atam mənim boynumu qucaqlayıb sağ ol, oğul!-dedi.Qeyrətli oğul kimi hərəkət etmisən! Anam isə məni yarımcan edən düşmənə qarğışlar edib son anda dedi:-gərək evimi düşmənə qoyub gəlməyəydim.O günü ölsəydim rahat olardım.Bizim İşıqlı camaatı azadlıq sevəndi. Niyə belə günlərə düşdük, heç anlaya bilmədim.Atamla bərabər,bədbin olan anama ürək-dirək verib yaxşı günlərin gələcəyindən danışaraq onu ovundurmuş olduq.

Yaşadığımız yataqxana demək olar ki,işğal olunmuş rayonların köçkünləri tərəfindən sığınacaq kimi tutulmuşdu. Bir otaqda 8-10 nəfər bir təhər yaşayırdıq.Qonşu rayondan olan Kəlbəcər qaçqını İslam da müharibədə vuruşaraq bir qolunu itirib qazi olmuşdu.Çox qaçaraq adam idi.İslamın dediyinə görə Bakı dəmiryolu vağzalı qarşısındakı istirahət bağını alış-veriş meydançasına çevirən Qarabağ qazi və veteranları xırdavatlar satmaqla az-çox

dolanışıqlarını təmin edə bilirdilər.İslam pis dolanmırdı.Köməklik edəcəyini deyib məni də xırdavat alverinə qoşdu.Ən çox satdığım siqaret və zajiqalka olurdu.Mənimlə qonşuluqda alver edən Cəlal müharibədə bir gözünü və bir qolunu itirsədə,həm yaxşı alver etməyi bacarırdı,həm də özündən çox müharibə vaxtında vuruşub şəhid olanların qəhrəmanlığından danışmağı sevərək fəxarətlənərdi.Torpağımızı itirdiyimizi danışanda çox məyus olar və sonra deyərdi ki,bizim başımızı dik,üzümüzü ağ edəcək bir nəsil nə vaxtsa yetişəcəkdir.Cəlalın ən çox və ruh yüksəkliyi ilə danışdığı vaxtilə sinif yoldaşı olduğu milli qəhrəman Əsədov Əsəd idi.Əsədin təyyarəçi olacağını hələ orta məktəb illərindən bildiyini söyləyən Cəlal nağıl kimi danışardı ki, orta məktəb illərində bir sinifdə oxuduğu Əsədlə bərabər hind filmlərinin aludəçisi idilər.İmkan tapan kimi dərsdən yayınıb gündüz seanslarında hind filmlərinə tamaşa edərdik.Əsəd hər filmlərə baxdıqdan sonra uzun müddət filmlərin təsirindən uzaqlaşa bilməzdi.Bir gün rəhmətlik dedi ki, təzə hind kinosu göstərəcəklər.Deyəsən filmin adı "Sanqam"dır.Ucundan-qulağından eşitmişəm ki,baş qəhrəman təyyarəçidir.Sən bilirsən ki,Cəlal mən təyyarəçi olmaq arzusandayam.Biz Əsədlə bərabər "Sanqam" kinosuna tamaşa edəndə həmişəki kimi həyəcan keçirən Əsəd baş qəhrəmanın təyyarəsi vurulanda göz yaşlarını saxlaya bilmədi. Yumruqlanmış əlini dizinin üstünə qoyduğu məktəbli sumkasına çırparaq, qoy məktəbi qurtarım, təyyarəçi olub baş qəhrəmanı vuranlardan qisas alacam!-deyirdi.Filmin so-

nunda Əsədin qızarmış gözlərinə baxaraq deyərdim:-əşi bu kinodur də,sən də lap dəhşətsən ey!O,isə mənə ciddi olaraq bildirərdi.Əgər ürək yanmasa, gözdən yaş axmaz!Baxarsan vaxt gələcək sən bu qaqaşınla qəhrəman təyyarəçi kimi fəxr edəcəksən.İndi o vaxtları yadıma salıb kövrəlsəm də, onunla fəxr edirəm.Əgər bir insan arzusu uğrunda iradə göstərirsə istədiyinə nail olur.Orta məktəbi başa vurduqdan sonra mən Bakıya gəlib ali təhsil alanda öyrəndim ki, Əsəd Rusiyada hərbi xidməti başa vurub elə Rusiyada Mülki aviasiya məktəbinə daxil olmuşdur. Aviasiya məktəbini başa vuran Əsəd Yevlax şəhərində AN-2 təyyarəsi ilə mülki aviasiya sahəsində çalışmışdır.Qarabağ müharibəsi başlayanda hərbi məqsədli vəzifələri yerinə yetirərək qəhrəmanlıqlar göstərən Əsəd, komandiri olduğu təyyarəsi ilə yeni hərbi vəzifəsini icra edərkən 1992-ci ilin yanvarında Xocalının Xanoba kəndi yaxınlığında erməni quldurları tərəfindən raketlə vurulmuş və komandir Əsədlə bərabər təyyarədə olan digər yeddi nəfər də həlak olmuşlar.Əsədin yaşam eşqi çox güclü idi.O həyatı, insanları sevirdi.Təyyarəçi olmaq onun arzusu idi.Ancaq, taleh elə gətirdi ki, Əsəd baş qəhrəmanın təyyarəsini vuranların qismində,xalqımızın başına bəlalar gətirən erməni quldurlarından qisas alıb qəhrəman olaraq şəhidlik zirvəsinə yüksəlmiş oldu.Cəlal digər bir həmyerlisi topu ilə ermənilərin canına bit-birə salmış topçu Nadirdən də ürək dolusu danışar,onun qəhrəmanlığını vəsf edərdi.Hər iki Qarabağ qəhrəmanından

fəxarətlə söhbətlər edən Cəlal,hər ikisinin simasında bütün şəhid qəhrəmanlarımıza rəhmətlik oxuyardı.

Çox çəkmədi ki,bizim xırdavat bağ alverimizə son qoyuldu.Əslinə qalsa düz də etdilər.Əşi vağzalın böyrü,ölkəmizə gələn qonaqlar?!O vaxtlar çoxlu qonaqlar gəlib bizim bərbad,kəndirlərlə ağaclara bağlanmış göy çadırlarımıza baxanda əzab çəkirdik.Gələnlərin çoxu bizdən zajiqalka, siqaret alardı və alver edənlərin yerli olmadıqlarını aydınca görərdik. Bu "gəlmə qonaqlar" ailəsini dolndırmaq istəyən köçkün qadınların marqarin yağından bir neçə dəfə istifadə etməklə"bişirdiyi"xəmir peraşkiləri yeyib,yağlı dodaqları və əlləri ilə siqaret tüstülədəndə elə bilirdim ki,dünya başıma dolanır.Əlimdə sənətim ola-ola arzu eləmədiyim halda xırda-xuruş alverlə məşğul olmağımdan əzab çəkirdim.Düzdür,bağ alveri bağlandıqdan sonra bizə alış-veriş edib dolanışığımızı təmin etmək üçün yer vermişdilər.Könlü istəyən və ehtiyacı olanlar alverlərini davam etdirsələr də, mən qəti olaraq sənətim üzrə işləməyi qərarlaşdırdım.Elə o vaxtdan həmsöhbətçim Cəlalla bir daha qarşılaşmadım.

Ölkədə iqtisadi vəziyyət yaxşılaşmağa doğru gedirdi.Yeni iş yerləri yaranmağa başlamışdı.Yeni özəl tikinti idarələri yaranmış və yaşayış binalarının tikintisinə rəvac verilmişdi.İşə düzəltmə idarələri fəaliyyətə başlamış və yeni iş yerlərinin təklifi özünü göstərməyə başlamışdı.Elə sağ olmuş bu işədüzəltmə idarələrinin köməyi ilə özəl tikinti idarələrinin birində tikinti ustası kimi işə düzəlmiş oldum.Allaha min dəfə şükür edirdim ki, məq-

sədimə çatıb öz sənətimlə işləməyə başlamışam.Hər dəfə keçmiş iş yerim olan bağın ətrafından keçərkən səliqə səhmana salınmış və adamın qəlbini oxşayan yeni əkilmiş ağac və gülləri gördükcə şükür edirdim ki, ölkəmiz xaos burulğanından çıxaraq çiçəklənəcək bir ölkəyə çevrilməyə başlayır.Yataqxanamıza sığınmış köçkünlər arasında az-çox qazanc əldə edib torpaq alaraq özlərinə ev tikib yaşadıqları otaqları satanlar da az deyildi.Atam Fərman yataqxanada baş verən "xoş məramlı" işlərdən xəbərdar olduğundan bir gün anam Süsənin evdə olmadığından istifadə edib buyurdu ki, oğlum artıq sənin iyirmi yeddi yaşın var evlənmək,ailə sahibi olmaq vaxtı deyilmi?-deyə məni sorğuya tutdu.Açığını desəm atamın yeganə oğlu olduğumdan mənimlə yerində zarafat edər, könlümə oxşayardı. Bir sözlə atam mənimlə dostyana rəftar edərdi əlbəətə ki, anam olmayanda.Düzü ilk dəfə idi ki,atam məni belə sorğuya tuturdu deyən utanc vəziyyət almışdım.Bilmirdim atama necə cavab verim.Ürəyimdə öz-özümə deyirdim,- ay ata tutaq ki, evləndim bu bir otaqda bizə uyuşmamış yeni xanımla necə yaşaya bilərik?!Mənim susqunluğumu görən atam ürəyimi oxuyan uzaqgörənlər kimi dedi:-oğlum görürsən hamı toy da edir,ailə də qurur.Mən səni başa düşürəm.Bir evdə özüdə belə darısqal otaqda iki ailə yaşaya bilməz.Ancaq,mən öz tədarükümü etmişəm.Qədimdən qalmış kilimimiz var idi.Bu kilimi yaxşı bir qiymətə satıb sənə qonşudakı otağı qaralamışam.Kilim satışını eşidəndə əhvalım yaman pozuldu.Atama milli xalça sənətimizin sirrlərini özündə əks

etdirən kilimimizi satmağına irad tusam da, atam mənim boynumu qucaqlayıb bildirdi ki, əslində mən kilimi məndən alan ingilisə satmaq istəmirdim.Bizimkilər kilimə elə ucuz qiymət dedilər ki, əlacsızlıqdan kilimi ürəyim,vicdanım yana-yana ingilisə satmış oldum.İndi həmin pulla sənə otaq qaralamışam, təmirinə gizlincə əl gəzdirtdirmişəm,üstəlik də toy etməyə ödəyəcək qədər qəpik-quruşumuz da qalıb.Oğul burasını da sənə deyim ki, səni vaxtilə işə düzəltmiş İslamın halal süd əmmiş bacısı Səmayəni də sənə gözaltı seçmişəm.Atamın dedikləri mənim ürəyimcə olub sevincimə səbəb olmuşdu.Eyni zamanda atama məətəl də qalmışdım.Görəsən atam hardan bilirdi ki, Səmayəni mən çoxdan sevib, seçmişəm.Elə Səmayə də mənə qarşı biganə deyildi.Hər dəfə işdən qayıdanda mənimlə qarşılaşan Səmayənin ağappaq sifətinin qızararaq, necə hallandığının şahidi olmuşdum.Sanki, bizim bir-birimizə olan sevgimiz əlacsızlıqdanmı,yoxsa kasıbçılıqdanmı ağzıbağlı könül sevgisinə çevrilmişdi.Biz bir-birimizi süzməklə,baxışlar göstərməklə sevməyə məhkum olunmuşduq.Daxilən fikirləşirdim ki, görünür atalar ailə qurmaq vaxtı çatmış övladlarının baxışlarından yaranan gizlin sevgini vaxtında müəyyən edə bilirlər.Atamın Səmayənin adını çəkməsi,onun mənim ürəyimdə gizlənən sevgini kəşf etməsi ata uzaqgörənliyi deyildimi?Atamın böyüklüyü,uzaqgörənliyi qarşısında mən nə deyə bilərdim ki?Susmağımı razılıq əlaməti kimi qəbul edən atam bildirdi ki, ananin da Səmayəyə quşu qonub və onu öz balası kimi sevir.Odur ki, anan gələndən sonra sabahı Sə-

mayə üçün elçiliyə gedəcəyik.Sevincimin həddi-hüdudu yox idi.Bir göz qırpımında ayağa qalxıb atamı doyunca öpdüm.Bir azdan anam gəldi.Atamın kefi kök olduğundan anama kəkotulu, şirin çay düzəltməyi təklif etdi.Dalağı sancmış anam:-xeyir ola Fərman?! Kəkotunu başa düşdüm bəs şirinlik nədəndir?Hə, mənim Süsənim, hazırlaş sabahdan İslamın bacısı, Kəlbəcərin dağ maralı, halal süd əmmiş Səmayə balamıza elçi gedəcəyik.Anam sevinc içərisində məni qucaqlayıb ay mənim kişi oğlum!-deyə, alnımdan öpdü.Mən tikintidə işlədiyim müddətdə qazandığım məvacibi anama verər özümə ancaq,cib xərcliyi saxlayardım.Odur ki,sevincli olan anam mənim gözləmədiyim halda yumru balıncımızı açaraq xeyli pulu atama göstərib dedi:-Bu pullar da oğlumun qazancından topladığımdır yəqin ki, toy üçün bəs edər.Düzünü desəm atam və anamın köçgün həyatımızdan sonra ilk dəfə olaraq xoşbəxtliklə güldüklərini hiss etdim.Beləliklə, atamın və anamın elçiliyi böyük razılıqla qəbul edilmiş,şirin çaylar içilmiş və toy gününün vaxtı da müəyyən edilmişdi.Bəli,yataqxananın qarşısında toy palatkası quruldu və gizli sevgimin mənasına çevrilmiş qonşumuz Səmayə ilə toyumuz oldu.Atamın bizim üçün təmir etdirdiyi otağımız Səmayəgilin cehizi ilə elə bəzədilmişdi ki, otaq bəygəlin otağı kimi adamın ruhuna oxşayırdı.Toy başa çatdıqdan sonra atam məni yanına çağırıb sakit səslə bildirdi:-oğlum, sənin baban Hüseyin müharibəyə gedəndə nənən Rəbiyəyə vəsiyyət edib ki, əgər mən müharibədən qayıtmasam Fərmandan təvəqqem o olacaq ki, yeddi

oğul və bircə dənə qız-gəlin sahibi olsun.Nənən Rəbiyyə səbəbini soruşanda deyib ki, qız-gəlin gələcəyin anasıdır, oğullar isə yıxılacaq evin dirəyidir.Ana vətəndir,oğullar isə ana vətəni yadellilərdən qoruyanlardır.Vətən,vətəndaşsız olsa yadellilər tərəfindən tez basılar.Mən rəhmətlik atamın arzusunu allahın qisməti olaraq yerinə yetirə bilmədim.Əgər allahımız qismət versə,səndən yeddi oğul və bircə dənə qız-gəlin istəyəcəm.Atam sözünü deyib alnımdan öpərək rahatlanmışlar kimi məndən ayrıldı.Həyatımın mənası olan Səmayə mən düşündüyümdən də çox əsil müsəlman tərbiyəsi görmüş, xoşxasiyyət və ailəcanlı bir insan təsiri bağışladığından özümü çox xoşbəxt sayırdım.Ata-anası qış vaxtlarında qar uçqunu altında qalıb dünyalarını dəyişdiklərindən Səmayə qardaşı İslamın himayəsində böyümüş və ana-ata qayğısından məhrum olmuşdu.Mən Səmayənin həyatında baş vermiş bu acınacaqlı həyat faciəsini biləndən sonra ona daha çox nəvaziş göstərirdim.Səmayə isə anadangəlmə qayğıkeş böyümüşdü.Hər dəfə işə gedib qayıdanda səbirsizliklə məni gözləməsi, göstərdiyi qayğı daxilən məni xatircəm etdiyi kimi, mənim ona olan məhəbbət və rəğbətimi yüksəklərə qaldırırdı.İşlədiyim vaxtlarda gərginlik yarananda,əsəblərim korlaşanda sevgimin bəhrəsi Səmayənin səbirsizliklə məni gözləməsini, göstərəcəyi qayğını yada salıb əsəblərimi qoruyur və gərginliyimi aradan qaldırırdım.Həyətdəki düzəldilmiş balaca daxmada anamla bərabər sac çörəyini bişirib pendir-acıtərə dürməyini, kəkotulu çayla və şirin sözlərlə məni elə yedirdib-içirdirdi

ki, yataqxana mənim üçün kəndimizin ab-havasına çevrilirdi.Səmayə hamilə olanda atam məndən gəlini çox işlətməməyi tələb edirdi.Əslində mən işdən qayıdandan sonra başım balaca otağın problemlərinə elə qarışırdı ki,canımdan artıq sevdiyim Səmayəyə çay süzməyi belə xahiş etmirdim.Düzünü desək mənim heç xahişimə yer qalmırdı.Səmayə nəinki mənə,ata-anama,qardaşına və digər qohumlara da qarşı münasibətdə həddindən artıq həssas idi.Nəhayət ki,Səmayə ilə ailə qurmağımızın doqquz ayının doqquz gününün tamamında dünyaya bir qız övladımız göz açmış oldu.Sevincimizin həddi-hüdudu yox idi.Atam da sevinirdi.Qızım olmağına çox sevinirdim, ancaq atamın arzusuna xələl gətirmişlər kimi özümü günahkar kimi aparsam da atam mənə yaxınlaşıb dedi:-oğlum allah əvvəlcə ana vətəni xəlq edib,sonradan onun vətəndaşlarını.Arzumuz inşallah çin olacaq ürəyini buz kimi saxla.Hər işləri düzüb qoşan qurban olduğumuzdur.Rəbbimiz necə məsləhət görürsə,elə də olacaq.Atamın bu düşünülmüş və mənim üçün hikmətli olan deyimləri üstümdən ağır bir yükü götürmüş kimi hədsiz sevincimə səbəb oldu.Adətimizə görə qızımızın qirxinda adqoyma mərasimini təşkil edən atam anasının adını əbədiləşdirərək qızıma Rəbiyyə adını qoymuş oldu.Atam Fərman hər dəfə nəvəsini əzizləyəndə fikirlərə qərq olar və deyərdi ki, bu şirin bala elə anam Rəbiyyənin özüdü ki, var.Torpağı sanı yaşasın!- deyib nəvəsini doyunca öpərdi.Anam Süsən isə, uşağı bir dəqiqə də olsun əlindən yerə qoymaz,ancaq uşaq ağlayıb əppək istəyəndə uşağı

Səmayəyə verərək deyərdi:-yaxşı deyiblər ki, ağlamayan uşağa əppək verməzlər,ağladı demək əppəyinin vaxtıdır.Bu darısqal otaqları geniş edən Səmayənin ürəyi bizə xoşbəxt günlər yaşadırdı.Qızımız Rəbiyyə artıq yekəlib yeriməyə başlamışdı.Bütün gününü baba-nənə yanında keçirən qızımızın üzünü günlərlə görmürdüm.Qızımız baba-nənəyə elə bağlanmışdı ki, gecələri şirin dillərimizlə də yanımıza gətirə bilmirdik.

Yoldaşım Səmayə yeni hamiləlikdən əziyyət çəkməyə başlamışdı.Həkimlərin dediyinə görə həddindən artıq böyük olan ana bətni, bir neçə uşağın dünyaya göz açacağından xəbər verir.Hamımız Səmayənin qayğısına qalırdıq.Anam Süsən lap üzülürdü.Hamiləlikdən azad olma müddəti başa çatmamış,ananın və uşaqların sağlamlığı naminə Səmayəni doğum evinə yerləşdirmiş oldular.Bir gün işdən evə qayıdarkən yolda məni qarşılayan atam,məni cavan oğlanlar kimi qucağına alıb fırlatdıqdan sonra alnımdan öpüb üçəm sağlam oğlan uşaqlarımın olması münasibəti ilə təbrik etdi.Özümü saxlaya bilməyib, bəs Səmayə necədir?-deyə həyəcanla soruşdum.Atam Səmayənin əziyyətlə dünyaya uşaqları gətirdiyini deyib,gəlinin sağ-salamat olduğunu bildirəndə çox sevindim.Nədənsə atamın yanında çox qürurlu görsənirdim.Baba vəsiyyətini, ata arzusunu  az-çox yerinə yetirdiyimə görə az qala qanad çalıb mənə bu xoşbəxt anları yaşadan Səmayəmin yanına uçmaq istəyirdim.Atam mənim keçirdiyim hissləri üzümdən oxumuşdu.Odur ki,dedi:-Ay bala,sən get gəlinin yanına mən də gedim uşaq mağazasina bəlkə

üç uşaqlı bir araba, kolyaska ala bildim.Atamla sağollaşıb doğum evi yaxınlığındakı gül mağazasından yaxşı bir dəstə bağlatdırıb Səmayəmin yanına getmiş oldum.Biz Səmayə ilə ancaq, pəncərə vasitəsi ilə baxışlarımızla salamlaşmış olduq.Sevginin böyüklüyünü əks etdirən baxışlarımız bir-birindən ayrılmaq istəmirdi.Könüllər bir olanda sevənlər bir birlərini tez başa düşürlər.Məncə sevənlər, bir-birlərinin qəlb dəryasına baş vurmağı bacaran məhəbbət arifləridirlər.Məhz,rəbbimiz məni və Səmayəni belə yaratmışdı.Mən ondan ayrılanda sevən qəlbimlə onu və sevən qəlbimizin bəhrəsi olan ciyərparalarımızı səbirsizliklə gözləyəcəyimi him-cimlə bildirib havanın qaranlığında evimə yollandım.Axşam şamını nuş etməyib məni gözləyən atam, çayı təzələməyi nənəmdən xahiş edib məni süfrəyə dəvət etdi.Şam yeməyindən sonra yorğunluğumu başa düşən atam dincəlməyimi xahiş etdi.Otağa daxil olanda gözümə inanmadım.İndiki zamanda üç yerli kolyaska tapmaq müşgül məsələ idi.Atam isə ayrılıqda üç ədəd kolyaska alıb qaynaqçıya aparmışdı.Qaynaqçı sağ olmuş elə zərgər işi görmüşdü ki, elə bil kolyaskalar zavod istehsalçısı tərəfindən yenicə istehsal olunub. Atama üçyerlik kolyaska kəşf etdiyinə görə təşəkkürümü bildirmiş oldum.Qızım Rəbiyyə mışıl-mışıl yatırdı.Anam Süsən bildirdi ki, Rəbiyyə kolyaskalara yaxınlıq edənləri kənarlaşdırıb deyirdi: düdü qaqaşlarındı.Otağıma qayıdıb ən xoşbəxt dəqiqələrimi yaşayanlar kimi Səmayəmin balıncını qoxlayaraq şirin yuxuya getmiş oldum.

1998-ci ili mart ayının 21-də Novruz bayramımızın ilk günündə Səmayəm və üç ciyərparam evimizə qədəm basdılar.Üçəm oğlan uşaqlarını şirin konfetləri ilə qarşılayıb üzərriyi otağımızda tüstülədən anam Süsən, ilk qədəmlərinə mübarək dediyiyi körpələri təzəcə ərsəyə gətirdiyi ipək üzlü döşək və balınca bir-bir qoyub,allah belə oğulların sayını çox eləsin!- dedi.Sonra, üzünü qonşu Mələk xanıma tutaraq bildirdi:-bacı vallah kasıbın var dövləti elə bu gözəl balalardır.Mələk xanım da cavab olaraq böyüyüb böyüklərdən,ata-analarına yarıyanlardan olsunlar,inşallah!-demiş oldu.Artıq dil-dil ötən Rəbiyyə qardaşlarının yanından əl çəkməyərək onların nazı ilə oynayır,əyləncəli rolunu da əsirgəmirdi.İnsafən körpələr də Rəbiyyəyə öyrəşmişdilər deyən, bacılarını görməyəndə elə ağlaşma dəmi tuturdular ki, sanki demək istəyirdilər ki,cıqqılı bacı getmə bizdən, gedərik özümüzdən.Elə ki körpələrə ad qoymaq məqamı gəldi, yaxın qonşular da adqoyma mərasimində iştirak etməyi lazım bildilər.Körpələr bir alma kimi bir-birlərinə elə oxşayırdılar ki, onları ayırmaqda belə çətinlik yaranırdı.Hərə bir ad məsləhət görürdü.Qonşu İsfəndiyarın atam Fərman ilə köçkünlükdən sonra elə dostluğu yaranmışdı ki, sanki uşaqlıqdan bir kənddə,bir ailədə böyümüşdülər.Odur ki,ərk edən İsfəndiyar kişi uşaqların bir-birinə oxşarlığını görüb həmqafiyə ad qoymağın məsləhətli olduğunu bildirdi.Atam da,ədəb xatirinə İsfəndiyar kişinin qafiyəli adına qarşı çıxmamaq üçün,bir vaxtlar kənddə olmuş bir hadisəni danışmağı lazım bildi.Kəndimizdə Nadir adlı kişinin də

üçəm ekizləri olmuşdu.Adlarını siz dediyiniz həmqafiyyə kimi Zahir, Mahir, Tahir qoymuşdu.Uşaqlarda maşallah olsun boy-buxun,qaş-göz bir alma kimi eyni idi və bir-birlərindən seçilmirdilər.Bir də görürdün uşaqların birini çağırır, Tahir. Uşaqların üçü də birdən çönürdü,-ata bizimləsən?Ə bala,Mahir səninləyəm.Eh,sən yox e,Zahir.Tfu yenə çaşdım,səninləyəm Tahir!Uşaqlara eyni səsli və həmqafiyəli ad qoymaq elə onların özlərini də çaşdırmış olur.Mənim üç qohumum olub, allah torpaqların nurla doldursun.Yadulla bibim oğlu idi, Allahverdi xalam oğlu, Dadaş isə əmim oğluydu.Hər üçü qeyrətli, mərd oğlanlar olub,1992-ci ildə Qarabağ müharibəsində vətən naminə canlarını fəda ediblər.Oğlum Hüseyin bu qohumlarımızı yaxşı tanıyır və inanıram ki, bu adı daşıyanların adları yaşamalıdır.İsfəndiyar kişi də,atamın ağılabatan mülahizələrini qəbul edib körpələrə deyilən adların qoyulmasına razılıq edərək,rəhmətə gedənlərin torpağı sanı yaşamalarını arzulamış oldu.Körpələrimiz gündən-günə, həftədən-həftəyə boy ataraq bir alma kimi o qədər oxşar olurdular ki, onları yalnız adları ilə ayırd etmək mümkün olurdu.Atama uyuşan körpələr böyüdükcə atamdan əl çəkmir və demək olar ki, bütün günlərini atamla keçirirdilər.Düzünü desəm üçəm körpələr olmamışdan öncə qız nəvəsi ilə parklardan əl çəkməyən atam, indi özünə nəvələr əyləncəsi yaratmışdı.Hərdən anam,atamı küçəyə çıxıb hava almağa dəvət edəndə atam deyərdi:ay Süsənciyim, adam belə gözəl və şirin nəvələri buraxıb parklarda lakqırtı vurmağa gedərmi?Mən bu

körpələrlə hava alıram, onlardı məni yaşadıb cavanlaşdıran.Vallahi körpələrlə əylənəndə elə özüm də körpələşirəm,-deyərdi.Günlərin birində işlədiyim tikinti idarəsində rəhbərlik mənim ev şəraitimlə, külfətimin 18kv.m.tək otaqda altı nəfərlə yaşamımı nəzərə alıb,eyni zamanda yataqxanada Bakı qeydiyyatımı da ev almaq üçün yaxşı hal hesab edib lazım olan sənədləri hazırlamaqla,mənzil növbəsində dayanmağımı məqsədəuyğun hesab etdi.İşimdə qüsurlu deyildim bacardığım qədər yaxşı işçi kimi tanınmışdım.Dünya yaxşı adamlardan fani deyil. Müdir Hətəmovun səyi ilə mənzil uçotunda dayanmaqla, nə vaxtsa mənzil sahibi olacağım günü gözləmək həvəsi ilə işimi canbaşla yerinə yetirməyə başladım.

İkinci hamiləlikdən sonra yoldaşımın körpələrimi dünyaya gətirərkən aldığı qinekoloji xəstəliyə rəğmən həkim məsləhəti ilə hamiləliyə ara vermək qərarında olsaq da,gözləmədiyimiz halda Səmayənin hamiləliyi bizi çaş-baş salmış oldu.Səmayəni həkimin qəbuluna aparıb yaranmış şəraitdə çıxış yolu tapmağını xahiş etdik.Çox qorxurdum ki,həkimin ara vermək məsləhətinə kor-koranə yanaşmağımızın fəsadı ola bilər.Həkim müayinəsindən sonra bəlli oldu ki,hamiləliyin ləğv edilməsi mümkün olmayacaq.Həkimin dediyinə görə,hamiləlik ekiz uşaqların olmasından xəbər verir.Mənim Səmayə üçün qorxduğumu hiss edən həkim məsləhət gördü ki,kritik vəziyyət yarandığı şəraitdə təcili müraciət etmək çox vacibdir.Biz həkimdən ayrıldıqdan sonra mən Səmayəmi fəsadlardan qorumaq üçün işdən icazə alıb tez-tez evə

gəlirdim.Mənim bu hərəkətim atamın gözündən yayınmamışdı.Atam elə başa düşmüşdü ki, mən darısqal otaqda necə yaşayacağımı düşündüyümdən işdən qaçaq olmuşam.Əslində mən yaranmış problemli ola biləcək hamiləlik məsələsini nə anama, nə də atama bildirmək istəmirdim.Bir gün atam mənə bildirdi ki, oğlum allahımız verəcək uşaqlara görə narahat olma.Qurban olduğum onların ruzisini onlardan qabaq göndərir.Rəbiyyə anamdan qalma gümüş bel toqqaları var idi. Toqqaları da satıb sənin otağının böyründəki otağı da almışam.Hər iki otaq arasına qapı qoydurub iki otaqlı edəcəm ki,bu da yeni doğulacaq uşaqların normal yaşamasına şərait yaradacaq.Düzü atamın bu qayğısı,mənim ailəmin xoşluğu üçün çalışması qarşısında aciz qalmışdım.Mən bir övlad olaraq atama övladlıq borcunu yerinə yetirə bilmədiyimə görə vicdan əzabı çəkirdim.Atam sanki mənim,ailəmin talismanı idi.Atam bütün həyatını mənə,ailəmə qulluğa həsr etmişdi. Atam məni yaradıb bu dünyaya bəxş etmişdi,ancaq mən övladlıq borcunu ödəmək üçün özümdə güc belə tapa bilmirdim.Səmayə demək olar ki, gündəlik iynə və dərmanlarla müalicəsini alırdı.Anam Süsən uşaqlardan bir dəm belə ayrılmayaraq onların qayğısına qalmaqla Səmayənin mükəmməl müalicə almasına çalışırdı.Bütün bunlara baxmayaraq daxili narahatlıq məni üzürdü.Bir müddətdən sonra mənim narahatçılığımı bilən atam, məni bu narahatçılıq üçün danlayıb bildirdi ki, ay bala kəndimizdə Nabat arvad var idi.Həkim nədi, tanımazdı.Əslində o vaxtlar kənddə, ancaq ara həkimləri

fəaliyyət göstərirdi.Yaxşı halda,doğum üçün imkanı olanlar rayon mərkəzindəki doğum evinə gedərdilər.Ancaq, Nabat arvad hamilə ola-ola gedib odun yığardı, üstəlik eşşəyi də yükləyərdi.Bir də görərdin Nabat arvad hamiləliyini özü yola vermiş, dünyaya gətirdiyi körpənin göbəyini dəhrə ilə kəsib düyünləmiş, körpəni də çayda yuyub üç-dörd dəst geydiyi tumanlardan birinə bələyərək odunları yüklədiyi eşşəklə bərabər evinə gəlmişdir.Kənddə hamı bilirdi ki, Nabat arvad altı uşağının hamısını odunluqda dünyaya gətirib.İndi sən yəqin ki, həkimin hər hansı sözü ilə qüssəyə batmısan.Allahımız necə buyurur elə də olacaqdır.Sən bu qüssənlə rəbbimizə küfr etmə!Verən də allahdır,alanda.Atamın bu nəsihətlərindən sonra,allahın qanunundan uzaqlaşmaq istəyimi qınayıb qəm-qüssədən uzaqlaşmış oldum.

2002-ci ilin may ayında hamiləliyin son vaxtlarında Səmayəmi doğum evinə yerləşdirdik.Hələ Səmayə hamiləlik dövründə müalicə alarkən həkimlər ekiz oğlan uşaqlarınin olacaqlarını əvvəlcədən bildirmişdilər.Eyni zamanda həkimlərin dediyinə görə aldığı müalicə nəticəsində Səmayəmin də vəziyyəti xeyli yaxşılaşmışdır.Odur ki, xəstəxananın həyətində otutrub intizarla allahımızın bizdən əsirgəmədiyi payımızın dünyaya gəlişlərini gözləyirdik.Hələ bu vaxta qədər doğum prosesinin belə çox vaxt apardığını görməmişdik.Həyəcanımdan otura bilmir,var-gəl edərək doğuşun rahat və ağrısız keçməsi üçün dualar edirdim.Anam Süsən uşaqlara diqqət göstərdiyindən xəstəxanaya gəlməmidi.Atam allah kəlamı ilə

durub oturduğundan daxilən sakit görünsə də, hiss edirdim ki,o da narahatçılığa qapılıb.Birdən doğum evində qopan hay-küy məndə anlaşılmazlıq yaratdı.Səmayənin yaxınlarından kim var burada,-deyə ağ xalatlı qadın soruşdu.Mən tez ağ xalatlı xanıma yaxınlaşanda,digər bir tibb işçisinin:-yazıq gəlin özü tələf olsa da,üç ekiz uşaqları yenə salamat qaldı.Ürəyimdən bərk ağrı hiss edib əlimlə ürəyimmi tutsam da,özümdən getmişdim.Handan-hana göstərilən tibbi köməkliklər nəticəsində gözümü güclə açıb Səmayəmi soruşsam da, başımın üstündə dayanıb göz yaşı axıdan atamı görüb Səmayəmin yoxluğunu hiss etmiş kimi yenidən bayılmışam.Gözümü bir vaxtlar açandan sonra palatada olduğumu görüb nə baş verdiyini soruşdum.Atam yanımda yox idi.Həkim isə bildirdi ki, sənə sakitlik lazımdır ürəklə oynamaq olmaz.Əgər məsləhətlərə əməl etməsən yeni bir infarktla üzləşmiş olacaqsan.Həkimlərin məsləhətli sözlərindən və ciddi baxışlarından anladım ki, mən infarkt keçirmişəm.Bu minvalla mən on gün ciddi müalicə alıb özümə gəlsəm də, Səmayəmin yoxluğu üçün daxilən fəryad edirdim.Atamın dediyinə görə onlar biçarə Səmayəmi dəfn etmiş,yeni doğulan uşaqların qayğısı ilə məşğuldurlar.Mən xəstəxanadan çıxdıqdan sonra, atamla bərabər Səmayəmin qəbrini ziyarətə getdim.Anamın,Səmayə gəlin gələndə hədiyyə etdiyi qırmızı saçaqlı ipək kəlağayını məzar üstündə görüb özümü qəbrin üstünə ataraq xeyli ağladım.Atam kənarda dayanıb həzin ağlayırdı.Mən hər dəfə Səmayəmə,-niyə məni və uşaqları atıb getdin?-sorğusu edəndə, atam əlini

çiynimə qoyub dedi:-oğlum o səni atmayıb.Onun ruhu uşaqlarındadır.Sən özündə bir möhkəmlik tap,uşaqları düşün.Əgər uşaqları yaxşı böyüdə bilsək Səmayənin də ruhu şad olacaq.Sonra əlavə etdi ki, Səmayə öləcəyini hiss etdiyindən, həkimlərə deyib ki, mən ölsəm də Hüseyinim uşaqlara baxacaq, onları böyüdəcək.Mən Hüseyinimə bütün varlığımla inandığımdan ölümümü xoşluqla qarşılayıram.Səmayənin ölüm ayağında dediyi bu sözlər mənim xəstə ürəyimi iki parça etsə də, daxilimdəki Səmayə çağırışına rəğmən özümü ələ alıb qalxdım.Səmayəsiz həyatımız necə olacaq ata?-deyəndə, atam buyurdu ki, evdə bizi yeddi körpə gözləyir.Hal hazırda o məsum körpələrə biz çox lazımıq.Atam qolumdan tutub getməyimizi vacib biləndə,mən Səmayəmdən ayrıla bilmirdim.Bir gözüm Səmayəmin uyuduğu məzarda,bir gözüm isə evdə, hələ ölümün nə olduğunu dərk etmək şansında olmayan yeddi körpəmdə qalmışdı.Birini itirmişdim, yeddisini yaşatmaq üçün atamla bərabər evimizə getdik.Həyətdə məni görən yataqxana əhli mənə şəfa diləyib,Səmayəmin vaxtsız ölümünə görə başsağlığı verirdilər. Altı yaşlı qızım və dörd yaşlarının tamam olacağı oğlanlarım üstümə atılanda onları və üzünü görmədiyim, görmək üçün tələsdiyim körpə uşaqlarımı yaşatmaq üçün allahdan ömür istədim.Otağa daxil olanda gözü yaşlı anamın lay-layı körpə uşaqlarımı şirin yuxuya aparmışdı.Anam məni görcək ağlamaqdan nəmlənmiş sifəti ilə, məni öpüb şəfa diləyəndən sonra, körpələrimlə olacaq görüşümə mane olmamaq üçün otağı tərk edib qızı-

mı və oğlanlarımı da özü ilə digər otağa apardı.Atamın ilk ekiz oğlanlarım üçün alıb düzəltdiyi kolyaskada yuxuya gedib mışıl-mışıl yatan körpələrimə baxdıqca Səmayəmin,-mən Hüseyinimə bütün varlığımla inanıram,o uşaqları böyüdəcək!-sözlərini yadıma salıb biixtiyar göz yaşları axıtdım.Şirin yuxuya getmiş körpələrimi oyatmamaq üçün Səmayəmin iyisini alacağım yastıqla ağzımı qapayıb yuxuya getdim.Yuxu röyası məni kəndimizə,-İşıqlıya aparmışdı.Həyət bacada xeyli toyuq-cücələrə dən səpən Səmayə uşaqları başına yığıb Həkəri çayında çimməyə aparırdı.Çay qırağında  böyük vannada su isidən Səmayə növbə ilə uşaqları çimdirir Yadulla,Allahverdi, Dadaş isə çay qırağındakı sal daşların üstündə oturub ayaqlarını suya sallayaraq şappıltı ilə bir–birlərinə su çiləyirdilər.Qızım Rəbiyyə isə, çay qırağında qurumuş ağaclardan qucağına yığaraq anasına kömək edirmiş kimi közərmiş ocağa odunları qoyurdu.Səmayəmin,uşaqlarımın çay qırağı mənzərəsini gördükcə fərəhlənir və xoşbəxt anlar keçirirdim.Fərəhimdən üzümü yaradanımıza tutub yalvarırdım ki, belə gözəl günləri bizdən əsirgəmə.Birdən uşaq ağlartısı məni şirin röyadan oyatmış oldu.Tez ayağa qalxıb uşaqlarıma baxdım.İlahi,körpə uşaqlarım məni görcək gözlərini mənə dikəldib instintik olaraq  elə baxırdılar ki, sanki məndən kömək istəyirdilər.Ani olaraq xəyallandım. Kəndimizdəki evimizin ikinci mərtəbəsindəki açıq aynabəndimizin taxtadan düzəldilmiş tavanında quşların körpə və cılız balalarını necə yemlədiklərini xatırlamış oldum.Ana quş yuvada cik-ci-

rik edərək dimdiklərini geniş açmış balalarını ağzında gətirdiyi yemlə bir-bir yedirdirdi.Xəyal məni gerçəkliyə apardı.Körpə uşaqlarım deyəsən ac idilər.Birdən gözümə “Similak” uşaq süd poroşoku dəydi.Rezin əmciyi olan şüşə qabda körpələrə yemək hazırlayıb,körpə quşlar dimdiklərini açaraq yem istədiyi kimi,onlara tanış olan süd qabını da ağızlarına apardım.Süd qabını görən körpələrim  ağızlarını açıb əmciyi sormağa başladılar.Mən körpələri yedizdirəndə,anam otağa daxil olub körpələri yedirtmə mənzərəsini görüb qəmləndi.Bir azdan qızım Rəbiyyə də gəlib mənimlə bərabər körpələri yedizdirdi.İlk dəfə qızımın körpə yedizdirməsini gördüyümdən məətəl qalmışdım.Qızım eyni ilə anası Səmayə idi.Körpələrin qırxında adqoyma mərasimi keçirmədik.Atam körpələrə öz bildiyi kimi adlar qoymuşdu.İldırım, Gülalı, Arif.

Mən hər gün işimə gedir, işdən sonra Səmayəmin qəbrini ziyarət edir, uşaqlarım barədə onunla xeyli danışır və onların gündən-günə bir arpa boyu böyümələrini ona ərz edirdim.Hər dəfə danışdıqca hiss edirdim ki, mən daxilən rahatlanıram.Ayrılanda baş daşınndakı şəkilin gülümsər olduğunu görürdüm və məndə belə bir fikir yaranırdı ki, Səmayəm məndən razıdır.Artıq, Səmayəmin ölümünün ildönümü idi.Birinci sinifə getməyə hazırlaşan qızım Rəbiyyəni,beş yaşlarına qədəm qoyacaq Yadullanı, Allahverdini,Dadaşı və iki yaşları tamam olmuş İldırım, Gülalı,Arif sonbeşiklərimi analarının qəbrini ziyarət etməyə aparmişdim.Qızım anasının yoxluğunu dərk etmiş-

di deyən, sakitcə ağlayırdı.Yadulla,Allahverdi,Dadaş isə bacılarını ağlamamağa çağırır və onu ovutmağa çalışırdılar.Sonbeşiklərim isə heç nə olmamış kimi, yıxıla-dura oynayırdılar.Mən Saməyəmlə könlümün dili ilə danışırdım.Şəkildən mənə baxan gözlərdə olan alqışı duyur və onun əbədiyyət dünyasında rahat uyuması üçün allaha dua edirdim.

Beləcə həyat öz keşməkeşli axarı ilə davam edirdi.Atam Rəbiyyəni,Yadullanı,Allahverdini,Dadaşı gündəlik məktəbə aparır, anam isə sonbeşik nəvələrinin qayğısına qalırdı.Axşamlar atam İşıqlı kəndinin Həkəri çaylı füsunkar mənzərəsindən danışaraq uşaqların qəlbində İşıqlı kəndini əbədiləşdirirdi.Sonra mənim babam Fərman kişinin faşist almanlarla vuruşmağımdan,həlak olmasından,sonra mənim erməni quldurlarına qarşı birinci Qarabağ müharibəsində iştirakımdan,yaralanıb qazi olmağımdan söhbətlər edirdi.Uşaqlar məndən də əl çəkməzdilər.Mən erməni quldurlarının torpağımızı işğal etdiklərini, torpaqlarımızı viran qoyduqlarını danışarkən uşaqların haqsızlığa olan nifrətini görürdüm.Onlar əgər böyük olsaydılar yəqin ki, haqsız quldurlara qarşı döyüşə gedərdilər.Anam isə Həkəri çayının mənzərəsindən, İşıqlı kəndimizin işıqlı həyatından elə şirin nağıllar danışardı ki,uşaqların kəndə olan həvəsləri artardı.Beləcə,nağıllar aləmində olduğu kimi illər gəlib keçirdi.İndi uşaqların hamısı məktəbli idi.Artıq uşaqlarım məktəbdə Azərbaycan dövləti,onun yadellilər tərəfindən parçalanan torpaqları,bu torpaqları düşmənlərdən qoruyan

Azərnbaycan igidləri haqqında müntəzəm biliklər alırdılar.Nədənsə oğlan uşaqlarımın vətənpərvərliyi,idmana, hərb elminə olan həvəsləri mənə bir ata kimi daha kamil görsənirdi.Sonbeşiklərimdən yeganə olaraq Arif daha çox kompyuterə maraq göstərirdi.Qızım Rəbiyyənin tibb sahəsinə olan meyli isə məndə fərəh hissi yaradırdı. Artıq uşaqlarım böyüyərək orta məktəbin yuxarı siniflərində orta təhsillərini davam etdirirdilər.

Axır vaxtlar uşaqların qayğısını çəkə-çəkə yaşlaşmış anam tez-tez bədənində baş verən ağrılardan şikayətlər etməyə başlamışdı.Ağrılarının şiddət etməsi səbəbindən həkimlərə etdiyimiz müraciətlər və müxtəlif həkimlərin qoyduğu xəstəlik diaqnozları və yazılan müxtəlif dərmanlar anamın ağrılarına əlac etmirdi.Dövlət xəstəxanalarından tutmuş özəl klinikalara qədər müraciət etmədiyimiz müalicə ocaqları qalmamışdı.Anam isə gündən-günə əriyirdi.Bir müddətdən sonra qarın boşluğuna yığılan suyun ağrılar verməsinə rəğmən anam xəstəxanaya yerləşdirildi. Bir neçə gündən sonra məlum oldu ki, anamın qara ciyərində sirroz xəstəliyi yaranmışdır.Həkimlərlə məsləhətləşdikdən sonra belə məlum oldu ki, anamın xəstəxanada müalicəsinin effekti olmayacaq.Hətta bir az da irəli gedərək dəqiqliklə dedilər ki, anamın yaşamı uzaq başı bir ay ola bilər.Mən daxilən qırılsam da özümdə təmkinlilik yaradaraq anama, atama bu acınacaqlı mərəz haqqında heç bir söz demədim.Ancaq,həkimlər xəstəni vaxtında müalicəyə gətirməməkdə bizi günahlandırırdılar. Bizim onu "öldürüb"gətirməyimizi demələri isə

məni varımdan yox etmişdi.Anamın ağrıları başlayan gündən müxtəlif həkimlərin,hətta xaricdən gəlmiiş həkim-alimlərin(Avropanın və Dünyanın bir neçə tibb strukturlarının fəxri“qonaq gəlmiş” alimləri)anama olan tibbi baxışları və yazılmış dərmanların effektsizliyi haqqında məni suçlayanlara nə deməliydim ki?Anamın əlacsız dərdini allahın qisməti kimi qəbul edib xəstəxanadan evə götürəndən sonra atama olanları təklikdə danışmış oldum.Həməşə şən əhvali ruhiyyədə olan atamın qapqara qaraldığını və hönkürtü ilə ağladığını görüb gözlərimin yaşını saxlaya bilmədim. Aylar-illər ərzində için-için sızlayan qəlbim elə yanmışdı ki, bu yanğının gözlərimdə yaşa çevrilməsinin qarşısını ala bilmədim.Atamla qol-boyun olub ilk dəfə yetim olacağımı hiss etdim və yeddi balamın da yetimliyini yada salıb atamdan da betər hönkürməli oldum.Bir müddətdən sonra şiddətli ağrılara dözməyib haraylar edən anam dünyasını dəyişmiş oldu.Anamı qaçqın və köçkünlər üçün nəzərdə tutulmuş qəbiristanlıqda,Səmayəmin böyründə dəfn etməli olduq.Anamın ölümü atamı çox sarsıtmışdı.Anam doğma torpağında dəfn olunmasını arzulasada, bu arzu onun qəlbi ilə bərabər əbədiyyətə qovuşdu.Uşaqlarım böyüdüklərindən,dərsləri ilə məşğul olduqlarından atama əziyyət vermədikləri üçün tənhalığı seçən atam,yataqxana yaxınlığındakı bağda saatlarla oturar, fikirlərə qərq olardı.Torpaqlarımızın hələ də erməni işğalında olmasını qəbul etməyən atam, tezliklə torpaqlarımızın azad olunmasını allahından rica edirmiş kimi dualar edirdi.Bir gün

sərhədimizə soxulmaq istəyən erməni vertolyotlarından birinin vurulmasını eşidən atam, əsgərlərimizə alqışlar edərək deyirdi:-vuran əllərinizə qurban olum igid balalarım!Həmin andan sonra atamda belə bir ümid yaranmışdı ki, gec-tez torpaqlarımız düşməndən azad olunacaq.

Qızım Rəbiyyə orta məktəbi başa vurub Tibb İnstutunun tələbəsi oldu.Elə həmin il ilk ekizlərim Yadulla, Allahverdi və Dadaş C.Naxçıvanski adına hərbi litseyə daxil oldular.2016-cı ilin aprelində Erməni-Azərbaycan hərbi toqquşmasını çılğınlıqla qəbul edən hərbi litseyin tələbələri olan ekizlərim sakit oturmayaraq erməni hərbi quldurlarına qarşı olan nifrətlərini döyüş meydanında göstərmək arzusularını gizlədə bilmirdilər.Bu döyüşlərdə erməni quldurları cəzalarını layiqincə aldılar.Atam isə dayanmadan əsgərlərimizə dualar edərək hucumu davam etdirib bütün torpaqlarımızın düşməndən azad olunmasını istəyirdi.Bu dörd-beş günlük hərbi toqquşmanın dayanmasını həzm etməyən atam nəvələrinə sual edərək deyirdi:-yaxşı, siz də bir neçə ildən sonra hərbçi olacaqsınız.İndi deyin görüm, niyə əsgərlərimiz hucuma keçib torpaqlarımızı azad etmədilər?Hərbi litsey təhsilçilərindən Yadulla siyasətlə maraqlandığından bildirdi ki, ay baba kim istəməz ki,torpaqlarımız azad olunmasın.Bizim ordumuz işğalda olan torpaqları azad etməyə hazırdır.Ancaq, bizim dövlətimiz erməni işğalını qan tökmədən,sülh yolu ilə həll etmək istəyir.Atam isə keçmiş müdrik kişilər kimi oğluma bildirdi ki, oğlum torpaq uğrunda şəhidlik olmasa,torpaq xoşluğunan qaytarılmayacaq. Oğ-

lum Yadulla babasının boynunu qucaqlayıb bildirdi ki, sülhə olan ümidlər tükənsə, bizlər hərb yoluynan torpağı azad edəcəyik. O zaman bölünməz torpağın şəhidləri də ölməzlik zirvəsinə qalxmış olacaqlar.İlk sonbeşiklərim elə həmin il Bakı Ali Ümumqoşun Komandirləri məktəbinə daxil oldular.

Günlərin birində iş yerimdən məni rəhbərliyə dəvət edib mənə dörd otaqlı mənzilin açarlarının təqdim edilməsi yataqxanamızdakı evimizdə əsil bayrama çevrilmiş oldu. Yeni evimizə bir həftəyə köçməyimiz lazım gəlirdi. Evdə təmizlik işi aparan uşaqlarım otaqların bölüşdürülməsini müzakirə edib sevinclərini gizlədə bilmirdilər.Otaqları özüm bölüşdürüb uşaqlarım müzakirələrinə son qoymuş oldum.Balaca otağı qızıma,digər iki otağı ekizlərimə verib,digər otağı atamla özümə saxlamış oldum.Yataqxanada hazırlıqlar edərkən atam yataqxanadan yeni evə getməyəcəyini, yataqxanaya öyrəşdiyini və burada qalacağını desə də  uşaqlarım elə narazılıq hay-harayı etdilər ki, atamın razı olmaqdan başqa çarəsi qalmadı.Səmayəmin və anamın xeyli paltarlarından yadigar olaraq bir dəst paltar götürüb,anamın atası tərəfindən cehiz kimi verilmiş bəzəkli sandıqçasına qoyaraq atamla mənim yaşayacağımız otaqda yerləşdirdik.Həm anamın, həm də Səmayəmin sandıqçada saxladığımız paltar dəstləri bizim üçün çox əziz idi.İndi iş elə gətirmişdi ki,təzə evimizin qəbiristanlığa yaxınlığından istifadə edərək işimdən sonra  atamla bərabər,demək olar ki hər gün qəbiristanlığa gedib əzizlərimizi yad etməyə başlamışdıq.

İlləri bir-bir yola salırdıq.2020-ci ildə baş verən hadisələr,ən çox Covid-19 virus xəstəliyi bütün dünyanı vahiməyə saldığı kimi Azərbaycanımızdan da yan keçmədi.Fevral ayından başlayan virus xəstəliyi aprelin ilk günlərində ciddi karantin qaydasının yaranmasına səbəb oldu.Əhalinin küçəyə çıxmasına qarşı, ən çox yaşlıların özünü qoruması üçün icasə SMS sisteminə keçilməsinə başlanıldı.Virusdan qorunmaq üçün bir çox gigiyenik tədbirlərlə bərabər maska taxılmasının məcbur olması,iki metr ara məsafəsi saxlanılması gündəlik yaşam tərzinə çevrildi.Hamımız çalışırdıq ki, virusdan qorunmaq üçün deyilən tədbirlərə riayət edək.Atamın yaş çoxluğunu nəzərə alıb ona diqqət yetirsək də, maska taxmağı şəninə sıxışdırmırdı.Durub-oturub deyirdi ki, keçmişdə gəlin-qadınlar abır-həya edərək yaşmaq vurardılar.İndi gör nə əyyam gəlib ki,arvadlı-kişili hamı yaşmaq taxır.Atam, hətta maskalara dair bayatı da qoşmuşdu:

***Maskalar, ay maskalar,***
***Ağ-qaralı maskalar.***
***Yaşmaq yoxa çıxıbdı,***
***Moda düşüb maskalar.***

Covid-19 virus xəstəliyi bütün dünyanı gəncinə alandan sonra, əslən Astaradan olan və qonşuluqda yaşayan atam yaşıdlı Əhməd kişi,atamın sözlərinə qüvvət verərək deyərdi ki, bu dünya Allah-Təalanın qoyduğu cızıxdan uzaqlaşdığından,allahımız insanları düz yola gə-

tirmək üçün onları imtahana çəkir.Yəni qiyamət günü artıq başlayıb.Görək bu qiyamətdən necə çıxacağıq.Atamdan fərqli olaraq Əhməd kişi maska taxar, məsafə saxlar, üstəlik əl-üzünü dəqiqədə bir sabunla yuyardı.Əhməd kişinin oğlu Natiq müəllim bir neçə dəfə Astaraya getsə də,Əhməd kişi getməzdi.Hərçənd Astaradan ağız dolusu danışar, xiffət də çəkərdi. Ancaq, virus məsələsinə gələndə Astaraya getməkdən çəkinər və Astarası üçün xiffətli bayatı da deyərdi:

***Əzizim Astaraya,***
***Xəzri saçın daraya.***
***Virus imkan verməyir,***
***Bir gedəm Astaraya.***

2020-ci ildə İlk sonbeşiklərim Yadulla,Allahverdi və Dadaş Ali hərbi məktəbi başa vurub zabit olaraq hərbi xidmətə yollandılar.Yadulla və Allahverdi quru qoşunlarl üzrə, Dadaş isə Artilleriya üzrə komandir olaraq hərbi xidmətə başlamışdılar.Onların hərbçi şəkillərinə baxaraq fərəh hissi keçirirdim.Mən özüm hərbçi olmasam da, müharibədə hərbçi peşəsinin necə möhtəşəm olduğunu görmüşdüm.Qızım isə Tibb Universitetinin beşinci kurs tələbəsi idi və dediyinə görə beşinci kursdan sonra tibbi təcrübə qazanmaq, nəzəri oxuduqlarını təcrübədə həyata keçirmək üçün bir il işlədikdən sonra diplom almalı olacaqdı.Sonbeşik ekizlərim orta məktəbin son sinifində oxuyaraq iyunda məktəblərini başa vurmalı idilər.İldırım

və Gülalı idmançı kimi yetişmişdilər.Qaydasız döyüş üzrə bir çox yarışlarda iştirak edib qaliblər olaraq mükafat da qazanmışdılar.İldırım və Gülalı günlərini idman klublarında keçirib idmançı formalarını qaydaya salmaqla məşğul olurdular.Lakin,virus infeksiyası yaranandan bəri idman klubları bağlandığından təəssüflər keçirərək gündəlik idmanla məşğul ola bilmirdilər.Hər iki oğlum Bədən Tərbiyəsi İnstitutuna daxil olmaq arzusunda idilər.Arif oğlum isə tamam başqa birisi idi.Elə ilk vaxtlardan kompyuterə olan marağı sönməmiş,kompyuter kurslarına gedərək müəyyən bilikləri əxz etmiş, hətta bir neçə nəfərlə yığışaraq kompyuter kursları da açmışdılar.Arif zarafatı sevən,ancaq zarafatı yerinə uyğun edən bir uşaq idi.Hərdən kompyuterdə özünün qocalığını göstərən şəkillərlə bizi güldürərdi.Arif kompyuter kurs binasının yanında yerləşən Tir güllə atıcılıqına gedərək nişangahları tən ortasından vurardı.Odur ki, yoldaşları onu snayperçi Arif kimi çağırardılar. 2020-ci ilin isti iyul ayında baş verən Ermənistan-Azərbaycan hərbi toqquşması bütün Azərbaycan xalqını ayağa qaldırmış oldu.”Qarabağa azadlıq!”-deyərək bütün cavan, orta nəsil Bakı küçələrinə çıxaraq orduya,dövlətə həmrəylik nümayiş etdirib torpaqların azad edilməsi şüarını irəli sürürdülər.Sonbeşiklərim İldırım,Gülalı,Arif də həmrəylik nümayişində iştirak edərək,səhərisi könüllü olaraq hərbi səfərbərlik idarəsinə gedib müharibəyə getmələrini xahiş etmişdilər.Sonradan məlum oldu ki,artillerist oğlum Dadaş da komandir olaraq bu hərbi münaqişədə düşmənə zərbə vuranlar-

dan biri olmuşdur.Dadaşın bu hərbi toqquşmada göstərdiyi şücaət komandanlığın valideyin olaraq mənə göndərdiyi təşəkkür məktubunda əks olunmuşdu,deyən fərəhimin həddi-hüdudu yox idi.Qızım Rəbiyyə hərbçi qardaşları ilə fəxr etməklə bərabər,sonbeşik qardaşlarının könüllü hərbi səfərbərliyə gedib yazılmalarını alğışlayır və deyirdi ki, əgər vətən lazım bilsə mən də tibb nümayəndəsi olaraq hərbə getməyə hazıram.Qızım Rəbiyyə mənə eynən Səmayəni xatırladırdı.Onun hərbə getməsinə heç cür razılıq verə bilməzdim.İkinci də ki, sağ olmuş Rəbiyyə atamın və mənim nazımızla oynayırdı.Çay,çörək,paltar hazırlıqlarını kim edəcəydi ki?Tibb sahəsinin nümayəndəsi olduğundan tələbkar olan Rəbiyyə atama maska taxmağı dəfələrlə xahiş etsə də, nəvəsinin könlünə toxunmayan atam,yalnız bağa gəzməyə gedəndə maska taxmağını görərdim.Atam maskada özünü çox utancaq hiss edirdi deyən, bayıra çıxan kimi maskanı qatlayıb cibinə qoyardı.Bax, belənçi günlərin birində atamın istiliyi qalxıb düşmədi ki,düşmədi.Üstəlik quru öskürək, nəfəs alanda az qala baş verən boğulma halları ona gətirib çıxardı ki, atam infeksiya xəstəxanasına yerləşdirildi və bir neçə gündən sonra dünyasını dəyişmiş oldu.Yas yığıncağı ləğv edildiyinə görə qonşumuzdan Əhməd kişi və sonbeşik uşaqlarımın iştirakı ilə atamı anamın yanında dəfn etmiş olduq.Bəli köçkünlükdən bəri Səmayəmi,ana-atamı itirib allah uşaqlarıma dəyməsin duaçısı kimi, qonşumuz Əhməd kişi deməli "cılğı yetimliyi" qəbul etmiş oldum.Hərbdə olan oğlanlarım imkan tapdıqca mənə və

uşaqlarıma zəng edərək vəziyyətlərinin yaxşı olduğunu bildirirdilər.Harada xidmət etmələri hərbi sirr olduğundan sadəcə “N”saylı hərbi hissələrdə qulluqçu olduqlarını bildirir və gərgin anlarda telefon zənglərinin olmayacağını da qeyd edərək məni narahat olmamağa dəvət edirdilər.Əslində, mən birinci Qarabağ müharibəsində iştirak edərkən belənçi telefonların olacağını ağlıma belə gətirməzdim.İndi dövr elə dəyişib ki, telefonla nəinki danışmaq, özüdə görüntülü danışmaq hərbi sirrin düşmən əlinə keçməsinə şərait yarada bilərdi.Düzünü desək mən bu telefonların dilini başa düşmədiyimdən hərbçi uşaqlarımdan xahiş edirdim ki, nə qədər gərginlik olsa belə zəng etməyin.2020-ci ilin avqustunda erməni hərbi quldurları Beyləqan istiqamətində təxribat törətdikləri zaman diversant təxribatçıların komandiri əsir götürülmüşdü.Yadulla oğlumun xidmət etdiyi Beləqan“N”hərbi hissəsinin kəşfiyyatçıları böyük şücaət göstərmişdilər.Komandir oğlum bu barədə fəxrlə danışanda, mən tək Yadulla ilə deyil hərbdə olan oğlanlarımla,könüllü olaraq hərbə yazılmış sonbeşik əkizlərimlə qürur duyurdum.

2020-ci il sentyabrın 27-də Erməni silahlı qüvvələri yenidən vətənimizə qarşı elan edilməmiş müharibəyə başladılar.Düşmən elə ilk günlərdən ağır silahlardan,iri çaplı minomyotlardan,eyni zamanda artilleriya və tanklardan istifadə etməklə genişmiqyaslı olaraq bütün cəbhə boyu hucuma keçdilər.Azğınlaşmış düşmənin hucumlarının qarşısını almaq,əhalinin təhlükəsizliyini təmin etmək üçün Azərbaycan ordusu müharibənin ilk günündə

düşmənin otuz ildə yaratdığı müdafiə xarakterli istehkamlarını yararaq elə həmin günü də, erməni silahlılarına zərbələr endirməklə işğal altında olan Füzuli və Cəbrayıl istiqamətində bir neçə kəndlərimizi düşmənlərdən azad etmiş oldular.Sevindirici hal o idi ki, elə ilk müharibə günündən hərbi strateji əhəmiyyət kəsb edən Ağdərə, Murovdağ yüksəkliklərinin ordumuz tərəfindən ələ keçirilməsi bu müharibədə müzzəffər Azərbaycan ordusunun gələcək qələbəsinin ilk qığılcımlı təntənəsi idi.Düşmən bütün cəbhə boyu hucuma keçsədə,əsas hərbi gücünü Füzuli-Ağdam istiqamətində yerləşdirmişdi.Düşmənlər Füzuli-Ağdam istiqamətində bütün əraziləri minaladığından,bir-birinin ardınca keçilməz sədd olan istehkamlar qurduğundan Azərbaycan ordusunun bu istiqamətdə hucuma keçəcəyinə,minalardan zərər çəkəcəyinə və erməni quldurlarına qarşı vuruşda daha çox itgilər verəcəyinə özündə əminlik yaratmışdı.Lakin, düşmən bərk yanılmışdı. Azərbaycan ordusu komandanlığı erməni hiyləgərliyini əvvəlcədən başa düşmüşdü.Düşmənə gözləməyəcəyi cinahlardan hucum etmək nəzərə alındığından hucum istiqaməti dəyişdirilmişdi.Ağılsız düşmən Azərbaycan ordusunun və onun Ali Baş komandanının bu fitvaya getməyəcəyini hesablamamışdı.Lazım olacaq qədər döyüşçü qüvvəsini Ağdam-Füzuli istiqamətində saxlamaqla Azərbaycan Ordu komandanlığı Ali Baş komandanın rəhbərliyi ilə“Dəmir yumruq”əməliyyatını Talış kəndi və Suqovuşan istiqamətində son məqsəd Şuşa olmaqla,eyni zamanda dövlət sər-

hədləri Arazboyu istiqamətində qalibiyyətli hucumların davam etdirilməsini vacib saydılar.İstehkamçı əsgərlər düşmənin minaladığı əraziləri gecə-gündüz təmizləməklə quru qoşunların və texnikaların irəliləməsi üçün şərait yaradır,eyni zamanda düşmən hucumuna qarşı minalar tərbiq etməklə onları ağır itgilərə məruz qoyurdular.Müharibənin elə ilk günündə Ali Baş komandanın xalqı vətən uğrunda birliyə çağırması xalq-ordu-prezident birliyinin sıx möhkəmlənməsinə təkan verdi.Minlərlə gənclərimiz,birinci Qarabağ müharibəsinin iştirakçıları,kişi qeyrətli qızlarımız vətənin azadlığı uğrunda könüllü olaraq müharibəyə getdilər.Həmin gənclər içərisində Hüseyin kişinin oğlanları İldırım,Gülalı,Arif də var idi.Hüseyin kişi və qızı Rəbiyyə qürur hissi ilə İldırımı, Gülalını və Arifi düşmənə qarşı vuruşmaq üçün ön cəbhəyə yola saldılar.Ata-bala müharibə meydanında vuruşa gedənlərə özlərini düşmən gülləsindən qorumağı xahiş etsələr də, vuruş üçün ruh yüksəkliyi keçirən övladlar ata və bacıdan Covid-19 pandemiyasından qorunmağı məsləhət görürdülər.Qızım Rəbiyyənin oğlanlarıma zarafatla dediyi,torpağı düşməndən almayınca geri qayıtdı yoxdu!-sözləri məni ani olaraq düşmənlə vuruşduğum anlara apardı.

O vaxt biz aslan kimi vuruşurduq. İgid oğlanlarımız səriştəsiz ölkə rəhbərliyinin, komandirlərin yarıtmazlığının güdazına gedərək məhv olurdular.Nizamsız ordu,hərənin bir dəstə yaradıb kortəbii vuruşması,silahların çatışmamazlığı məğlubiyyətin səbəbi olmadımı?! Bütün bu yarıtmazlığı görən 18 yaşlı əsgər bəzən fərarilik

etməyə çalışırdı.Elə fərarilik demişkən.Müharibədən sonra yataqxana qonşuluğunda köçkün həyat keçirən Qürbət kişi danışırdı ki, birinci Qarabağ müharibəsinin millətimiz üçün acınacaqlı çağları idi.Küçədən keçirdim.Kəndimizdən olan və məni tanıyan cavan bir oğlan qaçıb məni qucaqladı ki, ay Qürbət dayı məni qovalayan bu hərbçilərdən qoru başına dönüm!Bir də gördüm avtobusdan düşən bir zabit mənə yaxınlaşıb məni qucaqlayan cavan kəndçimi süzərək, məndən soruşdu: -ay kişi,  bu fərari sənin nəyindir?Düzü sualdan diksindim.Dedim ki, bu uşağı mən yox,o məni tanıdığından mənə pənah gətirib.Bir də baxdım ki, avtobusda xeyli cavan uşaqlar var.Anladım ki,əsgərliyə getməyənləri,yaxud hərbdən qaçanları son vaxtlar küçədə belə tutub avtobusa mindirərək döyüş meydanına göndərirlər.Bərk-bərk yaxamdan tutmuş və tir-tir əsən oğlan-kəndçimə bildirdim ki, ay bala sən pəl kimi oğlan ola-ola niyə döyüşdən qaçırsan?Bəs bu torpağı siz cavanlar qorumasa vətəni kimlərin ümidinə buraxmalıyıq?Get oğlum,vətəndaşsız vətən olmaz! Cavan kəndçim məndən əl çəkməyib onu aparacaq zabitə də tabe olmayaraq güc də göstərməyi bacarırdı.Düzü tanımadığım cavan kəndçimi özümdən ayırıb onu zabitə təhvil verdim.O vaxtdan bir neç il keçmişdi.Şəhidlər xiyabanını ziyarət edirdim.Təsadüfən, fərarilik edən kəndçim cavanın qəbirindəki baş daşında şəkilini görüb nəzərimi şəkilə dikdim.Ancaq, şəkilə çox baxa bilmədim.Şəkildən mənə baxan cüt  gözlər, sanki mənə sual edirdi ki, əgər sən məni zabitə təhvil verməsəydin torpaq altında

yatmazdım.Qürbət kişinin mənə çoxdan deyilmiş bu fərari hadisəsinin əsil səbəbkarları yarıtmaz komandirlərlə bərabər,səriştəsiz dövlət rəhbərləri idi.Min kərə allaha dua edirdim,yaxşı ki, H.Əliyev xalqa rəhbərliyi,orduya olan qayğısı ilə dövlətimizi bəlalardan qurtarmış oldu.İndi mənim altı oğlum hərbdədilər.Düşmənə qarşı igidliklə vuruşurlar.Çünki, Ali Baş Komandanımız elə bir möhtəşəm dövlət, mükəmməl bir ordu yaratmışdır ki, xalq rəhbərə inandığına görə ətrafında sıx birləşibdir.Dövlət-xalq-ordu birliyi olan yerdə qələbə ola bilər.Mən və qızım tez-tez televizoru izləyərək,Ali Baş komandanımızın bizlərə qələbə sevincini deyəcək anlarını izləməyə başlamışdıq.

Müharibənin ilk anlarında övladlarım mənə zəng edib xidmətləri haqqında ağız dolusu danışsalar da, mənim onlardan yeganə xahişim o olurdu ki, mənimlə daha telefon əlaqəsi saxlamasınlar.Vallahi-billahi məndən asılı olmurdu.Uşaqlar mənə zəng edəndən sonra həyəcan keçirirdim, gecəni belə yata bilmirdim.Xoşagəlməz fikirlər məni didib parçalayırdı.Ancaq,belə zəng etmədikləri vaxtları allaha pənah aparıb onların sağ-salamat olması üçün dualar edirdim.Nə isə, uşaqların danışığından belə aydın olurdu ki, komandir oğlum Allahverdi Füzuli istiqamətində düşmənlə vuruşur,digər komandir oğlum Yadulla Cəbrayıl rayonu Arazboyu istiqamətində döyüşlər aparır,artilleriya komandiri Dadaş isə Tərtər rayonunun Talış və Suqovuşan kəndləri istiqamətində düşmən hərbi istehkamlarını, onların texniki silahlarını sıradan çıxarda-

raq erməni silahlılarının hucumlarını iflic halına salır.İdmançı övladlarım İldırım və Gülalı isə Müdafiə nazirliyinin Xüsusi Təyinatlı Qoşunlarında hazırlıq keçirdilər və yeri gəldikdə düşmən arxasında kəşfiyyata da gedirdilər.Arif oğlum isə Murovdağ istiqamətindəki yüksəkliklərdə döyüş mövqeyində duraraq snayperçi kimi əsgərlər arasında şöhrətlənmişdi.Beləcə döyüşən oğlanlarımla fəxr edərək işimə gedir,axşamlar qızımla bərabər intizar içində müdafiə nazirliyinin sözçüsünün çıxışını gözləyirdik.Müharibənin ilk günündə Ali Baş Komandanımızın elan etdiyi qələbə xəbəri belə ki, Füzuli rayonunun Qaraxanbəyli,Qərvənd,kənd Horadiz,Yuxarı Əbdürrəhmanlı kəndlərinin,Cəbrayıl rayonunun Böyük Mərcanlı,Nüzgar kəndlərinin, o cümlədən Murovdağ və Ağdərə yüksəkliklərinin azad edilməsi xəbərini eşidəndə qızım və mən sevincimizdən bayram əhvalını keçirtdik.Bu münasibətlə qızıma kəkotulu çay dəmlətdirib,allahımızın biz müsəlmanlara halal saydığı xurma ilə ağzımızı şirin etdik.Ürəyimdə oğlanlarıma dua edir və hiss edirdim ki, övladlarımın da bu qələbədə payları var. Ordumuzun irəliləyişi,strateji əhəmiyyət kəsb edən yüksəkliklərin, düşmən mövqelərinin ələ keçirilməsi qələbəmizə olan ümidimizi gündən-günə artırırdı.Elə bu əhvali-ruhiyyə ilə gecəmizi keçirir və sabahısı sevinc dolu hisslərlə işimizə gedirdik.

Oktyabrın üçü idi.Həmişəkindən fərqli olaraq, bu gün sübh tezdən kefim kök olaraq işimə tələsirdim. Elə tikinti idarəsinin qapısına çatmışdım ki, “qara pişik” saydığım Əhliman qarşıma çıxdı.Bu adam yuxarı rəhbərlər

qarşısında əzilib-düzəlməyi,yaltaq ifadələri ilə çox “hörmət” qazanmışdı.Mənim isə,boy-buxunlu olub əzilib-düzülənlərdən acığım gəldiyindən ondan heç xoşum gəlməzdi.Üstəlik bu kişi qarşıma çıxanda mənim kefimə elə bil soğan doğrayırdı.Vur tut bir oğlu var idi.Özü kimi pəzəvəngin biriydi,üstəlik də tərbiyədən nol.Axşama kimi xoruldayan maşını ilə şəhər küçələrini ələk-vələk edirdi.Yol polisləri bu vələdəznəni yol-hərəkət qaydalarını pozduğuna görə tez-tez təqib edərək tikintiyə gələrdilər. Ancaq,varlığa nə darlıq.Yol polisləri əsəbi gələr,gülümsünərək gedərdilər.Üstəlik də,allah əvəzini versin deyərdilər. Nə isə. Əhlikef və qudurğan Əhliman durub-oturub başıma qaxırdı ki, ə kişi çolax ola-ola bu yeddi uşağı neynirdin!? Bir uşağın olardı bəs edərdi.Camaatın qızın alıb, uşağa görə ölümünə səbəb olmağın isə bağışlanmazdır. Düzü həmən an əsəbimdən partlayardım.Özümü ələ alıb fikirləşərdim ki, əgər özünü ağıllı hesab edən adam axmağa baş qoşacaqsa, onun daha axmaqdan fərqi olmaz ki? İndi bu “qara pişik”salamsız-kəlamsız hırıldayaraq mənə nə desə yaxşıdır. Ə,Hüsü bəy! Eşitdiyimə görə uşaqların voynaya gediblər?Yaralananı, öləni yoxdur ki? Dözmədim.Dedim ay imansız, heç olmasa sənə qoyulan adı yarıtmaz etmə.Səhər-səhər ağzını xeyirə açmaq əvəzinə, bayquşlayırsan!Sənin imanın yoxdur,heç olmasa əhli insanların imanına hörmətlə yanaş.Haqq sözümün sərtliyindən ağzına su alan imansız, daha mənim deyəcəklərimə əhəmiyyət verməyib sivişib otağına getdi.İstəyirdim ki, iş paltarımı əynimə taxım bir də gördüm “qluşite-

li"yırtılmış xorultulu maşın həyətə daxil oldu.Maşından bildim ki, gələn imansızın fil oğlu Musadır.Əslində mən ona dilimlə Musa desəm də, ürəyimin dərdini çəkən beynim ona Hozu adını qoymuşdu.Hozu məni görəndə əlindəki təsbehini doqquz dəfə çək-çevir edənlər kimi yaxınlaşıb,qara günəş gözlüyünü boş danqırına qoyaraq soruşdu:-çoxuşaqlı qəhrəman kişi, atam Əhlimanı görməmisən ki?Bu imansız oğlu əlində kitab boyda telefon gəzdirsə də,dədəsinin oğlu olaraq mənə ilişmək üçün bəhanə ilə atasını soruşurdu. Bilirdim ki, bu gədə dədəsi kimi heç nahaqdan məni iynələyəcək.Odur ki, fil gədəni qabaqlayıb dedim: -ay bala, heç o boy-buxunundan utanmırsan?!Sənin tayların düşmənə qarşı xorultulu tankla hucum edir, sən də bu traktor səsi verən maşınınla şəhərin ab-havasını həm zəhərləyir, həm də intizamı pozursan.Hozu mənə çəpəki baxaraq dedi:-Hüsü kişi, get voyna eliyən uşaqlarının dərdini çək!Mən sən bildiyin qədər də hərif deyiləm.Sənin uşaqların kimi voynaya gedib kəl bədənimi güllə qabağına verə bilmərəm!Durub-oturub torpaq,vətən sevgisindən danışırsan.Sən elə bilirsən bizdə sevgi yoxdur?! Mən sadəcə Koroğlu dastanında oxuduğum kimi namərd dünyasında, namərd gülləsinə fil bədənimi qurban vermək istəmirəm. Bu dünyaya bir dəfə gəlmişəm onu da keflə yaşamalıyam.Hozu Musanın belə dil-dil ötməsindən məlum olurdu ki, gədə artistlik edib hiyləgər donuna da girə bilir.Dedim,a bala sən bilirsən ki, Koroğlu bu xalqın milli qəhrəmanıdır?Meydanda at oynadıb xalqa zülm edənləri qılıncla, baş bir yana,leş bir

yana edib.Ə kişi başa düşdüm e,-deyə hozu Musa dilləndi. Qılınc hara, güllə hara.Mən bir o qədər savadsız deyiləm ki, sənin kimi yorğanını ayağına görə uzatmayıb var dövləti çox uşaq əkməkdə görənin birindən savadsız olum.İndi sən mənə Tarixi-Nadir dərsini demiyəcəksən ki?Ağzına gələni hüdüləyirsən.İndi mən danışım,səndə qulaq as! Koroğlu dastanında belə bir yer var e.Koroğlu dəlilərini buraxıb yaşının "əlli-bəlli"deyilən vaxtlarında yol ilə gedirmiş.Heyvanlarının yanında var-gəl edən kişinin çiynindən asılmış və indiyə qədər görmədiyi həngaməyə diqqətlə baxıb, ondan soruşur:-ay kişi,de görüm çiynindəki bu həngamə nə mənədir?Kişi çiynindən asılmış həngamənin nə olduğunu bilməyən,ancaq əzəmətindən qürur yağana deyir ki, bu həngamənin adı tüfəngdir.Koroğlu həngaməyə xeyli baxıb soruşur ki, bəs bu həngamə nə üçündür?Kişi də cavab verir ki, bu tüfənglə canavarı, ayını və heyvan sürülərinə hucum edəcək digər yırtıcıları öldürmək olur.Koroğlu kişinin cavabına gülür və sonra deyir:-yaxşı o tüfənglə məni vur görüm, öləräm!? Kişi Koroğlu ilə razılaşmayıb tüfəngi ilə öküzünü vurur.Öküz böyürərək yerə yıxılıb ölür.Koroğlu öküzün həqiqətən öldüyünü görüb deyir:-deyəsən namərd dünyası təşrif buyurub. Öküzün dəyərini qızılla ödəyən Koroğlu başını təəssüflə bulayaraq yoluna davam edir.İndi başa düşdün, əmişka niyə müharibə mənlik deyil?!Mənə"namərd dünya"nağılını danışan bu hozu,nağılına sonluq edib,"boşbaş ağlına" heyran olmuşdu ki, imansız Əhliman oğlunu çağıraraq dedi:-ay bala,nə baş qoşmu-

san o vətənbaza.Hozu Musa atasının təhriki ilə məndən uzaqlaşanda, arxadan onun enli kürəyinə baxaraq təəssüf etdim ki, bu yekəlikdə bədənin sinəsində hiyləgər tülkü ürəyi döyünür. Yaxşı ki, hozu Musa kimi tülkü ürəkli qarnıtoxlar,cəmiyyətdə azlıq təşkil edirlər.Vətən, torpaq sevgisi ilə düşmənlə döyüş meydanlarına atılan qeyrətli cavanlarımızın hesabına hozu kimilər fironluq edib, üstəlik də qeyrətli insanların keflərinə soğan doğrayırdılar. Nə isə, soğan doğranmış kefimlə iş günümü başa vurub müharibənin yeni qələbə sevincini eşitmək üçün,tələsik evimə yollandım.Həməşə olduğu kimi qapını açıb mənim pişvazıma çıxan qızım Rəbiyyəni görmədiyimdən təlaşlandım.Qapı açarla bağlı idi.Qapını açıb evə daxil oldum. Masanın üstündəki yazılmış vərəqəni görüb həyəcanlandım.Tez vərəqi götürüb bir nəfəsə oxudum.Qızım yazırdı:

- Əziz atam!Yəqin ki, bu məktubumla səni bərk narahat edəcəm.Yəqin ki, deyəcəksən mənim ümidgahım olan qızım,mənə çay-çörək hazırlamaqdan bezibdi.Yox ata! Mən də, qardaşlarım da, həyatımız boyu sənə borcluyuq.Ancaq, hayıf ki, övladlar heç vaxt valideyin borclarını yerinə yetirə bilmirlər.Mən tibb sahəsinin adamı olduğuma görə evdə oturub düşmənə qarşı vuruşan bütün qardaşlarımızın bizlərə olan ehtiyacını ödəmək,yeri gəlsə düşmənə qarşı vuruşmaq üçün yerimin müharibə meydanında olduğunu görürəm.Tək mən deyiləm. Xeyli tibb işçiləri könüllü olaraq döyüş meydanına gedirlər və mən onlardan geri qala bilmərəm.Əziz atam!Yadımdadır biz

uşaq olarkən anam təzəcə dünyadan köç etmişdi.Kiçik qardaşlarıma yemək hazırlayardım.Nənəm Süsən kənardan bizə baxıb göz yaşı tökərək bayatı deyirdi:

***Əzizinəm can bacı,***
***Qardaşa güman bacı.***
***Qardaş anasız qalsa,***
***Şam kimi yanan bacı.***

İndi o vaxtdan illər keçib.Anasız böyümüş qardaşlarımın hamısı cəbhədə düşmənə qarşı döyüşdüyü halda, mən nə etməliyəm?- əziz atam!

***Gedirəm düşməndən qisas almağa,***
***Əsgər qardaşlara arxa olmağa.***
***Aslanın erkəyi-dişisi olmaz,***
***Aslansa, döyüşdən kənarda qalmaz!***

Hüseyin kişi gözlərinin yaşını saxlaya bilmədi.Tez özünü ələ alıb qızının,-aslanın erkəyi-dişisi olmaz!-sözlərini çək-çevir etdi və qürurlandı da. Televizoru açıb yeni xəbərləri dinləmək istədi.Sanki, uşaqlarının qəhrəmanlığı haqqında danışacaqdılar.Ali Baş Komandanın Suqovuşan və Talış kəndlərinin,Araz boyu dövlət sərhədi istiqamətində Cəbrayıl rayonunun Aşağı Maralyan,Çaxırlı, Mehdili,Şəybəy,Quycaq kəndlərinin,Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndini,o cümlədən hərbi əhəmiyyətli yüksəkliklərin ələ keçirilməsi xəbərini elan etməsi

onun sevincini birə-beş artırdı.Hələ müharibənin ilk günündə,ilk qələbə müjdəsini eşidəndə qızı Rəbiyyə ilə xurmalı,kəkotulu çay içmələrini xatırladı. Biixtiyar olaraq az qalmışdı ki, desin:-qızım bir çay tök isti-isti qələbəmizi qeyd edək.Heyhat,onun aslan qızı döyüş meydanında olmağı üstün tutmuşdu.Tənhalığı qəbul etməyən Hüseyin kişi bütün uşaqlarının şəkillərini qarşısına qoyaraq,atasından yarımçıq qalan tut arağını ilk dəfə olaraq əlli qramlıq balaca qədəhlərə töküb,hər oğlununun müharibədəki qələbəyə verdiyi töhvəyə görə qələbə münasibəti ilə təbrik edib onların şərəfinə boğazını yaşlatmış oldu.Növbə qızına çatanda mənim aslan qızım deyib, sonuncyu qədəhi də başına çəkdi.Televizorda qələbə sevincini qeyd edən müğənnilər vətənpərvər mahnılar oxumaqla sevinc hissi ilə beyni dumanlanmış Hüseyin kişini dərin bir yuxuya qərq etdilər.Hüseyin kişi röyalar aləmində idi.Kəndləri İşıqlının düşməndən azad edilməsi uğrunda gedən döyüşlərdə oğlanlarının qəhrəmanlıq göstərmələri,qızı Rəbiyyənin tibbi çanta ilə yaralanları xilas etməsi,atası Fərmanın,anası Süsənin,Səmayənin çay dəstgahı quraraq onları səbirsizliklə gözləmələri göz oxşayırdı.Bütün kənd əhli Fərman kişini nəvələrinin kəndlərini azad etməkdə göstərdiyi şücaətə görə alqışlayırdı.İşıqlı kəndi vətənin al bayrağı ilə əhatə olunmuşdu.Hüseyin kişi oğlanlarına, aslan qızına qürurla baxaraq fəxarətlənirdi.Şirin röyaya uymuş Hüseyin kişini saatın zəngi oyatmış oldu.Tər içində olan Hüseyin kişi tez ayağa qalxıb gördüyü yuxunu xatırlayaraq gülümsündü.

Masanın üstündəki qədəhləri,uşaqlarının boy sırasına düzülmüş şəkillərini görüb axşam qələbə sevincindən doğan anları yadına saldı. Başı bərk ağrıyırdı.Daş kimi bərkimiş olan başını ilıq su ilə yuyub rahatlandı.Deyəsən bir az özünə gəlmişdi.Zəhləsini tökdüyü Əhlimanın tez-tez işlətdiyi ifadə yadına düşdü.Elə ki, gördün içgidən başın paxmel kimidi, bir əlli qram da üstündən vur ki, daşlaşmış başının keyi açılsın.Qədəhə tut arağını töküb boğazını imansız deməli yaşlamaq istəyirdi ki, işə getmək vaxtını görüb imansızın keyləşmiş baş dərmanından vaz keçdi.Şüyüdü götürüb çeynədi, dişlərini fırçalayıb işinə getdi.İşə təzəcə çatmışdı ki, "qara pişik" imansız Əhliman qarşısına çıxmış oldu.Hüsü kişi, gördün də torpağımızı bizimkilər necə azad edirlər.Ancaq,ölənlər-yaralananlarda var ha!Daxilən partladım.Öz-özümə "bizimkilər"ifadəsini beynimdə istehzaya çevirib dedim:-hə,"bizimkilər"in içində şəhəri xor-xor maşını ilə vəlvələyə salan hozu Musa da var idi,-deyə əsəblərimi boşaltdım.İmansız çöndü ki,ay kişi uşaqların müharibəyə gedəndəndi sənin lap axırın çıxıb e!Sənin gözün niyə götürmür mənim oğlumu?!Gərək hamı müharibəyə getsin!Bir də ki,voynada ölən-yaralanlar olur da, burda nə var ki? Bu səfər əsəblərimi cilovlaya bilmədim.İmansızlıq eləmə kişi bu müharibədir e! Quldur düşmənlə müharibə aparan ölkənin yaralanı da olar, şəhidi də.Biz bunu vuruş meydanında görmüşük. Əsas odur ki, biz düşmən tapdağında olan torpaqlarımızı azad edirik.Vallah,o qədər bayquşlayırsan ki,bilmirəm sən dostsan,yoxsa düşmən! Nə

səsini qaldırırsan üstümə, -deyə Əhliman tonunu qaldırmış oldu!Pislik edirəm sənə!Deyirəm görüm müharibəyə gedən altı uşağın salamatdır,ya yox!Əsəblərimi cilovlaya bilməyib ağzımı açdmı, nə açdım.Mənim uşaqlarım vətən üçün doğulub.Üstəlik biləsən ki, qızım da tibb işçisi olaraq müharibəyə könüllü gedib.Mən övladlarımla fəxr edirəm.Sən o, fil öğlunun dərdini çək!Əgər bir də ağzını açıb qara doğrasan qızımın kələğayısını oğlunun başına örtəcəm ki, sən onun dərdini çəkməyib onunla qürur duyasan.Ağız güllədən çıxan alovlu qurğuşun Əhlimanın ürəyini elə parçaladı ki,otağına gedib bir daha qarşıma çıxmadı.

Müharibənin ilk günlərindən komandir Yadullanın rəhbərlik etdiyi alay Araz boyu istiqamətdə torpaqlarımızın düşməndən təmizlənməsi üçün Cəbrayıl rayonu istiqamətində qızğın döyüşlər aparırdı.Erməni döyüşçüləri Azərbaycan ordusunun hucumuna tab gətirməyib silahları ataraq qaçır, yaxud da illərlə tikdikləri siçan yuvası olan istehkamlarında gizlənsələr də, müqavimət göstərməyib təslim olaraq yaşamları üçün imdad diləyirdilər.Düşmənin silah-sursatı elə ilk andan məhv edilir yada qənimət olaraq götürülürdü.Bir neçə səddən ibarət olub bufer sayılan düşmən istehkamları tanklar,toplar,artilleriya qurğuları ilə darmadağın edilirdi.Azərbaycan əsgərləri düşməni iti qovan kimi qovalayırdılar.Müharibənin ilk günündə müzəffər orduya tab gətirməyən düşmən Böyük Mərcanlı kəndini tərk edərək geri çəkilməyə başlamışdı."Məğlubedilməz" ordunun geri çəkil-

məsi,qorxaqlığı əsgərlərimizdə ruh yüksəkliyi yaradırdı.Azərbaycan ordusunun digər hərbi birləşmələri isə Nüzgar kəndini düşməndən azad etmişdilər.Vətən eşqi ilə yaşayan əsgərlərimiz dayanmadan irəliləyərək oktyabr ayının 3-də Cəbrayıl rayonunun Aşağı Maralyan kəndini erməni quldurlarından azad etdilər. Kəndin alınmasında komandir Yadullanın əsgərləri də böyük rəşadət göstərmişdilər.Əsgərlər istedadlı komandirləri ilə fəxr edirdilər.Həmin gün ordumuzun qalibiyyətli hucumları onunla nəticələndi ki,şanlı ordumuzun digər hərbi birləşmələri sərhədboyu Çaxırlı,Mehdili və Quycaq,Şeybəy kəndlərini də düşməndən təmizləyərək qələbəmizin genişmiqyaslı olmasını təmin etdilər. Komandir Yadulla dayanmadan irəli atılaraq əsgərlərini döyüşə haraylayırdı. Havadan edilən zərbələr erməni ordusunu iflic halına salmışdı.Tanklarını,toplarını və digər ağır silahlarını,o cümlədən silah daşıyan yük maşınlarını qoyub qaçan erməni fərarilərinin İrəvandakı finişinə artıq start verilmişdi."Məğlubedilməz" erməni ordusu əsgərlərinin yalvarışla təslim olmaları, imdad istəmələri hər döyüş anında özünü göstərirdi.Komandir Yadullanın əsgərləri düşmənin hər hansı əks hucumuna qarşı şir kimi vuruşur onlara məğlubiyyətin acısını daddırmaqla bərabər,məğlubiyyət mahnısını da oxutdururdular.Əsgərləri ilə fəxr edən komandir Yadulla onların ruh yüksəkliyini təmin etmək üçün məğlubedilməz ordusu olan Hitler Almaniyasının Sovet hökumətinin paytaxtı olan Moskva yaxınlığındakı məğlubiyyətindən danışırdı.Bütün Avropanı iş-

ğal edərək öz ordusunun xammal bazasına çevirən Hitler Almaniyasının Moskva yaxınlığındakı məğlubiyyəti bu məğlubedilməz ordunun çürüklüyünü göstərdiyi kimi, Böyük Ermənistan xülyası ilə yaşayan və havadar dövlətlərin köməyi ilə silahlanıb "məğlubedilməz ordu"" mifi yaradan Ermənistan ordusu da,öz torpaqları uğrunda döyüşən əsgərlərimizin şücaəti nəticəsində məhv olmaqdadır.Biz axıra kimi düşməni qovacaq və torpaqlarımızı çürük Ermənistan ordusundan azad edəcəyik.Əsgərlər komandirləri Yadullanın həqiqətdən xəbər verən nağıl kimi söhbətini dinləyib döyüş ab-havası ilə yaşayırdılar.Əsgərlərin ruh yüksəkliyini qaldıran əsgər Xudayar isə komandirinin ruh qaldıran söhbətindən sonra, vətənpərvər mahnılar ifa edərək onları feyziyyab edib döyüş əzmini yüksəldirdi.Azərbaycan əsgərləri,o cümlədən komandir Yadullanın alayı Arazboyu hucumlarını davam etdirərək,artıq müzəffər ordu qarşısında acizləşən erməni quldurlarını məhv edib onları kəndbəkənd qovalayaraq oktyabrın 4-də Yuxarı Maralyan,Karxulu,Mahmudlu,Şükürbəyli kəndlərini də azad etdilər.Elə həmin gün Azərbaycan ordusunun digər hərbi birləşmələri Cəbrayıl rayon mərkəzi başda olmaqla Çərəkən,Horovlu,Daşkəsən,Decal kəndlərini də düşməndən təmizləməklə Cəbrayıl qələbəsini ümumdövlət bayramına çevirdilər.Komandir Yadullanın əsgərləri qarşıdakı  istiqamətdə olan digər kəndləri düşməndən azad etmək üçün yeni döyüşə hazırlaşırdılar.Böyük ruh yüksəkliyi ilə döyüşə atılan Azərbaycan ordusu, hucumlara tab gətirməyib dabanlarına

tüpürərək qaçmağa qərar vermiş erməni quldurlarının əsgərlərini əsir götürür,texnikalarını qənimət olaraq ələ keçirirdilər. Azərbaycan ordu birləşmələri oktyabr ayının 5-də Cəbrayıl rayonunun Sarıcalı,Şıxəli,Ağəli və Məzrə kəndlərini düşmən tapdağından təmizləmiş oldular.Şücaətləri ilə fərqlənən döyüşçülər arasında komandir Yadullanın rəhbərliyi etdiyi alay da yer tutmuşdu.

Hüseyin kişinin digər komandir oğlu Allahverdi Füzuli istiqamətində Qaraxanbəyli kəndinin azad edilməsində gərgin döyüşlərdə iştirak edirdi.Hər tərəfdən əraziləri bir neçə sədd olaraq istehkamlayıb özlərinə sığınacaq yaratmış, eyni zamanda əraziləri minalamış erməni işğalçıları ciddi müqavimət göstərərək əsgərlərimizin müdafiə səddlərini yarmasına əngəllik törədirdilər.Ancaq, artilleriyanın, zenit raket atəşlərinin təsiri özünü göstərirdi.Əlverişli mövqeləri ələ keçirən Azərbaycan döyüşçüləri yavaş-yavaş irəliləyərək təpəlikləri ələ keçirib mövqelərini mıhkəmləndirdilər.Çox da yüksək olmayan təpəliklərdə ermənilərin qurulmuş istehkamları zenit raket komplekslərinin,o cümlədən artilleriyanın atəş yağışları nəticəsində dağıdılır,geri çəkilən erməni quldurlarını əsgərlərimiz məhv edirdilər.Bir neçə gün davam edən ağır döyüşlər nəticəsində nəhayət ki müzəffər ordumuz döyüşün gedişatını öz xeyrinə həll edərək elə həmin gün Füzuli rayonunun Qərvənd kəndini düşmən tapdağından azad etdilər.Bu döyüşdə minaya düşüb yaralananlar da oldular ki, onlardan biri də ayağından qəlpə yarası almış komandir Allahverdi idi.Aldığı qəlpə yarasına bax-

mayaraq alayına rəhbərlik etməkdə davam etmişdi.Hərbi birləşmədə vuruşan sanitar, komandirə ilk tibbi yardım göstərsə də,xəbərdarlıq edərək qəlpənin ayağını incidəcəyini bildirmişdı.Əsgərlərini başsız qoymaq istəməyən Allahverdi qəlpə yarasının ağırlaşacağı  təqdirdə müraciət edəcəyini qərarlamışdı.Komandir Allahverdinin əsgərləri Füzuli istiqamətindəki ilk olaraq kəndləri azad etdiklərindən qələbə sevincini qeyd etdilər.Belə bir müvəffəqiyyətli döyüş günü bir də onun üçün şərəfli idi ki,şanlı Azərbaycan ordusunun digər birləşmələri Füzulinin daha iki kəndini Yuxarı Əbdürrəhmanlı və kənd Horadizi düşməndən azad etmişdilər.Kəndləri düşməndən azad edən əsgərlər bir dənə də olsun damlı ev tapa bilmədilər.Bütün evlər erməni vandalları tərəfindən dağıdılmış, yerlə yeksan edilmişdi.Yol strukturu tamamilə sıradan çıxarılmışdı. Otuz illik susuzluqdan nəinki ağaclar,hətta otlaqlar belə qurumuşdular.Günəşdən yanmış otlaqlar susuzluqdan göyərmək iqtidarında belə deyildilər.Ekoloji terrora keçən erməni vandalları ağacları kəsərək məhv etmişdilər.Komandir Allahvedinin əsgərləri digər hərbi birləşmələrlə bərabər səngərlər düzəldərək gələcək hucum üçün mövqelərini mıhkəmləndirirdilər.Oktyabrın ikisində,axşama yaxın qəlpə yarası ona əziyyət verdiyindən hərbi birləşmənin rəhbərliyi tərəfindən Füzuli ətrafındakı səhra tibb məntəqəsinə göndərildi.Oktyabrın 3-də isə hərbi tibb səhra məntəqəsinə çatarkən,ordu birləşmələrinin Aşağı Əbdürrəhmanlı kəndinin düşməndən azad etməsini eşidib sevindi.Bu qalibiyyəti alqışlayan Allah-

verdi bir müddət ona ağrı verən ayağındakı qəlpə yarasını unutmuş oldu.

İlk döyüş günlərindən Tərtərin Talış və Suqovuşan istiqamətində vuruşan komandir Dadaşın əsgərləri əsil qəhrəmanlıq nümunəsi göstərirdilər.Düşmən istehkamlarını,düşmənin yerləşdirdiyi ağır texnikaları darmadağın edən topçular düşməni xeyli canlı itgiyə də məruz qoymuşdular.Düşmən mövqelərinə sarsıdıcı zərbələr endirən topçu qəhrəmanlarımız tank birləşmələrinin quru qoşunla kəndlərə girməsinə geniş şərait yaradırdı.Tanklarını,yük maşınlarını,toplarını qorxudan qoyub qaçan düşmən rahatçılıqla yaşadıqları və vətən bilmədikləri Suqovuşanı təslim edib qaçmışdılar.Xudmani evlərdə yaşayan erməni komandirləri vaxt tapıb özlərinə məxsus əşyaları da özləri ilə götürə bilməmişdilər.Suqovuşanın alınmasında topçularımız düşmənin yerləşdiyi mövqeləri elə sərrast atəşə tutmuşdular ki, qəsəbənin bir evi belə atəşə məruz qalmamışdı.Əsgərlərdən biri demişkən,düşmənlər qorxudan qaçıb,ancaq kəndin heç burnu da qanamayıb.Talış kəndinin azad olunmasında komandir Dadaşın topçuları kəndə bir neçə atəş açmaqla düşmənin kəndi tərk etmələrinə səbəb olmuşdular.Əslində düşmən qüvvələri döyüşün ilk anlarından əks həmlə etməyə çalışsalar da,Azərbaycan əsgərlərinin döyüş əzmini görüb əsir düşməyə,yaxud da fərarilik etməyə başlamışdılar.Talış və Suqovuşan kəndlərini düşməndən təmizləyən Azərbaycan ordusu mövqelərini möhkəmlətməklə bərabər,

düşmən tapdağında olan Çaylı kəndini də azad etməyə hazırlaşırdılar.

İdmançı qardaşlar İldırım və Gülalı müdafiə nazirliyinin xüsusi təyinatçıları olaraq hazırlıq keçməklə bərabər, Hadrut istiqamətində düşmən arxasına kəşfiyyata getməklə bacarıqları və qoyulan vəzifələri dəqiq, vaxtında yerinə yetirmələri ilə XTQ komandirinin hörmətini qazanmışdılar.Elə ilk günlərdən "Rembo qardaşları " kimi tanınan İldırım və Gülalı bir dəqiqə də sakit olmayaraq döyüşə atılmaq arzusunda idilər.Düşmən arxasında kəşfiyyata gedənlər arasında öz ciddiliyi və əzmkarlığı ilə diqqəti cəlb edən əsgər Həsrətlə, Gülalı və İldırımın dostluğu başlanmışdı.Bir dəfə komandir əsgərlərə farağat əmri verib ad,familiya və soy adı ilə çağırarkən, Həsrətin İnternat oğlu olması və Baxçayev soyadı maraq doğurmuşdu.Həsrət ona zillənmiş əsgər gözlərini intizarda qoymayıb keçmiş həyat tarixçəsini əsgərlərə danışmışdı.

Mən,yaslı-bağça mühitində böyümüşəm.Həmin yaslı-bağçanın müdirəsi Sənəm müəllimə mənə analıq etmişdir.1995-ci ildə məni bələkdə kimsə gətirib yaslı-bağçanın həyətinə qoymuşlar.Sahibim tapılmadığından müdirə Sənəm ana mənim qayğıma qalmışdır.Yaslıda mən adsız olduğumdan və valideyin qayğısına həsrət qaldığımdan elə adımı Həsrət olaraq adlandırmışlar.Yaslı-bağçanı başa vurandan sonra müdirənin köməyi ilə mənim internatda təhsilimə və yaşamıma şərait yaradılıb.Müdirə,ana dediyim Sənəm müəllimə tez-tez mənim görüşümə gəldiyindən hamı mənə qayğı ilə yanaşıbdır.On altı

yaşım tamam olanda və pasport almaq lazım gəldiyindən Sənəm anamla məsləhətləşən internat müdirəsi Səyyarə müəllimə belə qərara gəliblər ki,valideyinim olmadığına və internatda böyüdüyümə görə bağçanı soyadı kimi qəbul etsinlər.İnternat isə məni böyütdüyünə görə ata əvəzi İnternat oğlu kimi qəbul olunub.Mənə bu internatda qaynaqçı peşəsi öyrədiblər,üstəlik yaşam yeri olmadığına görə otaqla təmin edilmişəm.Sənətimə uyğun olaraq internatda qaynaqçı işləməyimə də şərait yaradıblar.Bağça və internat illərimdə mən yetimçiliyimi hiss etməmişəm.Ola bilər ki, bir ailədə böyüyən uşaq maddi sıxıntılar keçirsin,ancaq bu gözəl vətənimizin bağça-internatında qayğı ilə böyüyüb sıxıntı keçirməmişəm.Mən körpə olarkən baxımsızlıqdan ölə də bilərdim,ancaq dövlətimiz məni böyüdüb, ərsəyə çatdırıb. Əlbəətə ki, yaxşı insanların simasında.Valideyini olan əsgərlərdən fərqli olaraq,mənim vətənimə ikiqat can borcum var.Əgər mənə şəhidlik qismət olsa vətən qarşısında şərəf daşımış olaram.Mən idmanla məşğul olmamışam,ancaq canım möhkəmdir,polad kimidir.Atalar demişkən, yetimin canı möhkəm olar, -deyə məni sağlam qəbul edərək xüsusi təyinatçı olmaq arzumu da nəzərə alıblar.2013-2015-ci illər arasında Tovuzun Alıbəyli kəndində düşmənlə üzbəüz səngərdə dayanmışam. O vaxt çox çalışdım ki, hərbdə Xüsusi Təyinatçı olaraq qalıb xidmət edim.Bu arzum nədənsə alınmadı.Müharibə başlamamışdan qabaq,hələ Tovuz münaqişəsi zamanı könüllü olaraq orduya yazılmışdım nədənsə,Tovuz döyüşlərinə qatılmaq istəməyim də alınma-

dı.Müharibə başlayandan sizinlə bərabərəm.Talehimdən çox razıyam ki, Xüsusi Təyinatlı Qoşunumuzda sizinlə çiyin-çiyinə düşmənə qarşı vuruşmalı olacam.Həsrətin müəmmalı yaşam həyatı əsgərləri hüzünlü etsə də, anasız olaraq böyümüş qardaşlar İldırım və Gülalı Həsrəti öz qardaşları kimi qəbul etmişdilər.Əsgərlər arasında yaranmış hüznlü anları şənləndirmək istəyən və zarafatından qalmayan əsgərlərdən biri:-yaxşı ay Həsrət,bu sağ olmuş internat sənə sənət öyrədib,yaşamağa yer verib,nə əcəb səni bu yaşa qədər evləndirməyib?Əsgər Nurlanın bu sualı Həsrətin abır-həya sifətinə bir qızartı gətirmiş oldu.Ailə məsələsinin müzakirəsini sevməyən Həsrətin zarafata cavab verməməsi,əsgərlər arasında bir sükutluq yaratmış oldu.Sabahı kəşfiyyata hazırlaşan İldırım və Gülalı “Rembo qardaşları”komandirdən xahiş edib Həsrətin də onlarla birlikdə kəşfiyyata getməsinə razılıq aldılar.Sabahkı döyüşün dincliyini alan əsgərlər şirin yuxuya getmiş olsalar da, arxası üstə uzanıb yuxuya getmiş İldırım və Gülalı qardaşlarını gözaltı seyr edən Həsrətin gözünə yuxu getmirdi.Əsgər Nurlanın evlənmə zarafatını çək-çevir edən Həsrətin Mətanətli günlərini xatırlaması və xəyala qapılması dodaqlarında təbəssüm yaradırdı.Xəyalında sevgili həyat yoldaşının internata gəlişinin ilk anlarını canlandıran Həsrət 11-12 yaşlarında valideyinləri qəzaya uğradığından kimsəsiz qalmış yumru sifət, qaraqaş-qaragöz və olduqca utancaq Mətanəti internatda görəndə duyğulanmış və özü kimi yetim olan bu qızcığaza bağlanmışdı.O vaxt Həsrət internatın son sini-

fində oxumaqla bərabər qaynaqçı peşəsinə yiyələnirdi.Qızcığaz hər dəfə Həsrəti görəndə utancaq nəzərlərini ondan çəkməz və Həsrətlə ünsiyyətə ehtiyac duyardı.Həsrət qızcığaza elə şərait yaradardı ki, tezliklə ünsiyyətləri baş tutmuş olardı.Həyatı yaşından tez anlamağa çalışan Mətanət, Həsrəti daxili mənəvi ehtiyacının talismanı kimi qəbul edib,onun təmiz qəlbində özünə yuva qurmağa istəkli olurdu. Beləcə aylar bir-birini əvəzləyərək illərə qədəm qoyduğu kimi Mətanət də böyüyür, Həsrət isə cavanlıq yaşına qədəm qoyurdu.Həsrət qaynaqçı olaraq İnternatda işlə təmin olunanda da, ona yaşayış üçün otaq veriləndə də, Mətanət hiss edirdi ki, Həsrətin xoşbəxtliyini öz xöşbəxtliyi kimi qəbul edir.Sonralar Həsrət hərbi xidmətə gedəndə İnternatın bir küncünə qısılıb göz yaşı tökən Mətanəti doğması kimi qəbul edən Həsrət, ilyarımlıq əsgərliyinin hər gününü xəyalında Mətanəti sevmiş,əzizləmiş,lakin cürət edib ona bir parça məktub belə yaza bilməmişdi.Abır-həyanı hər şeydən üstün tutan Həsrət ilyarım Mətanət sevgisini qəlbində qoruyub saxlamışdı.Əsgərliyi başa vurub doğma İnternatına qədəm qoyan Həsrəti bütün internat əhli doğması kimi qəbul etmişdi.Hələ Mətanətin sevinci, özü də hiss etmədən əsgər paltarlı Həsrətin ağuşuna atılması internatın kövrək qəlblilərini riqqətə gətirmişdi.Həsrətin il yarımlıq əsgərliyi zamanı artıq Mətanət böyüyüb yekı bir qız olmuş,üstəlik dərzilik sənətinə də yiyələnmişdi. Həsrət İlyarım əsgərlikdə olarkən Mətanət Həsrətsiz olan otağa istilik gətirmişdi.Həsrət gözlərinə belə inana bil-

mirdi ki, qəlbinin toxunulmaz hissəsində qoruyub saxladığı Mətanət məhəbbəti,onun yaşadığı otağın məhəbbət simvoluna çevrilibdi.Otağın hansı səmtinə baxsan belə, Mətanət sevgisinin nişanəsinə rast gəlmək mümkün idi.Artıq, İnternatda hamı Həsrət-Mətanət sevgisinin varlığına inanırdı.İnternatın müdirəsi Səyyarə xanım bu iki gəncin pak məhəbbətinə hörmətlə yanaşırdı.Elə Səyyarə xanımın təşəbbüsü ilə Həsrətin otağı genişləndirilmiş və bu iki gəncin sevgisinin çırağı yandırılmışdı.2020-ci ilin iyunun 15-də İnternatda müdirə Səyyarə müəllimənin,yaslı-bağça müdirəsi Həsrətin körpəlik analığı Sənəm müəllimənin və bütün İnternat heyətinin iştirakı ilə xudmani toy məclisində gənclərin nikahı bağlanmış və onlar yeni ailə nümunəsi kimi genişləndirilmiş İnternat otağına daxil olmuşdular.Həsrət və Mətanət yaxşı insanların sayəsində gözəl ailə sahibi olmuşdular.Sentyabrın əvvəlində isə bu cavan ailə ikiqat sevinc hisslərini keçirmişdilər.Bu cavan ailənin oğlan uşağı Mətanət bətnində intişar tapmaqda idi.Bu sevinc hissi ilə yaşayan gənc ailənin sevincinə erməni quldurlarının vətənimizə hucumu sərinlik gətirmiş oldu.Həsrət könüllü olaraq müharibəyə yazılıb və ilk gedənlərdən biri oldu.Sevgili Mətanətindən ayrılan Həsrət qürur hissi ilə düşməndən intiqam almağa getdiyini bildirib, son anda dedi:-Əzizim, birinci biləsən ki, mən vətənimə xəyanət gözü ilə baxan düşməni öldürməyə gedirəm.Həməşə məni belə fikirləş.İşdir qismətim şəhidlik olsa uşağa mənim adımı verib,məni oğlumun timsalında yaşadarsan.Mətanət gözü yaşlı,ancaq sevgisi-

nə olan inamla Həsrəti müharibəyə yola salmışdı.Müharibənin ilk,amansız dəhşətlərini görən Həsrət xəyaldan ayrılıb sabahkı döyüşlərin yuxu acısını  çıxaran əsgər dostlarını nəzərdən keçirərək özü də bilmədən yuxuya getmişdi.

Müharibənin ilk günündən Murovdağ yüksəkliyinin azad edilməsinə cəlb edilmiş Azərbaycan əsgərləri arasında Arif də snayperçi olaraq döyüşçü dostu Fuadla bərabər şöhrət qazandılar.Hələ birinci Qarabağ müharibəsində Murovdağ uğrunda gedən döyüşlərdə hər iki döyüşən tərəflər xeyli itgilər vermişdilər. O vaxtkı Murovdağ döyüşündə xeyli itgilər verən ordumuz yuxarıların səriştəsizliyi ucubatından məğlub olmuş Murovdağ isə erməni cəlladlarının nəzarətinə keçmişdi.İndiki halda strateji əhəmiyyət kəsb edən Murovdağın düşmən tapdağından azad edilməsi ilk olaraq nəzərə alınmışdı.Murovdağ füsunkar təbiət mənzərəsi ilə yüksək dağ silsiləsi olub,şimal-şərqində əsrarəngiz gölləri olmaqla bərabər Ermənistan və Azərbaycan arasında cəbhə rolunu oynayırdı.Murovdağda"Canavar sol" yüksəkliyi cəbhənin strateji əhəmiyyət kəsb edən yüksəkliyi sayılırdı. Elə müharibənin ilk anında Murovdağ-Kəlbəcər istiqamətində snayperçilər Arif və Fuad stratejli əhəmiyyətli "Canavar sol" yüksəkliyini ələ keçirmək üçün döyüşə atılmışdılar.Bir saatdan xeyli az bir müddətdə Arif və Fuadın iştirak etdiyi taqım yüksəkliyi azad edib düşməni aciz bir hala salmışdı. "Canavar sağ" yüksəkliyi isə XTQ tərəfindən azad edilmişdi.Beləliklə "Canavar sol" və "Canavar

sağ" yüksəkliyi müharibənin ilk dövründə ələ keçirilmiş yüksəkliklər idi.Erməni quldurları üçün bu yüksəkliklər çox əhəmiyyətli olduğundan əks hucumlar etməyə də çalışırdaılar.Murovdağ-Kəlbəcər istiqamətində olduqca az itgilər verməklə bu yüksəkliklərin ələ keçirilməsi düşmənin bel sütunun qırmış olurdu. Azərbaycan ordusunun müzəffər əsgərləri adı çəkilmiş yüksəklikləri düşməndən azad etməklə qürur hissi keçirirdilər.Arif sərrast snayperçi olduğundan əsgər dostlarına danışırdı ki, onun hazırda ermənilərə qarşı iki idmançı qardaşları döyüşür.Qardaşlarımdan İldırım hər dəfə idman yarışlarından qələbə ilə qayıdarkən həvəslə danışardı ki, onun rəqibi olan bütün idmançılar məğlub olduqlarından,məşqçisi ona ad qoymuşdu,- "udar konturudarsız!"Qardaşımın bu xasiyyəti snayperçi olaraq mənə də keçmişdir.Fuad qardaşım yaxşı bilir. Mən hansı düşməni nişangaha götürsəm o düşmənin məni nişangaha alması sıfıra bərabər olur.Əsgərlər snayperçi Arifin bu bacarığını yüksək qiymətləndirib deyirdilər ki,həqiqətən də Arif nişana götürdüyü düşmən döyüşçüsünü bir atəşlə elə yerə sərir ki, onun bu bacarığına söz ola bilməz.Odur ki, əsgərlər Arifə də "əvəzsiz sərrast nişançı!"ləqəbini vermişdilər.Murovdağın füsunkar təbiətinə heyran qalan Arif əsgər dostu snayperçi Fuadın telefonu ilə atası ilə danışarkən bildirirdi ki,quşların cəh-cəh etdiyi və təmiz havası olan Murovdağın düşmən tapdağında qalması bizdə ancaq,təəssüf hissi doğurub.Bu cür gözəl təbiət qoynunda yaşamaq şəhərdə yaşamaqdan milyon dəfə yaxşıdır.Müharibəni qələbə ilə başa

vurandan sonra burada yaşamağa qərarlı olacam.Təbiət vurğunu olan döyüşçü dostum Fuad da belə fikirdədir.Hüseyin kişi isə oğlunu düşmən gülləsindən,Murovdağın soyuğundan qorunmağının vacibliyini deməklə bərabər,Arifin bacısına olacaq salamını da qızına yetirəcəyini deyib,qızının müharibəyə yollandığını oğlundan gizlətmiş oldu.Son anda Arifdən xahiş etdi ki, daha zəng etməsin. Hiyləgər düşmən tərəfindən hər cür ziyan ola bilər.

Oktyabrın 3-də Füzuli tibb hərbi səhra məntəqəsində tibb bacısı kimi fəaliyyətə başlayan Rəbiyyə elə ilk dəqiqələrindən yaralı əsgərlərə dayanmadan xidmət göstərdiyi kimi,tibb hissəsinin komandirindən döyüş mövqeyinə getməyi xahiş etsə də yenicə hərbi tibb sahəsinə gəldiyindən razılıq əldə edə bilməmişdi.Rəbiyyənin nəfəs dərmədən yaralılara xidmət göstərməsi, hətta ağır yaralılara cılız çiynini dayaq etməklə səhra otağına gətirib ilk tibbi yardım etməsi səhra tibb rəisinin gözündən qaçmırdı.Səhərə yaxın Füzuli ətrafındakı döyüşlərdən də xeyli yaralı gətirilmişdi.Yaralılardan biri də Alahverdi idi.Bir təhər səhra otağındakı palatada yerləşdirilən Allahverdinin yarasına diqqət edən cərrah-həkim qəlpənin irin verdiyini bildirib cərrahiyə yolu ilə qəlpənin çıxardılmasını vacib bildi.Ağrıdan dişini qıcayan Allahverdi gözünü yumaraq qəlpə yarasından nə vaxt canını qurtaracağı anı gözləyirdi.Qəlpə yarasının dezinfeksiya edilərək təmizlənməsi isə tibb bacısı olan Rəbiyyəyə həvalə edilmişdi.Xasiyyəti olaraq başını yuxarı qaldırmadan yaranı dizenfeksiya edən

Rəbiyyə topuqdakı qara ləkəni görüb həyəcanlandı.İlk ekiz qardaşlarından yalnız Allahverdinin topuğunda belə qara ləkə var idi. Nənəsi Süsən deyərdi ki, bu ləkə varlı olmaq əlamətidir.Həyəcanını boğa bilməyən Rəbiyyə başını qaldırıb Allahverdinin əlini yumruq təki düyünləyərək dişləri arasında sıxmasını  və ağrıdan gözlərini bərk-bərk yummasını görüb,-Allahverdi deyə qışqırdı.Tanış səsi, bacısı Rəbiyyənin səsinə  oxşadan və bu səsi yuxu kimi qəbul edən Allahverdi bir anlığa,ola bilməz!-bacımın burada nə işi var?!-desədə, onu qucaqlayanın tanış bacı qoxusu olduğunu yəqin edib gözünü açdı. Bəli,onu qucaqlayan həməşə bacı-ana dediyi Rəbiyyə idi.Cərrah həkimin gəlişi ilə Allahverdi cərrahiyyə əməliyyatına götürüldü.Qardaş-bacı bir-birindən təsəlli baxışları ilə ayrılmalı oldular.Yarım saatlıq cərrahiyə əməliyyatı könüllü olaraq hərbi-cərrah kimi müharibəyə gəlmiş, tibbi səhrada “zərgər-cərrah” adını qazanmış Oqtay həkimin peşəkarlığının sayəsində müvəffəqiyyətlə başa çatmışdı.Artıq, səhra tibb məntəqəsində bütün tibb işçilərinə, o cümlədən yaralı əsgərlərə əyan oldu ki, özünü oda ataraq yaralılara dayanmadan qayğı göstərən tibb bacısı Rəbiyyənin komandir qardaşı Allahverdi cərrahiyyədəki palatada yerləşdirilib.Hamı gözünü hərbçi bacı-qardaşa dikmişdi.Ağrıları keçmiş Allahverdi bacısı Rəbiyyənin göz yaşlarını əli ilə silib yaranın kiçik olduğunu bildirərək, hərbə bacısının necə gəlməsi barədə soruşdu.Rəbiyyənin danışığından məlum oldu ki,vuruşan ordunun igid oğlanlarının tibbi yardıma ehtiyaclarını nəzərə alıb evdə sa-

kitcə otura bilməmiş və bu gün sübh səhərdən hərbə gəlmişdir.Rəbiyyənin danışıqlarına rəğmən komandir Allahverdi kişi qeyrətli bacısını bağrına basmışdı.Rəbiyyə bir də onu demiş oldu ki, hərbə gələndə atasından icazə almadan gəlmişdir.Bilirdim ki,atam hərb işimə razı olmayacaq.Odur ki, atama:-

Aslanın erkəyi-dişisi olmaz,
Aslansa,döyüşdən kənarda qalmaz!

məktubunu yazıb,bir neçə tibb bacıları ilə bərabər hərbə gəldim. Ümidvaram ki,atam onu tək qoyduğuma görə məni bağışlayar.Allahverdi təbəssümlənərək bildirdi ki, ayaq üstə duran kimi bir yerdə görüntülü atamla danışarıq.Rəbiyyə sonbeşik qardaşlarının da,könüllü olaraq müharibəyə getdiklərini Allahverdiyə danışarkən,Allahverdi buna şad olsa da atasının tamamən tənha qalmağına təəssüflənmiş oldu.Yeni yaralılar gəlmişdi deyən Rəbiyyə tibbi xidmət göstərmək üçün palatanı tərk etdi.Artıq gecə yarısı olduğundan Oqtay həkimin məsləhətinə rəğmən Allahverdi sakitliyə qərq olub uzun yorğunluğun nəticəsi olaraq yuxuya gərq oldu.Vaxt tapıb qardaşı Allahverdini yoluxan Rəbiyyə onun sakit yatışını seyr edərək hələ uşaq olarkən mışıl-mışıl yatışını xatırlayıb dolmuş göz yaşlarını silərək palatanı tərk etmiş oldu. Səhəri qardaşı Allahverdinin oyanmasını gözləyirmiş kimi palata yanında var-gəl edən bacısı Rəbiyyəni görən Allahverdi ağrısının olmadığını deyərək bacısını narahat olmamağa çağırdı.Bir azdan bacı-qardaş tələm-tələsik səhər yeməyini nuş etdilər.Xeyli yaralı gəlmişdi deyən və-

zifəsini icra etməyə gedən Rəbiyyəyə çəliyin köməyi ilə Allahverdi də yardım etməyə başlamışdı.Döyüş yoldaşlarından ötrü narahatçılıq keçirən komandir Allahverdi Oqtay həkimdən hərbi sahəsinə getmək haqqında icazə istəsə də,həkim yalnız oktyabrın 8-də onu xidmət etdiyi hərbi sahəyə buraxacağını vəd etdi.Bu müddət ərzində xeyli dərdləşən bacı-qardaş ataları Hüseyin kişi ilə də telefon vasitəsi ilə görüntülü danışıb onun ata qəlbini qürurlandırdılar.Qardaşlarının hansı istiqamətdə vuruşduqlarından xəbər ala bilməyən qardaş-bacı onların sağ-salamat döyüş aparmaları üçün duaçı oldular. Beləliklə, oktyabrın 8-i cərrah Oqtay həkimin icazəsi ilə sağlamlığı müsbət qeyd olunan Allahverdi qulluq etdiyi hərbi sahəyə getmiş oldu.Bacı-qardaş ayrılıq məqamında özlərinə düşmən gülləsindən qorunmağı arzu edib gələcək qələbə görüşü arzusu ilə ayrıldılar.

Oktyabr ayının 5-nə qədər Cəbrayılın Arazboyu sərhəd kəndlərinin xeyli hissəsinin Azərbaycan ordusu tərəfindən azad edilməsindən qorxuya düşən Ermənistan silahlıları İranla olan sərhəd kəndlərinin strateji əhəmiyyətini dərk etdiklərindən xeyli canlı və hərbi texniki qüvvələrini sərhədboyu istiqamətlərə cəlb etmiş oldular.Cəbrayılda əsasən sərhəd boyunda yerləşdirdiyi erməni miqrantlarını qoruyub saxlamaq arzusunda olan erməni quldur rəhbərləri Cəbrayıla yol çəkməklə bu diyarı həmişəlik özlərinə vətən etmək istəyirdilər.Komandir Yadullanın rəhbərlik etdiyi alay Azərbaycan ordu birləşməsinin tərkibində şücaətlər göstərərək qatil düşmənlə qeyri bə-

rabər döyüşə girişirdilər.Hərbi gücünü artırmış olan ermənilər hər vəchlə çalışaraq əks hucumlar edir və geri çəkilmək istəmirdilər.Arazboyu istiqamətdə döyüşlərin intensiv xarakter aldığı bir vaxtda,Cəbrayılın digər bir istiqamətində Xocavənd rayonuna yaxın olan ərazidə Əfəndilər,Qaracallı,Süleymanlı,Qışlaq kəndləri uğrunda əhəmiyyətli döyüşlər aparan Azərbaycan ordusu düşmənin müqavimətini qıraraq oktyabrın 9-da həmin kəndləri düşmənlərdən azad etmiş oldular.Azərbaycan ordusunun bu istiqamətdəki uğurları Xocəvənd ərazisində uğurlu əməliyyat aparılmasına da şərait yaratmış oldu.

Səhra tibb məntəqəsindən ayrıldıqdan sonra hərbi birləşməsinə yaraları sağalmış iki əsgəri ilə bərabər qayıdan komandir Allahverdi əsgərləri tərəfindən coşqunluqla qarşılandı.Komandanlığın verdiyi qərara əsasən Allahverdinin alayı da daxil olmaqla bir neçə tabor Füzuli-Qubadlı istiqamətində yerləşən Yuxarı Güzlək və Görəzilli kəndləri uğrunda gecəylə döyüşə girişdilər.Qəflətən edilən hucumlar düşməni gözləmədiyi anda yaxalamışdı.Gecə qaranlığında döyüşlərə tab gətirməyən erməni silahlıları parakəndə və nizamsız vuruşduqlarından ya əsir düşərək yalvarışlar edir,ya da silah-sursatlarını ataraq fərarilik edib döyüş meydanından qaçırdılar.Düşmənlərin xeyli canlı qüvvəsi itgilərlə qarşılaşdığı kimi, hərbi əhəmiyyətli texnikaları, -topları, tankları, silah daşıyan yük maşınları ordumuz tərəfindən qənimət olaraq götürülürdü.Gərgin döyüşlərdən sonra Azərbaycan ordusunun zərbələrinə duruş gətirməyən erməni qüvvələri oktyab-

rın 9-da Yuxarı Güzlək və Görəzilli kəndlərini tərk etmiş oldular.Bu kəndlər də erməni xislətinə uyğun olaraq tamamilə dağıdılmış və yerlə yeksan edilmişdi.Kəndləri azad edən Azərbaycan əsgərləri erməni vandallığının şahidləri olduqlarından bu dağıntıları həmişəki kimi erməni varvarlığının nəticəsi kimi qəbul etdilər.

Rembo qardaşları İldırım-Gülalı və Həsrət tez-tez Hadrut istiqamətində kəşfiyyata getməklə,Hadrut haqqında yeni məlumatlar əldə etməklə,Azərbaycanın bu gözəl diyarının düşmən tapdağından azad edilməsinə çalışırdılar.Axırıncı dəfə üç qardaş və bir neçə cəsur xüsusi təyinatlılar Hadrutdakı erməni fəaliyyəti haqqında xəbər verəcək əsir-dil gətirməyə müvəffəq olmuşdular.Belə ki, Hadruta yaxın meşəlikdə mövqe tutan erməni silahlılarının arxa cinahına kəşfiyyata gedənlər erməni dilində qədim Azərbaycan milli musiqisinin şedevri olan ″Sar gəlin″mahnısını“sari axçi″kimi oxuyan erməni,kəşfiyyatçılarımızın diqqətini cəlb etmişdilər.Xüsusi təyinatçılar erməni “müğənnisini″əsir götürməyi lazım bilmişdilər. Xüsusi təyinatçı İldırım nəhəng ağac gövdəsində gizlənərək “müğənni erməninin″ üstünə atılıb ağzını yummalı,Gülalı isə müğənni əsirin əl qolunu bağlamalıydı.Həsrət və digər xüsusi təyinatçılar uğursuzluq olacağı təqdirdə döyüş əməliyyatına hazır olmalı idilər.Lakin, iş elə gətirdi ki, erməni əsgər silahını bir ağac gövdəsinə qoyub″mədəniyyət″hazırlığına oturmuş oldu.Cəld silahı ələ keçirən Gülalının gözlənilməz hərəkəti ani olaraq İldırımın erməni əsgərini qapazlayıb ağzını yummasına səbəb yarat-

dı.Eyni cəldliklə Həsrətin erməni əsgərinin qollarını bağlaması ermənining müqavimətsiz təslim olmasına imkan yaratdı.Erməni əsgər öldürülməməsini yalvarışla xahiş edib qiymətli donoslar vermiş oldu.Erməni əsirin dediyinə görə, hər tərəfdən dağlarla əhatə olunan və dağətəyi dərəlikdə yerləşən Hadrut yüksəklikdəki erməni mövqeləri tərəfindən mühafizə olunurdu.Bu yüksəklikləri ələ keçirməklə çox da böyük olmayan əsgər qüvvəsinə edilən sürətli hucum Hadrutun azad edilməsinə gətirib çıxaracaqdı.Erməni əsirin dediyinə görə Hadrutda fəaliyyət göstərən kilsədə minatan yerləşdirilib.Talış və Suqovuşan kəndlərinin azad olunmasından sonra əhali Xocavənddə məskunlaşıblar.Beləliklə,ordu birləşməsinin ümumi rəyi bundan ibarət oldu ki,birinci və ikinci birləşmə yüksəklikləri ələ keçirməli, üçüncü birləşmə isə,"Yaşma" Xüsusi Təyinatçılarının birbaşa köməyi ilə Hadruta daxil olmalıdır."Yaşma" Xüsusi Təyinatçıları kilsəni cəbbəxana edən erməni silahlı quldurlarını zərərsizləşdirməli idi.Hadrut yüksəkliklərini ələ keçirilməsi üçün oktyabrın 8-də gecə vaxtı erməni əsir Vahanın bələdçiliyi ilə hucum əməliyyatı işlənildi.Erməni əsir Vahanın "üzüyola"olması artıq müəyyən edilmişdi.Belə ki, hələ əsir götürülən Vahanın inək boyda cəmdəyinə işarə vuran İldırım özünü saxlayaya bilməyib yalvarışla öldürülməməsini istəyən erməni əsir Vahana demişdi:-ayə, alçaq erməni!-elə yalvarırsan ki, öküz boyda bədən yiyəsi olub tülkü səsi çıxarırsan.Düşmən olanda nə olar?Heç olmasa özünü öküz bədəninə uyğun kişi kimi apar! Biz də bilək ki, düş-

mənimiz həqiqətən güc sahibidir.Yoxsa,əcdadların kimi tülkü qiyafəsinə girib hiyləgərliklə zəbt etdiyiniz torpaqlarda vandallıqlar edəndə düşünmürdünüz ki, bu torpağın əsil sahibləri gəlib haqq-hesab soracaqlar?! Yalvarışlar edən erməni başladı ki, ara, mani canı Karabaq Azirbiyjandır.Ara, mani üç uşaqi var.Mani buraya gondaranlara allax lanat elasin.Ara, man Bakudə Azirbiyjanların çekmasini silardim, mana yaxşi pul verardılar.Yaxşi yaşayardiq.Qarabağ köpəkləri, nadi bu Köçəri köpəkoğqlu ilə,Azirbiycanlı Azatin oğlu Serjik Yerevanda başçı olub aranı qatdılar massab da itdi.Bu Pişikyan da, başçı oldu bizi başı bəlalı etdi.İndi siz na desanız man hazır.Lijbi, mani öldürmayın.Erməni əsirə inanmayan Gülalı ona bildirdi ki, əgər şuluqluq etsən dediklərinin hamısını yazmışam göndərəcəm İrəvana. Səni elə satqınlığa görə,sən deməli Pişikyan öldürəcək.Yox, ara! Pişikyandan ölmak istamaz.Mani urayi Azirbiyjana qurban.Bayaqdan erməni əsirin yaşamaq xatirinə hər cür donos verməyinə, hətta ermənilər köklüklə satmağına hazır olduğunu görən Həsrət bədahətən erməni Vahana qısa bir şeir də tutdurmuş oldu:

*Sənə sözüm var Vahan,*
*Darlıq edirdi sizə,*
*İrəvan adlı cahan.*
*Gəldiniz üstümüzə,*
*Qarabağdı iştahan?!*
*Baş əyib çəkməmizə,*
*Verirsənmi imtahan?!*

Bəli, gecə qaranlığında Hadrut yüksəkliklərinə hucum əməliyyatına başlayan birinci və ikinci hərbi birləşmələr bütün yüksəkliklərdə düşmənə gözlənilməz və sarsılmaz zərbələr endirməklə mövqe tutmuş erməni silahlılarını darmadağın etdilər.Xüsusi Təyinatçılar qısa müddət ərzində kilsə cəbbəxanasını ələ keçirməklə erməni şarlatanların kilsə insidentlərinə son qoydular.Digər cinahda hərəkət edən müdafiə nazirliyinin xüsusi təyinatçıları "Rembo qardaşları" və Həsrət də daxil olmaqla hucum əməliyyatı vüsətləndi. Gərgin keçən döyüşlər nəticəsində Hadrutun yol boyu istiqamətində erməni dığalarının leşlərinin sayı-hesabı yox idi. Hadrutun yüksəkliklərində qeyri–bərabər döyüşə girə bilməyən erməni əsgərləri kortəbii olaraq nizamsız şəkildə Hadruta qacdıqlarından burada da Azərbaycan əsgərlərinin gücünə tab gətirməyib məhv olurdular.İldırım və Gülalı qardaşlarının döyüşləri daha ibrətamiz idi.Hər iki qardaş yaralıları döyüş meydanından çıxararaq əsil şücaət göstərirdilər.Gülalı bir əlində avtomat,çiynində yaralanmış əsgər düşmənlə elə vuruşurdu ki, Həsrət qardaşı Gülalının döyüşkən qabiliyyətinə heyran qalırdı.Gülalı demək olar ki, düşmənin gizləndiyi hər evə daxil olaraq sərrast atəşlə onları məhv edirdi.Həsrət də gərgin döyüşlərə girişərək sanki Gülalı qardaşını yamsılamaq istəyirdi.Hadrutda qızğın döyüşlər aparmaq istəyən erməni silahlıları gizləndikləri dinc əhali evlərindən dayanmadan atəş açırdılar.Demək olar ki, hər ev uğrunda düşmənlə vuruşmalar gedirdi.Evlərin birində həyətə daxil olan Gülalı ermənilərin silahlarını

kənara atıb onunla hərbə-zorba etmək istəyənləri ilə qarşılaşmış oldu.Gülalı onların başını hər qolunu arasına salaraq boyunlarını sındırıb yerə sərərkən düşmən snayperi tərəfindən sinəsindən,-ürək nayihəsindən vurulmuş oldu.Gülalının vurulmasına dözməyən İldırım nərə çəkərək evdə gizlənmiş erməni snayperini zərərsizləşdirib silahınınn darağında olan bütün gülləlləri ermənin hələ ölmək istəməyən bədəninə doldurdu.Tez geri qayıdıb Həsrətin dizləri üstünə başını halsız olaraq qoymuş qardaşını qucaqlayaraq dedi:-yox sənə heç nə olmaz,mən buna imkan verməyəm!Qardaşının bu inamlı sözündən təbəssümlənən Gülalı bildirdi ki, mənim ən böyük arzum düşmənə əsir düşməmək idi.Şükürlər olsun ki,Həsrət buna imkan vermədi və mən qardaşlarımın əhatəsindəyəm. Artıq gözləri dumanlaşan Gülalı halsız olaraq İldırımın onu dinləməsini xahiş etdi.Hiss edirəm ki, vəziyyətim yaxşı deyil!-deyə sözünə aramla davam edən Gülalı bildirdi. Özünüzü bu vucdansız düşmənin xəyanətkar gülləsindən qoruyun.Gülalı danışmaqda çətinlik çəkirdi.Gözlərini aramla açıb xırıltılı səslə dedi:-hayıf ki, atama övladlıq borcunu yetirə bilmədim, bacım Rəbiyyənin qayğısına qala bilmədim! Gözü dolmuş İldırım:-nə danışırsan, qardaşım?Bu böyüklükdə vətənə övladlıq etmirsənmi məgər?!Atam da, bacım da uğrunda vuruşduğun vətənin vətəndaşları deyilmi?!Gülalının ağzından gələn qan danışmaq imkanını mümkünsüz etsədə gözlərini geniş açıb bir daha İldırıma dedi:-Bacım və atam sənə əmanət.Sonra, İldırımın əlini Həsrətin əli ilə birləşdirib onla-

rın son ömrə qədər qardaş olmalarını xahiş etdi. Söz verin ki, qardaşlığınız əbədi olacaqdır. Bir azdan özünü yetirən tibb nümayəndəsi Gülalının güllə yarası almış sinəsini köynəkdən azad edib ilk tibbi yardım etmək istəyirdi ki,ağızdan gələn xeyli qan Gülalını şəhidlik zirvəsinə qovuşdurmuş oldu.Şəhid Gülalı, onunla bahəm bir neçə yaralı arxa cəbhəyə təxliyyə edildilər.İldırım,Həsrət və digər əsgərlər bu ölümə dözməyib qisas eşqi ilə hucuma keçdilər.Düşmən Oktyabrın 9-da müzəffər Azərbaycan ordusunun hucumlarına tab gətirməyib Hadrutu təslim edərək, xeyli canlı və hərbi texnika qüvvələrini itirib sağ qalanları ilə dağlara çəkilmiş oldular.Hadrutun azad edilməsindən sonra Hadruta yaxın bir ərazidə yerləşən Sur kəndi də düşmən tapdağından digər hərbi birləşmələrimizin gücü ilə azad edilmiş oldu.Hadrutun azad edilməsi Xocəvənd rayonunun digər kəndlərinin azad edilməsi və qədim şəhərimiz Şuşaya gedən yolun başlanğıcı idi.Hadrut düşməndən azad olunduqdan sonra qardaşı Gülalının dəfn mərasiminə qatılmasına razılıq alan İldırım şəhidliyə yüksəlmiş qardaşının cənazəsi ilə bərabər Bakıya,ata evinə qayıtmış oldu.Fəxri xiyabanda əsgərlərin atəşləri fövqündə dəfn edilən Gülalının qəbri üstündə vətən bayrağını qəbul edən Hüseyin kişi:-vətən sağ olsun!- deyərək al bayrağı öpüb oğlu İldırımı qucaqladı.Ata-bala sellənən göz yaşlarını silməklə bərabər,vətən qarşısında xidməti borcunu yerinə yetirərkən şəhid olan Gülalının qəbri üstündə vətən naminə məğrur dayanmağı da unutmadılar.Dəfn mərasimindən sonra evə qayıdan

ata-bala xeyli dərdləşdilər.İldırıma məlum oldu ki, bacısı Rəbiyyə müharibə başlayandan heç bir həftə keçməmiş hərb meydanına yollanmışdır.Ayağından cüzi yara alan komandir Allahverdi təsadüfən Rəbiyyənin xidmət etdiyi hərbi tibb məntəqəsində müalicə alarkən bacısı Rəbiyyə ilə görüşmüş və ataları ilə telefonla danışmışlar.Oda məlum oldu ki, qardaşı Arif elə müharibənin ilk günündən Murovdağ yüksəkliklərinin azad edilməsində snayperçi olaraq iştirak etmiş və indi də xidmətini davam etdirir.Qardaşları komandir Yadulla və topçu komandir Dadaşdan hələlik elə bir xəbər yox idi.Atasının tənha qalmasını, evdəki məişət işlərinin çətinliyini dərk edən İldırım məyuslanırdı.İldırımın nədən məyus olmasını anlayan Hüseyin kişi oğluna narahat olmamağı bildirərək deyirdi ki, hələ tələbə yataqxanasında yaşayarkən,vaxtı ilə onun və digər övladlarının göz açdığı yataqxanada da xörək bişirməyi,paltar yumağı,hətta paltarları köz ütüsü ilə ütüləməyi də öyrənmişdir.Ata-bala iki günlük birgəlikdə xeyli dərdləşib birgə Səmayənin,Fərman kişinin, Süsən nənənin qəbrini də ziyarət etdilər.Hüseyin kişinin fəxarətinə səbəb olan isə, əsgər paltarlı oğlu İldırımın anası Səmayənin qəbri üstündə hərbi farağat dayanmaqla dediyi and sözləri idi. İldırım anasına and verirdi ki, qardaşı Gülalının qisasını düşmənlərdən alacaqdır.Vaxt tamam olanda döyüşən əsgər dostlarının yanına gedən İldırım atasına özünü qorumağı xahiş edib hərbi bölməsinə yola düşdü .Oğlunu qürur hissi ilə yola salan Hüseyin kişi İldırım olmaqla bütün övladlarının sağ-salamat dö-

yüşüb evə qayıtmaları üçün allahına duaçı oldu.Oğlu İldırımı yola salandan sonra ürəyinin hökmü ilə Gülalının dəfn olunduğu xiyabana gələn Hüseyin kişi şəhidlik zirvəsi ilə atasını,elini şöhrətləndirmiş oğluna xitabən dedi:-Mənim igid balam.Sən burada dəfn olunan əsgərlər kimi şəhidsən,ölməzsən və mənim vüqarımsan.Allah mənə birinci Qarabağ müharibəsində şəhidlik zirvəsini qismət etmədi,qazi etməklə kifayətləndi.Allah bu şəhidliyi mənə yox,sənə qismət etdi oğlum!Rahat uyu igid balam!İndi mən səndən heç vaxt nigaran qalmayacam.Sən şəhidsən, şəhidlər isə ölməzlərdir!

Komandir topçu Dadaşın alayı isə Tərtərin Çaylı kəndi uğrunda hucuma başlamışdılar.Çaylı kəndinin mövqeləri düşmən səddləri ilə elə qurulmuşdu ki,quru ordu birləşmələrinin kəndə olan hucumuna çətinlik yaradırdı.Düzgün koordinsiya alan Dadaş topçuları ermənilərin bir neçə səddən ibarət olan istehkamlarını sərrast top atəşinə tutmaqla düşmənin xeyli canlı və texniki itgilər verməsinə səbəb olub,quru qoşunlarımızın oktyabrın 9-da Çaylı kəndinə daxil olmalarına şərait yaratdılar.Dağıdılmış və talan edilmiş kənd evlərinin künc-bucağında gizlənən erməni silahlılarının əks-hucum göstərməsi isə onların tamamən məhv edilməsinə gətirib çıxartdı.Oktyabrın 9-da Çaylı kəndinin düşməndən azad edilməsində topçu komandiri Dadaşın taborunun göstərdiyi igidliklər misilsiz qəhrəmanlıq nümunəsi kimi təqdir olundu.

Allahverdi qardaşını hərbi hissəyə yola salan Rəbiyyə tibb məntəqəsində bir an dayanmadan yaralılara

xidmətini əsirgəmir,imkan tapdıqca döyüş meydanlarına gedir və döyüş anlarında yaralılara ilk tibbi xidmətini göstərməklə bərabər,ağır yaralıları səngərə çəkərək tibb məntəqəsinə göndərirdi.Hərbi tibb səhra məntəqəsinin cavan xanımı olaraq Rəbiyyə döyüş meydanlarına atılmaqla heç olmasa qardaşlarından birinə rast gəlmək ümidini itirmirdi.Döyüş meydanında yaralanaraq üzüqoylu düşüb şəhid olmuş  idmançı bədənli əsgəri qardaşlarından biri hesab edən Rəbiyyə bərk həyacanlanmışdı.Əsgərin üzünə baxıb qardaşı olmadığını görsə də onu döyüş meydanında qoymayıb nəşini çiyninə alıb döyüş meydanından çıxaran Rəbiyyə özündə daxili sakitlik yarada bilmişdi.Digər tibb nümayəndəsinin köməyə gəlişi ilə Rəbiyyə hərbi səhra məntəqəsinə geri çağırılmışdı.Rəbiyyənin altı qardaşının müharibə meydanlarında düşmənlə vuruşduğunu bilən və Rəbiyyə ilə eyni gündə hərbə yollanmış digər tibb bacısı Südabə, Rəbiyyənin döyüşən qardaşlarının axtarmaq hisslərini çoxdan anlamışdı.Hər dəfə döyüş meydanına atılan Rəbiyyənin güllə, mərmi qorxusu bilmədən vəzifəsini can-başla yerinə yetirməsi tibb bacısı Südabəni bərk narahat edirdi. Odur ki, Südabə hərbi məntəqənin rəisi polkovnik Camalovdan Rəbiyyəni qorumağı xahiş edirdi.Elə ki, iki tibb bacısı bir yerdə olurdular Südabə özünü oda-alova atan Rəbiyyənin qeydinə qalır,özü də bilmədən bu cəfakeş qıza himayəçilik edirdi.Südabə həməşə qayğılı olan Rəbiyyəyə bildirirdi ki,o da Aprel döyüşlərində tibb bacısı kimi xidmətdə olarkən yeganə qardaşının şəhidliyə qovuşmasının şahidi olmuş

və bilir ki,anasız böyümüş qardaş bacısı olmaq nə deməkdir?Südabənin ürək yandıran bu sözləri Rəbiyyəni təsirləndirmiş və anası Səmayəni yadına salmışdı.

Füzuli istiqamətində gedən döyüşlərdə Yuxarı Güzlək və Görəzilli kəndlərinin azad edilməsində komandir Allahverdi alayının göstərdiyi şücaət briqada komandiri Əyyubovun xüsusi təşəkkürünü qazanmışdı.Füzulinin digər kəndlərinin azad edilməsində yaranmış gərginlik və otuz il ərzində tikilmiş istehkamların yarılması, yaranmış müdafiə xəttinin məhv edilməsi bir həftədən də tez olaraq həllini tapdı.İki hissəyə bölünmüş hərbi birləşmələr müdafiə xəttini yardıqdan sonra oktyabrın 14-də Qaradağlı və Qarakollu istiqamətində hucuma keçib düşmənin xeyli canlı qüvvəsini və texnikasını məhv etdilər.Azərbaycan əsgərlərinin döyüşkən ruhu qarşısında aciz qalan erməni quldurları silahlarını ataraq döyüş meydanından qaçırdılar.Artıq Qaradağlı və Qarakollu kəndlərini tərk edən ermənilər Azərbaycan ordusu üçün hərbi qənimətlər saxlamağı da unutmurdular.Boy-Boya sıralanmış zirehli texnikalar- tanklar, toplar, ZRK-lar erməni ordusunun çürüklüyünü,vuruş qabiliyyətinin olmamasını bir daha sübut edirdi.Qaradağlı və Qarakollu ilə bərabər,Xatunbulaq kəndinin də azad olunmasına şərait yaranmışdı.Axşama yaxın Füzuli rayonunun hər üç kəndi erməni qəsbkarlarından azad edildi.Əsgərlərimiz tərəfindən də yaralananlar və itgilər olmuşdu.Bu itgilər erməni əsgərlərinin döyüşkənliyi ilə deyil,illərlə basdırdıqları minaların partlaması nəticəsində olmuşdu.İsteh-

kamçı əsgərlərimisin səylərinə baxmayaraq hiyləgər düşmən çaşdırıcı minalar qoymaqla əsgərlərimiz arasında tələfat yaratmışdı.Düşməni kəndlərdən qovan əsgərlərimiz kəndlər arasında və ətrafında erməni quldurlarının hərbi sursatları qoyub qaçdığı səngərlərdə mövqe tutmuş oldular.Ermənilərin qənimət saxladığı bu hərbi sursatlarından əsgərlərimiz elə onların özlərinə qarşı da istifadə edirdilər. Əsgərlər bütün gün ərzində kəndlərin azad edilməsində fədakarlıq göstərib elə yorğun olmuşdular ki, onları yeməkdən də çox dinclik düşündürürdü.Sabahkı döyüşün qızğın olacağını təcrübəli zabit heyəti bilirdi.Geri çəkilmiş düşmən tərəfindən də sükutluq hökm sürürdü.Kəşfiyyatçıların gətirdiyi xəbərə görə erməni silahlıları Füzuli istiqamətində olan Qoçəhmədli və Cuvarlı kəndləri ətrafında möhkəmlənmə işlərini aparırlar.Səngərlərdə yan-yana mürgüləyən əsgərlərin soyuqdan qorunmasına qayğı göstərən zabit heyəti kəşfiyyatçıların verdiyi məlumatları təcrübədən keçirib belə qərara gəldilər ki,düşmən Füzulini əldən verməmək üçün hazırlıq işləri görür.Oktyabr ayının 15-i sübh səhər döyüş əmri alan əsgərlər Arış kəndi uğrunda döyüşə girişdilər.Arış kəndi digər ona yaxın kəndlərlə bərabər Qarabağ silsiləsi ətəyində yerləşən kəndlərdən biri idi. Kənddəki erməni mövqelərini atəşə tutan topçulardan sonra tanklar və quru qoşun növləri, o cümlədən komandir Allahverdinin alayı da Arış kəndi və sonrası Qoçəhmədli kəndi olmaqla qızğın döyüşə girişdilər.Arış kəndi uğrunda gedən döyüşlərdə düşmən ordusu tələfat verməsinə baxmayaraq

kəndi əldən vermək istəmirdi.Çünki,Arış kəndi alındıqdan sonra bir ucu Qoçəhmədli-Cuvarlı olmaqla Füzuliyədək Azərbaycan ordusu gedib çıxacaqdı.Bu nöqteyi nəzərdən də,ermənilər hər vəchlə Arış kəndini tərk etmək istəmirdilər.Dağıdılmış evləri sipər edən erməni silahlıları əsgərlərimizin hucumunu dəf edərək əks hucuma keçmək arzusunda olsalar da, zenit raket hərbi bölmələri,"iti qovan"dronlarımız,Türkiyə istehsalı olan Bayrakdar,İsrail Haropları düşməni xeyli itgi verməyə məcbur edib,tədricən kəndi tərk etmələrinə səbəb yaratdılar.Axşama yaxın Azərbaycan ordusunun hucumlarına tab gətirməyən ermənilər kəndi tərk edib Qoçəhmədli kəndində mövqe tutdular.Arış kəndinə daxil olan əsgərlərimiz həmişəki kimi dağıdılmış kənddə erməni vandallığının,alçaqlığının şahidi oldular.Dağıdılmış evlər,təhqir olunmuş qəbirlərlə yanaşı rast gəlinən erməni vəhşiliyi adamı dəhşətə gətirirdi. Döyüş zamanı həlak olmuş əsgərlərimizin nəşinə alçaqlar partladıcı maddələr bağlayaraq daha çox ölümə səbəb yaratmağa çalışırdılar. Komandir Allahverdi əsgərlərimizə həlak olmuş döyüşçülərin nəşinə ehtiyatla yanaşmağı xahiş edirdi.Əsgər nəşindəki partladıcı maddələr aşkar edilərək ehtiyyatla zərərsizləşdirilir, həlak olanlarımız böyük hüzn və ehtiramla arxa cəbhəyə göndərilirdi. Erməni alçaqlığı bununla kifayətlənmirdi.Fərarilik edən erməni əsgərlərinə qarşı ermənilərin özləri alçaqlıq edərək onları zəncirləyib beton istehkamına bağlayır və sonra qəddarcasına öldürürdülər.Görünür bu cür alçaqlığa gedən erməni millətçi silahlıları, birinci Qara-

bağ müharibəsində işgəncələri ilə məşhurlaşmış "general" Manvel Qriqoryandan və onun kimi digər qaniçənlərdən cinayətkarlığın bütün sirlərini öyrənmişdilər.Komandir Allahverdini dəhşətə salan isə qəbirlərimizin baş daşında olan mərhumların şəkillərini nişangaha götürülməsi,yaxud qəbirləri dağıdaraq insan sümüklərinin təhqir edilməsi,ziyarətgahların,dini məbədlərin tövləyə çevirmələri idi.Bütün bu vəhşiliklərə biganə qalmayan əsgərlər erməni millətçilərini allahsızlıqda təqsirləndiridilər.Müharibədən öncə tarix müəllimi olaraq fəaliyyət göstərmiş əsgər  Ərəstun döyüş yoldaşlarına izah edirdi ki, bütün din evləri allahın evidir.Bir millət ki, allah evini təhqir edirsə bu millətin allahı ola bilərmi? Bu millət yaranışından özlərinin olmayan və qonşulardan min bir hiylə ilə əldə etdikləri torpaqları özününküləşdirib,qonşularına qarşı torpaq iddiaları ilə çıxış edirlər.Bu millətin gözü torpaqdan doymur.Həmdə ki, bu torpaqları viranə halına salaraq bir növ təbiəti bayquşlaşdırırlar.Əsgərlərdən cənublu balası Gülbala az-çox atasının mollalıq peşəsindən bilgisi olduğundan əsgər paltarının altından ağ köynəyini çıxardıb qəbirlərin ətrafına səpələnmiş insan sümüklərini böyük hüznlə ağ köynəyinə yığırdı.Dəfn surəsini əzbər bilən Gülbala ağ köynəyinə yığdığı insan sümüklərini dağıdılmış qəbirlərin birinə yerləşdirərək torpaqlayırdı. Belə hüzünlü mənzərə düşməndən qisas almaq hissi ilə yaşayan əsgərlərdə onlara qarşı nifrət hissi yaradırdı.Şahidi olduqları bu erməni vəhşiliklərinə dözməyən əsgərlər erməni silahlılarının  Füzulini əldən ver-

məmək üçün Qoçəhmədli-Cuvarlı istiqamətində möhkəmlənməsinə şərait yaratmamaq üçün hər an döyüşə atılmaq arzusu ilə yaşayırdılar. Əsgərlərin döyüş ruhunu başa düşən komandir heyəti düşmənə fürsət yaratmamaq üçün kəşfiyyatın məlumatlarını dəqiqləşdirib 16-dan 17-nə keçən gecə Qoçəhmədli-Cuvarlı istiqamətində hucuma keçməyi lazım bildilər.Sakitlik içərisində bütün gecəni dincələn əsgərlər yaxınlıqdakı dağıdılmış qəbiristanlıqda insan hənirtisini eşidib, bir növ xoflanmış oldular.Zarafat deyildi. Ermənilər qəbirləri dağıtmaqda goreşənlik peşəsinə də yiyələnmişdilər.Əsgərlər arasında "canavar Teymur" kimi tanınan döyüşçü sakitcə zülmət qaranlıq içəriisində olan qəbiristanlığa doğru sürünmüş oldu."Canavar Teymur" səssizlik şəraitində insan hənirtisini müəyyən edərək qəbirdən boylanan insan gözlərini görüb cəldliklə qəbirsanlıqda gizlənmiş erməni əsgərini dartıb qəbirdən çıxarmış oldu.Erməni goreşən zəiflikdən danışmağa halı olmadığından su və çörək istədi.Əsgərlər onu yedizdirəndən sonra dilə gələn erməni qorxusundan qəbirdə gizləndiyini bildirərək,dilimizi az-çox bilənlər kimi qolunu-qıçını sındırmaqla bildirdi:- ara kardaş askarlar göydən od yağır.Top,tank,yük maşınlarımız,hatta ZRK-larımız göydən yağan oddan yanırdı.Hala ermani döyüşçülərinin göyə sovrulub parça-parça olmağını demiram.Man baxdım ki,qəbirsanlığa od yağmır odur ki, qəbirlərdə gizlənib ölmax istamadim. Zarafatından qalmayan əsgər Məmməd:-aya erməni, bizdə elə bildik ki, qəbirləri dağıdan goreşəni tapmışıq.Goreşənə də oxşayır-

san ha?!Nə istəyirsiniz ə, bizim millətdən? Məmməd xeyli torpaq ovuclayıb ermənyə uzadaraq dedi:-al ye, istəyirsən gözünə də qoy!Gözləriniz torpaqdan doysun ki, daha torpaq üçün bir daha millətimizin başını ağrıtmayasınız!Erməni and-aman elədi ki, o öz xoşuynan müharibəyə gəlməyib.Düzdür mən özüm Xankəndində doğulmuşam.Atam Nerses danışardı ki, biz Azərbaycanlılarla bir yerdə çox yaxşı yaşamışıq.Hələ Qarabağ müharibəsi olmamışdan öncə atam məni Rusiyaya qohumumuz Suren gilə getməyi məsləhət gördü.Odur ki, birdəfəlik Moskvaya qohumlarımım yanına getdim. Ancaq,vizamın vaxtı qurtardığından yeni viza almaq üçün Xankəndinə gəldim.Müharibəyə hazırlaşan erməni Qarabağ hərbi hökuməti mənə viza verməyib səfərbərlik qanununa əsasən bildirdilər ki,ya müharibəyə getməlisən,ya da getmədiyin təqdirdə cinayətə cəlb olunacaqsan.Səfərbərlik məntəqəsində 35-40 nəfər cavanlı-qocalı bizi maşına mindirib zorlama döyüş bölgəsinə yolladılar.Bizi bağlı maşında gətirdiklərindən düşəndə məlum oldu ki, bizi döyüşmək üçün Azərbaycan torpağı olan Füzuliyə gətiriblər.Müəllim əsgər Ərəstun erməni əsirdən maraq olaraq soruşdu ki,sən qorxudanmı doğulduğun yerə Stepanakert yox, Xankəndi deyirsən?Yox,bratan.Atam Nerses deyərdi ki, ilk əvəllər şəhərimiz Xankəndi olub.Sonralar millətçi erməni cammaatı hay-küy edəndən sonra şəhərə Stepanakert adı veriblər.Vallah dağıdılmış evlərə,qəbirlərə görə özümü çox pis hiss edirəm.Hələ qismət olsa Moskvaya qayıtsam Azərbaycanlı dostlarımın necə üzlərinə baxa-

cam bilmirəm.Komandir Allahverdi erməni əsiri dinlədikdən sonra dedi:-erməni Aşot sənin bizə verdiyin hərbi sirrlər və danışdıqlarının həqiqət olub-olmaması tezliklə bilinəcək.Biz səni komandanlığa təhvil verəcəyik və sənin qəbahətlərini,yaxud zərərsiz əsgər olduğunu orada müəyyən edəcəklər.Bir azdan kəşfiyyata getmiş döyüşçülər düşmənin gələcək planları haqqında məlumat verərkən aydın oldu ki, erməni əsir Aşotun verdiyi hərbi sirrləri həqiqət kimi qəbul etmək olar.Odur ki,16-ı günü hərbi silahlarını qaydaya salmaqla komandirlərin hucum əmrini gözləməkdə döyüşçülər qərarlı oldular.Kəşfiyyatçıların dəqiq məlumatları və verilən koordinasiyalara əsasən, gecənin sükutunu artilleriya və zenit raket komplekslərinin atəş zərbələri pozmuş oldu.Bir neçə dəqiqəlik atəşlərdən sonra BMP-lərin və tankların nəriltili sədaları altında quru qoşunları, komandir Allahverdinin alayı da daxil olmaqla Qoçəhmədli-Cuvarlı istiqamətində hucuma keçdilər.Artilleriya və ZRK-ların düşmənə gətirdiyi gözlənilməz tələfatlar onları elə çaşdırmışdı ki, gecə qaranlığında özlərini itirmiş ermənilər artıq bir-birlərinə də güllə atmağa başlamışdılar.Gözlənilməz sarsıdıcı atəş zərbələrindən çaş-baş qalmış erməni əsgərləri silahlarını ataraq hara gəldi qaçırdılar.Hər tərəfdə erməni tanklarının,yük maşınlarının yanması fövqündə ermənilər əsir düşməyi vacib bilirdilər.Gecə qaranlığında erməni texnikalarının yanıb ətrafa işıq saçması əsgərlərimizin irəliləyişinə də imkan yaradırdı.Səhərə yaxın Qoçəhmədli və Cuvarlı kəndlərini düşmənlərdən azad edəm müzəffər

ordumuz Çimən və İşıqlı kəndləri uğrunda döyüşləri davam etdirdilər.Azərbaycan Ordusunun digər hərbi birləşmələri isə Füzulinin Pirəhmədli və Musabəyli kəndlərini erməni varvarlarından azad etmişdilər.Ordumuzun əldə etdiyi müvəffəqiyyətlər komandir Allahverdinin daxil olduğu və Füzuli istiqamətində döyüşlər aparan hərbi birləşmələrin ruh yüksəkliyini elə qaldırmışdı ki, düşmənə aman vermədən sürətlə irəliləyərək Çimən və İşıqlı kəndlərini də  düşməndən azad edib Dədəli və Füzuli şəhəri uğrunda döyüşləri genişləndirmişdilər.Düşmən tələfat verərək geri çəkilir və Azərbaycan ordusunun möhtəşəmliyinə tab gətirə bilmirdi.Əsgərlərimizin yaralanması və şəhadətə yüksəlməsi minaların partlaması və alınan qəlpə yaraları ilə müşaiyət olunurdu.Hiyləgər düşmən döyüş bacarıxsızlığını əvvəlcədən bildiyindən basdırdığı minalarla Azərbaycan əsgərlərinə zərər vurmuş olurdular.Hər addımda gözlənilən minalara, qurulmuş sədli istehkamlara baxmayaraq rəşadətli Azərbaycan ordusu Oktyabrın 17-də Dədəli kəndini və Füzuli şəhərini düşmən tapdağından azad etmiş oldular.Komandir Allahverdinin də taboru daxil olmaqla bütün əsgərlərimiz Füzuli kəndlərinin və Füzuli şəhərinin azad edilməsini möhtəşəmliklə qeyd etdilər.

Oktyabrın  9-da Xocavənd rayonunun strateji əhəmiyyət kəsb edən Hadrut qəsəbəsinin ələ keçirilməsindən və Gülalının düşmən gülləsinə tuş gəlib şəhidliyə qovuşmasından hiddətli olan və bu ölümlə barışmayan İldırım və Həsrət qardaşları Hadrutun düşməndən azad

edilməsindən qürur duysalar da Gülalının qisasını almaq eşqi ilə qarşıdakı döyüşə hazırlaşırdılar.Hadrutda tam möhkəmlənmiş XTQ döyüşçüləri nəhayət ki,Xocavənd istiqamətini götürərək iki istiqamətdə hucum əmri almış oldular.Oktyabrın 14-də Bulutan istiqamətində hucuma keçən birinci XTQ taboru İldırım və Həsrət olmaqla döyüş əməliyyatına başladılar. Artıq səhərə yaxın havanın işıqlanmasına az qalmış yaxınlıqda eşidilən tək-tük atəş səsləri əsgərləri mövqe tutmağa və döyüş vəziyyətinə hazır olmağa vadar etdi.Əsgərlər komandirin hucum əmrini gözləyərək hucuma keçməyə can atırdılar.Bir az aralıda düşmən əsgərlərinin sakit və pıçhapıç danışıqları eşidilirdi.Düşmənin meşəlik təpəyə doğru gəlişini izləyən komandir onları irəli buraxıb qəflətən hucum etməyi qərarlaşdırdı.Düşmənin yaxınlaşdığını xəbər verən xəzələ çevrilmiş ağac yarpaqları əsgərlərimizi hər an döyüşə səsləyirdi.Düşmənin hərəkətini izləyən komandirin əmri ilə qranatları hazır vəziyyətə gətirən əsgərlər düşməni qranat atəşi ilə lokallaşdırıb hucuma keçməli idilər.Dəqiqələr keçməmiş yaxınlıqda olan düşmən əsgərlərinə qarşı qranatları ataraq onları çaşbaş salan əsgərlər hucuma keçdilər.Düşmən əsgərləri özlərini gözlənilməz hucumdan elə itirmişdilər ki, hətta özlərinə qarşı da silah işlətməli olurdular.Qisas eşqi ilə yanan İldırım silahının süngüsü ilə qardaşımın əvəzi olaraq,-deyib düşmən əsgərinin bir neçəsini məhv etmişdi.İldırımın əlbəyaxa döyüşə girişməsindən narahat olan Həsrət İldırıma yaxınlaşan düşmənləri sərrast atəşlə yerə sərirdi.Ətrafda düşmən əs-

gərlərinin meyidi o qədər çox idi ki,saymaqla qurtarmaq olmurdu.Bu döyüşdə iki əsgər cüzi yara alsalar da, döyüş meydanını tərk etməyib düşmənə qan uddururdular.Bu yaralı əsgərlər ilk tibbi yardıma ehtiyac duymadan şir kimi vuruşurdular.Döyüşçülərdən Murad adlı əsgərin yaralanmış qıçasından axan qan belə onu sakitləşdirmirdi.Onun yaralı ayaqla düşmən üstünə şığıması böyük şücaətdən xəbər verirdi.Əsgərləri bir məqsəd birləşdirirdi Bulutan kəndini tezliklə azad etmək.Bulutan kəndi Qarabağın silsilə ətəyində yerləşən və Xocavəndə irəliləyişi təmin edən strateji əhəmiyyətə malik bir ərazi idi.Bulutan kəndinin azad edilməsi Xocavəndə gedən yol üstündə yerləşən digər kəndlərin,-Xırmancıq,Ağbulaq,Edilli, Axullu, Düdükçü kəndlərinin azad edilməsi demək idi. Odur ki, düşmən Bulutan kəndini təslim etmək fikrində deyildi.Bulutan kəndində eşidilən tək-tük silah səsləri düşmənin kənddəki varlığından xəbər versədə müzəffər ordumuzun XTQ döyüşçüləri kəndi düşməndən azad etməkdə israrlı idilər.Düşmənin əks hucum göstərmək şansları demək olar ki, yox dərəcəsində idi.Komandirin irəli əmri ilə,Bulutan kəndinə hucuma keçən əsgərlər düşməni qovalayaraq kənddən çıxarmış oldular.Kəndə daxil olan əsgərlər kəndi ələk-vələk edib bir düşmən əsgərini belə tapa bilmədilər.Kənddə toyuq və heyvandan başqa heç bir ins-cins gözə dəymirdi.Erməni quldurları ordumuzun qəhrəman əsgərlərinin hucumuna tab gətirə bilməyəcəklərini əvvəlcədən hiss etdiklərindən kəndi tərk etdmişdilər. Oktyabrın 14-də Bulutan kəndində

mövqe tutan əsgərlərimizin sevincinə, ikinci və digər istiqamətlərdə hucuma keçən döyüşçülərimizin bir gündə Məlikcanlı,Kəmərtürk,Təkə,Taqaser kəndlərini erməni quldurlarından azad etmələri olmuşdu.Bulutanda mövqelənmiş əsgərlər komandirləri tərəfindən gələcək hucumlara hazırlıq üçün dinclik vaxtına keçirildiklərindən düşmən üzərindəki qələbəni ermənilərin ordumuz üçün hədiyyə saxladığı quzunun kababı ilə qeyd edirdilər.Əsgərlər arasında zarafatı ilə seçilən və dağ havasının iştah verdiyi quzu kababından doymayan cənublu balası Xanoğlan belə tezliklə havanın qaralmasına təəssüflənirdi. Cənublu ağsaqqallara məxsus bir əda ilə bildirdi ki, indi hər gün gündüzlər bir arpa boyu qısalmağa başlayır.Əsgərlərin ona təəccüblü baxışlarına rəğmən Xanoğlan and içirdi ki,rəhmətlik babam Baloğlan həməşə bizə deyərdi ki,payızda-qışda gündüzlər gecələrə nisbətən bir arpa boyu qısalır,yazda-yayda isə gecələrə nisbətən gündüzlər bir arpa boyu uzanır.Əslən Kəlbəcərli olub Kəlbəcər üzü görməyən Niftalı isə, cənublu dostuna öz zarafatı ilə dilxoşluq gətirərək deyirdi:-ə qaqaş, sənin rəhmətlik baban keçmiş adamlar kimi günün qısalıb-uzanmağını bir arpa boyu hesab edirdisə,sən də müasir ol de ki,bir arpa boyu iki dəqiqədir.Əsgərlər də anlasınlar ki, bir arpa boyu iki dəqiqə deməkdir.Sən keçmiş əyyamın dili ilə danışdığından uşaqlar da sənə iki arpa boyu təəccüblə baxırdılar.Əsgərlər arasında gülüşmə qopdu.Əlbəətə ki,bu gülüşmə düşmən üzərində olan qələbənin zəfərindən doğan gülüşlər idi.

Ordu rəhbərliyindən verilən komandaya əsasən İldırım və Həsrətin tabe olduğu hərbi birləşmə Xırmancıq kəndi istiqamətində hucuma hazırlaşmalı, XTQ-nin digər taboru isə Edilli,Düdükçü istiqamətində Oktyabrın 15-də hucuma keçməli idilər.Sübhdən hucuma keçən XTQ taboru digər ordu birləşmələri ilə bərabər qeyri –bərabər döyüşlər keçirərək gün ərzində Xocavəndin Edilli,Düdükçü,Edişə,Çıraquz kəndlərini erməni quldurlarından azad etmiş oldular.XTQ döyüşçülərinin və digər ordu birləşmələrinin müvəffəqiyyətli hucum taktikası düşməni geri çəkilməyə məcbur etmişdi.Bu qələbədən ruhlanan İldırım və Həsrət qardaşları da daxil olmaqla XTQ döyüşçüləri Xırmancıq kəndi uğrunda döyüşə atıldılar.Xırmancıq kəndi dağətəyi ərazidə yerləşdiyindən yüksəkliyi ələ keçirməklə kənddəki erməni quldurlarının axırına çıxıb kəndi azad etmək mümkün idi.Odur ki,gecə qaranlığında düşmənin pusqu edə bilmək şansını yox etmək üçün olduqca sayıqlıqla meşəlikdəki yüksəkliyə qalxıb qəflətən hucuma keçmək nəzərə alınmışdı.Meşə qaranlıq zülmətinə çökmüşdü.Həzin-həzin əsən külək,artıq yaz ömrünü başa vurub qızılı payız donunu geymiş yarpaqların budaqlarından qoparaq torpağa düşməsinə və cingiltili musiqi xışıltısına səbəb olurdu.Ayaqlar altında əzilərək vahimə yaradacaq qədər əcayib xışıltılı səslər çıxaran xəzəl yarpağı sanki,özü kimi sonluq mahnısını təqdim edirdi.Xəzəlin bu sonluq xışıltısı düşmənin pusqusu qədər vahiməli olduğundan komandir Şükürov əsgərlərə sayıqlığı itirməməyi və ehtiyatla hərəkət etməyi məslə-

hətli edirdi.Zülmət meşə qaranlığında xəzəl xışıltısını əzən ayaq səslərinin səmtini müəyyənləşdirmək istəyən təcrübəli komandir Şükürov əsgərlərinə bir işarə ilə dayanmağı əmr etdi. Xəzəlləri əli ilə üsulluca torpaqdan kənarlaşdırdıqdan sonra qulağını torpağa dirəyib yaxınlıqda hərəkətdə olan düşmənin pusqusu ilə qarşılaşacaqlarını anladı.Əsgərlərə üz tutan komandir sağ istiqamətə hərəkət etməyi lazım bilib bir-birlərini itirməmək üçün bir-birinin əlini  tutmağı,səssiz və barmaqucu hərəkət etməyi,bir əlində isə qumbaranı hazır tutmaqla qarşıya çıxa biləcək düşmən qüvvələrini məhv etməyi lazım bildi.Düşməni duyuq salacaq səslərə imkan vermədən irəliləmək nəzərə alındı.Zülmət qaranlığında bir-birlərini itirməmək üçün əlbir olan XTQ əsgərləri irəliləməyə başladılar.Həsrət və İldırım bir-birlərindən yapışmış halda hərəkət edirdilər.Birdən ayağı xəndəyə ilişən Həsrət səs olmasın deyə İldırımın əlini buraxıb xəndəkdən ayağını bir təhər çıxartmış oldu.Qaranlıqda öndə hərəkət edən əsgərlərin silueti görsənirdi.Bu siluetlər içərisində iri gövdəli İldırımı seçmək lazım idi. Hələ bağçada uşaq vaxtı yatmağı tələb edən müəllimənin işıqları söndürüb getməsindən sonra qaranlıqda konfetləri səssiz paylamaları Həsrətin yadına düşdü.Bağçada olan hər bir uşağın qaranlıqda olan siluetindən onları ayırd etməyi Həsrət bacarardı.İndi uşaqlıq təcrübəsini yadına salan Həsrət iri gövdəli İldırımı arayaraq ona yaxınlaşıb qolundan tutmuş oldu.Bu an İldırım cəld tərpənərək qumbaranı işə salmaq istədi ki, Həsrət pıçıltı ilə internat demiş oldu.İl-

dırımın ürəyi bir anlığa həyacandan sakitliyə alışdı.XTQ əsgərləri yüksəkliyə yaxın bir ərazidə yandırılmış ocağın boğucu tüstüsünü və közərən işıltısını,bu işıltıda düşmən silueti ilə bərabər başa düşülməz danışıq səslərini eşidib ayaq saxladılar.Komandir ani əmr verdi.Bir az irəli gedib qumbaraları işə salmaqla düşməni odlu silaha məruz qoymağı planlaşdırdı.Komandir Şükürovun XTQ döyüşçüləri öz keflərində olan erməniləri qumbara atəşinə tutub odlu silahlarla hucuma keçdilər.Düşmən əsgərləri bir-birinin ardınca çürümüş ağaclar kimi tir-tap olub yerə sərilirdilər.Xeyli itgi verən düşmən gözlənilməz hucumdan özlərini itirərək geri çəkilməyə başladılar.Komandir Şükürov tapançasını ələ alaraq irəliyə doğru arxamca-deyə döyüşə atıldı.Komandirin ardınca hucuma keçən XTQ döyüşçüləri köməyə gələn erməni silahlılarını yaxına buraxıb onların parakəndə dəstəsini pulyamot atəşinə tutmuş oldular.Hiyləgər düşmən yüksəkliyi əldən vermək istəməyərək əks hucumlar təşkil etsələr də, bu qeyri bərabər döyüşdə peşəkar XTQ döyüşçülərinin iradəsinə tab gətirməyib Xırmancıq kəndinin müdafiəsinə keçmiş oldular.İndiki halda Xırmancıq kəndini ələ keçirilməsi elə də çətin olmayacaqdı.Artıq zülmət qaranlıq işıqlı hava ilə əvəz olunduğundan yüksəklikdən baxanda ətəkdə yerləşən Xırmancıq kəndi əli içi kimi görsənirdi.Heç bir saat keçməmiş komandir Şükürovun döyüşçüləri kəndin düşməndən azad edilməsi üçün hər bir ev uğrunda qanlı döyüşlər aparmalı oldular.Pulyamotun güllə daraqlarını ulu babası qaçaq Nəbi kimi çiyinlərindən aşırma edən iri

gövdəli İldırım yolun ortasına çıxaraq erməni quldurlarından qardaşı Gülalının, şəhid olmuş digər döyüşçülərin qisasını alırmış kimi dayanmadan atəşləri ilə erməni leşlərinin yol boyu topasını yaradırdı.İldırımın sağ tərəfində dayanan Həsrət isə düşmənin tinlərdən baş çıxarmasına belə imkan vermirdi.Günortaya yaxın Xırmancıq kəndini düşməndən azad edən komandir Şükürovun XTQ döyüşçüləri Ağbulaq istiqamətində hucumu davam etdirib, düşməni kənd istiqamətində sıxışdırmağa başladılar.Ağbulaq istiqamətində gedən döyüş daha qanlı xarakter daşıyırdı.Ağbulaq kəndini ələ vermək istəməyən düşmən daha hiyləgər hərəkətlərə yol verirdilər.Belə ki,ağ bayraq qaldıraraq təslim olmaq adı ilə gizlədilmiş silahları, yaxud qumbaraları ilə humanistlik göstərən döyüşçülərimizə qarşı cəllad xislətlərini nümayiş etdirirdilər.Belə hiyləgərlik nəticəsində ayağından güllə yarası alan Həsrət büdrəyib yerə yıxılsa da,İldırım hiyləgər düşməni güllə-baran edib qardaşı Həsrəti döyüş meydanından çıxarmış oldu. Həsrətin bud nahiyəsindən aldığı güllə yarası döyüşlərdə tibb köməkçisi kimi püxtələşmiş Murad tərəfindən  xəncər ilə çıxardılmış və yaraya tibbi sarğı qoyulmuşdu.Həsrət döyüşü tərk etməmişdi. Həmin gün şiddətli döyüşlərə dözməyən erməni silahlıları Ağbulaq kəndini də qoruyub saxlaya bilməmişdilər.Düşmən həm canlı qüvvə, həm də silah-sursat nöqteyi nəzərindən xeyli itgi verməklə bərabər,xeyli miqdarda silah-sursatları kənddə qoyub canlarını götürərək qaçmalı olmuşdular.Digər XTQ döyüşçüləri isə qarşı tərəfdən hucuma

keçməklə düşmənlərdən Axullu kəndini azad etmişdilər.XTQ döyüşçüləri üç gün ərzində, yəni oktyabrın 14-15-16 günlərində "məğlubedilməz" erməni ordusunu ciddi itgilərə məruz qoymaqla, xeyli silah-sursat qənimət əldə etməklə düşmənin Xocavənd istiqamətində 12 yaşayış məntəqəsini azad etmişdi.

Komandir Yadullanın döyüşçüləri İranla olan sərhədyanı yaşayış məntəqələrinin azad edilməsi uğrunda irəliləyərək Azərbaycan dünyası üçün tarixi əhəmiyyətə malik olan, keçmiş əsrlərin qanlı-qadalı hadisələrinə şahidlik etmiş Xudafərin körpüsünü erməni quldurlarından azad etmək kimi tarixi vuruş aparırdılar.Müzəffər Azərbaycan ordusu sərhəd boyu irəlilədikcə erməni əsgərləri dabanqırma qaçaraq əraziləri tərk edirdilər.Qədim Azərbaycan torpağının bu tayında Azərbaycan əsgərlərinin irəliləməsini və erməni quldurlarının qaçışını izləyən o taylı-güneyli Azərbaycan qardaşlarımızın qışqıraraq,-Yaşasın Azərbaycan ordusu!-demələri,yaxud "Azərbaycan var olsun, istəməyən kor olsun!" oxumaları əsgərlərimizi döyüş ruhunu gücləndirirdi.Digər bir o taylı qardaşımızın irəliləyən əsgərlərimizə müraciətlə dediyi:-vuran əlləriniz yorulmasın Azərbaycan əsgərləri!-deyərək sevincdən hönkürməsi,son anda erməni əsgərlərinin marafon qaçışını seyr edən o taylı qardaşımızın:-Paşinyan budu sənin sərbazların,ordun, -deyib fərari erməniləri istehza hədəfinə çevirməsi Azərbaycan xalqının Rus-Fars müharibələri nəticəsində iki yerə bölünməsinə baxmayaraq ürəklərin, könüllərin bir olmasına,milli birli-

yə işarə deyilmi?!Oktyabrın 18-də tarixi Xudafərin körpüsünün azad edilməsi,Azərbaycan bayrağının körpü qapısına sancılması,necə də zorunan ayrılan bir milləti riqqətə gətirəcək anlar idi!Azərbaycan bayrağının Xudafərin körpüsünə sancılmasını seyr edən o taylı qardaşlarımızın cevinc dolu alqışları,harayları əsgərlərimizə xoş anlar yaşatmadımı?!Bu xoş anları yaşayanlardan biri də Hüseyin kişinin komandir oğlu Yadulla və onun rəhbərlik etdiyi döyüşçülər idi.Xudafərin körpüsünə Azərbaycan bayrağının sancılması,İran-Azərbaycan dövlət sərhədlərinin otuz illik xarabalığından sonra, bu sərhədlərin yenidən qorunmasının tarixi başlanğıcı idi. Komandir Yadulla döyüşçülərinin vuruşduğu müzəffər ordumuz, sərhəd qoşunlarımızla birlikdə İranla Dövlət sərhədinin sonuncu Ağbənd sərhəd məntəqəsinə doğru irəliləməli, düşmənləri dövlət sərhədlərindən qovmalı idilər.Xudafərin körpüsündə şanlı Azərbaycan bayrağını dalğalandıran döyüşçülər hucumlarını davam etdirmək,Qumlaq yaşayış məskəninin azad edilməsi üçün gecəni dincəlməyi və oktyabrın 19-u sərhəd boyu və Cəbrayıl rayonunun digər işğalda olan əraziləri boyu total olaraq hucuma keçməyi qərarlaşdırdılar.Oktyabrın 19-u sübhdən Azərbaycanın müzəffər ordusu iki istiqamətdə hucuma başladı.Birinci istiqamətdə komandir Yadullanın döyüşçüləri olan hərbi birləşmə və sərhəd qoşunlarının döyüşçüləri Qumlaq yaşayış məntəqəsinə hucuma keçib Qumlaq kəndini azad etməli,sonra Zəngilan rayonu ərazisinə Məmmədbəyli kəndinə girişi təmin etməli idilər.İkinci bir isti-

qamət isə bir ucu Soltanlıdan tutmuş digər yaşayış məskənlərinin azad edilməsini nəzərdə tuturdu.Sübh tezdən Qumlaq kəndində mövqelərini möhkəmlətməklə məşğul olan erməni harsınlarının mövqelərini Müzəffər ordunun güclü artilleriya,top atəşləri pərən-pərən salmış oldu.Özünü itirmiş düşmənin üstünə yeriyən PDM-lər, tanklar onları çıxılmaz vəziyyətə salmışdı.Müzzəffər ordu havanın işıqlanmasına rəğmən hucumu genişləndirərək erməniləri itgilər verməyə və son anda geri çəkilməyə vadar etdilər.Bütün günü gedən şiddətli döyüşlər nəticəsində ermənilər bir neçə dəfə əks hucuma keçib həmlələr etsələr də,Azərbaycan ordusunun gücü  qarşısında tab gətirməyib Qumlaq yaşayış məntəqəsini tərk etmiş oldular.Qumlağı ələ keçirən əsgərlərin sevincı o qədər yüksək idi ki, hamı Xudayardan bu gözəl vətən haqqında mahnı oxumasını xahiş edirdi. Hər güləndə sifətində nurluluğun bütün əlamətlərini əks etdirən Xudayar əsgərlərin alqışları ilə “Vətən yaxşıdır”mahnısını elə oxuyurdu ki,sanki Azərbaycan muğamının ağsaqqalı Ə.Məmmədov bir neçə illər bundan öncə bəstələdiyi və həvəslə oxuduğu bu təsnifi Xudayar üçün düşünmüşdü.Bəli,Xudayar tək bu təsnifi deyil vətənə, torpağa aid olan bütün mahnıları böyük həvəslə oxumaqla əsgərlərimizin ürəyində özünə yer tapmış və onların vətənpərvərlik hisslərini coşduraraq yeni qələbələrə səsləmişdi.Bu axşamın ən sevindirici halı bir də ondan ibarət idi ki, Cəbrayıl ərazisi boyu hucuma keçən Azərbaycan ordusunun ikinci istiqamətdə hucuma keçən əsgərləri bir gün ərzində Cəbrayıl

rayonunun 12 kəndini düşmən tapdağından azad etmişdilər.Bu istiqamətdə vuruşan döyüşçülər Cəbrayılın digər yaşayış məntəqələrini düşməndən azad etmək üçün ermənilərin bir neçə səddən ibarət olan istehkamlarının qəlizliyinə baxmayaraq itgilər olsa da belə öldü var,döndü yoxdur!- döyüş ruhu yüksəkliyi ilə irəli gedirdilər. Komandir Yadullanın döyüşçüləri müzzəffər ordu tərkibində sərhəd qoşunları ilə birlikdə Qumlaq yaşayış məntəqəsinin azad etdikdən sonra gecəni dinclik saatı etməklə yanaşı,oktyabrın 20-də sübh tezdən Zəngilan rayonu ərazisində olan Məmmədbəyli kəndinin azad edilməsi üçün hazırlıq aparırdılar.Ağır döyüşlərdən sonra vətən torpağını özünə yorğan-döşək edən əsgərlər yorğunluqlarını müəyyən qədər çıxardıqdan sonra adətləri üzrə hələ hava işıqlanmamış müəyyən qədər irəliləyib kənd ətrafındakı təpəliklərdə mövqelərinin möhkəmlətdilər.Havanın bir qədər işıqlanması nəticəsində erməni vandalları tərəfindən həmişəki kimi dağıdılmış evlər görsənirdi.Uzaqdan Məmmədbəyli türbəsini də görmək mümkün idi. Kənd Arazın sol sahilində dağlar və təpələrlə əhatə olunmuşdu.Həkəri çayının sol sahilində kiçik təpəliklər üstündə salınmış kənd,yüksək təpəliklərdən seyr edəndə füsunkar görkəmi ilə diqqəti cəlb edirdi.Əsgərlərdən Əyyub adlı birisi tarix-coğrafiya elminə olan marağına rəğmən bildirdi ki, Məmmədbəyli kəndi çox qədimdir və heç olmasa ən azı 700 illik tarixi vardır.Məmmədbəyli kəndində “Yer piri”, ”Şam piri” və digər ocaqlar vardır ki, əhali bu pir və ocaqlara sitayiş edirdilər.Hətta kəndin

ətrafında olan qayada Dağdağan ağacı belə bitmışdı ki, əhali bu ağaca da sitayiş edirdi.Əsgərlərdən digəri,Ağamirzə dözməyib başladı ki,ay Əyyub qardaş səni canın gop eləmə, heç qayada da ağaç bitər,ağac göyərər?Əsgərlər arasında bərk gülüşmə qopdu.Başqa bir əsgər Ramazan söhbətə yekun vurmaq üçün bildirdi ki, qayada ağac bitər,niyə bitmir ki? Görünür o qayaya rus ayağı dəyməyib.Bizlərdə məsəldir deyərlər ki, rus ayağı dəyən yerdə ot bitməz,nəinki Dağdağan ağacı?!Komandir Yadulla əsgərlərə bildirdi ki,bizim haqq müharibəmizi siyasiləşdirməyin.Bizim vəzifəmiz kimliyindən asılı olmayaraq torpağımızı düşmən tapdağından azad etməkdir.Böyük zabitlərin xəritə baxışına əsasən belə qərara alındı ki, minaaxtaranlar irəli gedərək ermənilərin basdırdıqları minaları zərərsizləşdirib,itgilərsiz qoşunlarımızın irəliləməsinə şərait yaratsınlar.Sədd-istehkamlar isə təpəlikdə yerləşdirilmiş artilleriya və ZRK-ların atəşləri ilə sıradan çıxarılmalıdır.Yalnız bundan sonra ordu kəndə hucuma keçmiş olsun. Bir saata yaxın istehkamçı əsgərlərin minaları təmizləməsindən sonra başlanan artilleriya və raket atəşləri düşməni parakəndə halına salmış oldu.Müzəffər ordumuz Məmmədbəyli kəndinə hucuma keçib əks-hucuma hazırlaşan düşməni təksilah etmiş oldular.Xeyli itgidən sonra sağ qalan erməni fərariləri silahlarını,ağır texnikalarını ataraq sərhəd boyu geri çəkilməyə məcbur oldular.Məmmədbəyli kəndini azad edən Azərbaycan ordusu kəndə yaxın olan digər kəndləri Zərnəli və Havalı kəndlərini düşməndən azad etmək üçün irəliləməli oldu-

lar.Şanlı Azərbaycan ordusunun hucumlarına tab gətirməyən erməni quldurları adını çəkdiyimiz kəndləri də tərk edib Şərifan kəndində mövqelənmək istəsələr də, düşmənə aman vermək istəməyən müzəffər ordu Şərifan kəndində düşməni itgilərə məruz qoyub Həkəri istiqamətində erməniləri təqib edərək axşama yaxın düşməni Həkəri yaşayış məntəqəsindən də uzaqlaşdırmalı oldular.Həkəri yaşayış məntəqəsini erməni quldurlarından azad edən Azərbaycan əsgərləri Həkəri çayında oxxay deyib,əl–üzünü yuyaraq bayram əhvalı keçirdikləri an əsgərlərimizə xəbər verildi ki, ikinci istiqamətdə Zəngilanın içərilərinə doğru hucumlar edən ordumuz Muğanlı kəndini və Zəngilan şəhərini düşmən tapdağından azad etmişlər.Bu sevinci bayrama çevirən əsgərlər papaqlarını göyə ataraq qələbə şərəfini qeyd etdilər.

Erməni faşistlərinin bütün cəbhə boyu məğlubiyyəti və bununla barışmaq istəməmələri Murovdağ istiqamətində də özünü göstərməkdə idi.Hələ müharibənin ilk günlərindən Murovdağda döyüşərək mövqelərini möhkəmlətmiş müzəffər Azərbaycan ordusu erməni silahlılarının məğlub edib geri oturtsalar da, 1-ci Qarabağ müharibəsində Ömər aşırımını qələbə ilə qeyd etdiklərindən,həmin qələbənin şirəsi damaqlarında qaldığından hazırkı məğlubiyyətlə barışmaq istəmirdilər.Otuz il müddətində hər cığırına bələd olduqları Murovdağ yüksəkliklərindən,o cümlədən Ömər aşırımının güclü coğrafi relyefindən strateji məqsəd kimi istifadə edərək tez-tez Azərbaycan ordusuna qarşı əks hucumlar təşkil edirdi-

lər.Müharibənin ilk günündən snayperçi dostlar Arif və Fuad düşmənə qarşı vuruşda əsgərlər içində hörmətə layiq olmuşdular.Murovun qoruyucu relyefindən sipər kimi istifadə edən düşmən müxtəlif pusqular qurmaqla əsgərlərimizin əsəblərini yoxlasalarda özləri pis vəziyyətə düşmüş olurdular.Arif və Fuad düşmənlərdən daha ayıq-sayıq tərpənərək meşə ağaclarından,qayalardan,sıx kolluqlardan istifadə etməklə düşmən döyüşçülərini sərrast atəşlə cəhənnəmə göndərir,onların qan görəndə qorxan canlarına üşütmə salırdılar.Arif və Fuad müxtəlif gizlin mövqelərdən atəş açmaq istəyən düşmən snayperlərin yerlərini müəyyənləşdirib onları zərəsizləşdirməyi ustalıqla bacarıdılar.Beləcə döyüşlərin birində pusqu quran erməni snayperçiləri əsgərlərimizdən birini yaralaya bilmişdi.Əsgər kürəyindən güllə yarası aldığından halsızlaşmışdı.Əsgərin vəziyyəti heç də qənaətbəxş deyildi.Yaralı əsgər susuzluqdan yanğısını Fuada izhar edərək su istəmişdi. Fuad digər əsgərlərə su üçün müraciət etsədə,heç kimdə su tapılmamışdı.Çarəsiz olan Fuad silahının süngüsü ilə ağacı yaralayıb içərisindəki nəmlənmiş kəsiklərdən əsgərin dodaqlarına sürtməyə məcbur olmuşdu.Yaralı əsgərin Fuada minnətdarlıq ifadə edən təbəssümü dodaqlarında donub qalmışdı.Əsgərin şəhidliyinə dözməyən Fuad onu qucağına alıb təhlükəsiz tərəfə çəkərkən,düşmən snayperi onu sinəsindən yaralamış oldu.Düşmən snayperini izləyən Arif onu düz alnından vurub yerə sərdi.Fuada baş barmağını əla kimi göstərib, onun sərrast atəşinə təbəssüm göstərdı.Arif Fuada yaxın-

laşmaq istəyərkən ikinci bir snayper gülləsi ondan yan keçərək yenicə pöhrələnmiş cavan ağacı yaralamış oldu.Cəld olaraq haçalanmış ağac gövdəsində gizlənən Arif,elə haçalanmış ağacın tən ortasından atəş açmaqla erməni nişançısını məhv etdi.Gizlin yolla düşmən nişangahına yaxınlaşan Arif iki erməni snayperçisinin silahlarını götürüb geri qayıtdı.Snayperçi erməni əsgərləri canlı ova çıxsalar da,özləri ovun qurbanları olmuşdular.Arif özünü Fuada çatdırıb əhvalını soruşduqda,o yenə baş barmağı ilə vəziyyətinin yaxşı olduğunu bildirib cibindən bir dəsmal çıxardaraq Arifə verib dedi:-bu dəsmalı məhəbbət yadigarı olaraq mənə sevgilim verib.Dəsmalın bir tərəfində mənim adımın baş hərifi, ortada sevgini bildirən ürək şəkili və onun adının baş hərifi yazılıb.İki sevən gəncin məhəbbət istiliyini özündə saxlayan bu dəsmal yəqin ki,yaralandığından soyuğa məruz qalmış bu körpə ağaca istilik verərək böyüməsinə səbəb olacaqdır.Bax görürsənmi Arif bu cavan pöhrə ağacı günəşdən boy alıb yüksəkliklərə baş vurmaq istəyir.Erməni snayperçisi isə bu cavan ağacı güllə ilə yaralayaraq onun məhvinə səbəb yaradıb.Əgər bir balaca külək olsa bu cavan pöhrə küləyə dözməyib qırılaraq məhv olacaq.Dilsiz-ağızsız olan bu cavan pöhrə ağacın heç bir günahı olmasa da o başqa ağaclar kimi nə böyüyəcək,nə həyat rəmzi olan yaşıl yarpaqlar verəcək,nə də bir neçə illər yaşayıb gövdələnərək qocalığa qədəm qoyub saralmış yarpaqlarını xəzəl kimi yerə tökə biləcək.Axı, torpaqdan boy alıb günəşə boylanmaq istəyən bu körpə ağacın günahı nə idi

ki, erməni snayperi tərəfindən yaralandı?! Özünün yaralı olmasına fikir verməyən Fuadın Arifdən xahiş bu idi ki, bu dəsmalla ağacın hər iki tərəfinə yeni ağaclar qoyub dəsmalla möhkəm bağlasın. Əgər sən cavan pöhrə ağacını bu dəsmalla dediyim kimi bağlasan,qışda bərkiyən bu cavan ağac yazda boy atıb günəşdən rişə alaraq inkişaf edib böyüyəcək.Arif dostunun dəsmalını alıb onun dediyi kimi ağacı mönkəm dəsmalla bağlamış oldu.Sonra Fuada çönüb,-hə de görüm necədir,ürəyincə bağlaya bildimmi?Sifətindən razılıq yağan Fuad yenə də baş brmağını əla formasında göstərərək gözlərini qapamış oldu.Arif birdən dəli kimi Fuad!- deyə qışqırdı.Fuadın qışqırtısı exo kimi əks-səda verərək meşəni lərzəyə gətirdi.Yaralı dostunun səssiz və təbəssümlə gözünü qapamasına dözmədi. Ürəyindən aldığı güllə yarasından sakitcə şəhidliyi qəbul edən Fuad öz ölümü ilə cavan pöhrə ağacının yaşamasına səbəb olmuşdu.Öz ölümünü zirvəlik kimi qəbul edən Fuad yaralanmış körpə ağacın torpaqdan güc alıb göylərə baş qaldırmasına inandığından torpaq uğrunda vuruşub, şəhid kimi ana torpağa gedəcək yola şərəf ətrini saçmışdı.Fuadın ölümü Arif üçün böyük dərdə çevrilmişdi.Arif şəhid olmuş snayperçi dostlarını arıx çiyinlərində daşıyaraq hərbi hissəyə gətirmişdi.Dostunun ölümünü qəbul etməyən Arif uzun müddət xəyallara qapılıb özünü sərgərdan kimi hiss etsə də,düşməndən qisas alacağı dəqiqələri gözləyirdi.

Üç gün bundan öncə Füzuli şəhərinin erməni varvarlarından azad olunması tibb səhra məntəqəsinin rəisi

polkovnik Camalovu nə qədər çox sevindirsə də, şəhərin tamamilə darmadağın edilməsi, hətta şəhər azad edildikdən sonra bir dənə də olsun bayraq sancmaq üçün salamat bina tapılmaması onu məyus etmişdi.Dağılmış iki mərtəbəli binanın sütun hissəsinə bayraq qələbə rəmzi kimi sancılsa da, erməni vəhşilərinin şəhəri yox etməsi onların əsil vandallığından xəbər verirdi.Füzuli şəhəri və digər kəndlər uğrunda gedən hucumlarda əsgərlər minaya düşərək daha çox qəlpə yarası alırdılar.Füzuli torpağının azad edilməsində minalara düşüb ayaqlarının birini , yaxud iki ayağını itirən əsgərlərimiz çoxluq təşkil etdiyindən cərrahlar demək olar ki, nəfəs belə dərmədən öz vəzifələrini şərəflə yerinə yetirirdilər.Tibb səhra məntəqəsi adətən döyüşlər gedən əraziyə yaxın olacaq yerlərdə yerləşdirildiyindən nəinki tibb bacıları, imkan əldə edən bütün tibb işçiləri döyüşə atılaraq yaralıları döyüş meydanından çıxartmaqla bərabər,düşmənlə qeyri bərabər döyüşə də girişirdilər.Tibb səhra məntəqəsinə yenicə qədəm qoymuş feldşer Umudov tibb bacısı Rəbiyyənin döyüş meydanından necə cəsarətlə yaralıları çıxartmasını görərək, bu nərmənazik xanımım qorxu bilmədən və təhlükəsizliyinə nəzər yetirmədən döyüş meydanındakı fədakarlığına heyran qalmışdı.Qızda bu qədər cəsarət, çeviklik Umudovu məətəl qoyurdu.Bir an dayanmadan yaralılara yerindəcə tibbi yardım edən,döyüş meydanından yaralı çıxaran Rəbiyyə dincliyinin qayğısına belə qalmaq istəmirdi.Rəbiyyəyə vurğun olan feldşer onun təhlükəsizliyini nəzarətə götürüb hər dəfə onunla bərabər döyüş

meydanına girir və çalışırdı ki, qeyri adiliyi ilə seçilən Rəbiyyə xəsarər almasın.Təcrübəsiz olan ferdşel döyüş meydanında güllə yarası alarkən,bunu görən Rəbiyyə feldşerin kəmərini belindən açıb onu bir çiyni ilə, digər bir yaralını isə digər çiyni ilə sürünərək döyüş meydanından çıxarmağa müvəffəq olmuşdu.Ferdşel Umudov yaralı olaraq çarpayıdan qalxıb Rəbiyyəni soruşur,döyüş meydanına getdiyini eşidəndə dilxor olurdu.Hər dəfə Rəbiyyənin sağ-salamat olduğunu görəndə Umudovun necə sevinc hissi keçirdiyini bütün tibb işçiləri görürdülər.Rəbiyyənin rəfiqəsi Südabə də bunu hiss etdiyindən onların bu lal-kor məhəbbətinə daxilən rəğbətlə yanaşırdı.Umudovun məhəbbət talismanı olmuş Rəbiyyə də insafən desək Umudova qarşı çox qayğılı olurdu.Südübəyə görə od-alov içərisində yaranmış lal-kar məhəbbət möhkəm əsaslara bağlanırdı. Məhəbbətdə baxışlar,qayğılar özünü büruzə etsə də, Azərbaycan xalqının abır-həya deyilən adət-ənənəsinə hörmətdən yaranırdı.Əslində məhəbbətdə abır-həya,sevənlərin vicdanına hopmuş qanundur. Sevən ürəklər vicdan qanununa əsaslananda,vicdana hopmuş bu qanun çərçivəsindən kənara çıxa bilmirlər.Feldşer Umudovun və tibb bacısı Rəbiyyənin vicdan qanununa əsaslanan lal-kor məhəbbətinə bütün tibb səhra məntəqəsi hörmətlə yanaşırdı. Müzəffər ordumuzun Füzuli ərazisində Kürdlər,Qarğabazarı və Yuxarı Əbdürrəhmanlı yaşayış məntəqələri uğrunda oktyabrın 20-də başladığı hucum əməliyyatı qızğın döyüş meydanına çevrilmişdi.Düşmən Füzuli şəhərini itirdikdən sonra da-

ha quduzlaşmış və hər an əks hucumlar təşkil etsələr də, irəliləyişə nail ola bilməmişdilər.Minalanmış ərazilərdən, qurulmuş sədd istehkamlardan canı bahasına keçən Azərbaycan əsgərləri düşmənin hər həmləsini dəf edərək onları böyük itgilərə məruz qoyurdu.Bu qızşın döyüşlərdə polkovnik Camalovun tibb işçiləri fədakarlıq göstərərək döyüş meydanına daxil olub düşmənlə vuruşmaqla bərabər,yaralılara ilk tibbi yardımı yerindəcə göstərir, ağır yaralıları səhra məntəqəsinə təxliyyə edirdilər.Kürdlər və Qarğabazarı kəndləri ərazisində gedən döyüşlərdə sakitlik tapmayan Rəbiyyə döyüşlərə də atılmalı olurdu.Rəbiyyəyə daha böyük qayğı ilə yanaşan feldşer Umudov bir an da belə onu nəzərdən buraxmirdi.Bax beləcə döyüşlərin qızğın vaxtında Rəbiyyə və Umudov yaralı əsgərləri döyüş meydanından çıxartmaq istərkən, qəflətən alnından güllə yarası alan feldşer Umudov üzü üstə yıxılaraq daha qalxa bimədi.Umudovun üzü üstə yıxılıb dirçəlməməsini bir anlığa görən Rəbiyyə cəld Umudova yaxınlaşıb onu çiyninə almaq istəyərkən,düşmən gülləsi onun ürək nahiyəsini parçalamış oldu.Yaralı əsgərlərdən biri Umudovun silahını götürüb düşmən nişançısını məhv etdi. Döyüşən əsgərlər və tibb işçilərindən kapitan Muradov özlərini tibb bacısı Rəbiyyəyə çatdırsalar da həlak olmuş Umudovun sinəsinə baş qoyan Rəbiyyənin də şəhid olduğunu gördülər.Nakam məhəbbətin faciəli sonluğu bütün tibb işçilərini,hətta yaralı əsgərləri göz yaşına boğmuşdu.Tezliklə Umudov və Rəbiyyənin həlak olmuş nəşləri arxa cəbhəyə təxliyyə edildi.Polkov-

nik Camalovun razılığı ilə kapitan Muradov şəhidliyə yüksəlmiş tibb bacısı Rəbiyyənin dəfn mərasimində iştirak etdi.İkinci fəxri xiyabanda şəhid qardaşı Gülalının yanında dəfn olunan Rəbiyyənin atasına vətən bayrağını təqdim edən kapitan Muradov:-aslanın erkəyi dişisi olmaz!-deyib, qəhrəman qız atası Hüseyin kişiyə,-başınız sağ olsun!-dedi.Al bayrağı qürurla alıb öpən Hüseyin kişi:-Vətən sağ olsun!-deyərək, yaşarmış gözlərini yalın əlləri ilə silmiş oldu.

Oktyabrın 9-da Tərtərin Çaylı kəndinin erməni quldurlarından azad edilməsində böyük qəhrəmanlıqlar göstərmiş topçu komandir Dadaşın döyüşçüləri indi də Briqada komandirinin əmri ilə Cəbrayıl rayonu ərazisində döyüşlərə başlamışdılar.Düşmənlər güclü sədd istehkamları qurmuşdular.İlk döyüşlərini oktyabrın 19-da Hacılı yaşayış istiqamətində aparan Dadaş topçuları düzgün koordinasiyalarla düşmənin istehkamlarını darmadağın etmiş və ordumuzun irəliləməsinə şərait yaratmışdılar.Cəbrayıl şəhəri ətrafında gedən qızğın döyüşlərə qatılan komandir Dadaşın topçuları oktyabrın 20-də Daş Veysəlli və Ağtəpə kəndlərinin azad edilməsi uğrunda döyüşə başlayaraq,kəndləri əldən vermək istəməyən düşmənin başına top atəşləri yağdırıb onları həm canlı, həm də texnika tərəfindən itgilərə məruz qoymuşdular.Topçularla bərabər ZRK-ların düşmən üstünə od yağdırmaları,dronlarla hər an düşmənin zenit raket komplekslərini məhv etmələri ermənilərin əks hucum planlarını nəinki kütləşdirmişdi, eyni zamanda vuruşma qabiliy-

yətini itirdiklərindən fərarilik etmələrinə səbəb olmuşdu.Hucuma keçən əsgərlərimiz düşməni təqib edib kəndlərdən çıxararkən düşmən tanklarının,artilleriya qurğularının,yük maşınlarının yanaraq tüstülənən aqibətini görüb topçulara dəqiq atəşlərə görə minnətdarlıq edirdilər.Xeyli miqdarda ağır texnikalar qənimət olaraq götürülmüşdü.Erməni döyüşçülərinin,əgər onlara döyüşçü demək mümkündürsə,fərariliyi o həddə çatmışdı ki, əlindəki silahı yerə qoyub təslim olurdular. Əsir düşən erməni əsgərlərinin qorxudan saralmış sifətinə baxan əsgərlərimiz onların zorla müharibəyə göndərildiklərini bildiklərindən,düşmən də olsalar onlara humanist münasibət bəsləyirdilər ki,buda Azərbaycan xalqına məxsus olan əsil xislətdən irəli gəlirdi.Əsgərlərimiz vətən,torpaq uğrunda işğalçılarla vuruşduğu halda,bu vandallar özləri də bilmirdilər ki,hansı amal uğrunda vuruşurlar.Məhz bu amalın olmamağı onları əsir düşməyə də sövq edirdi.Ağtəpə kəndinin azad edilməsi zamanı 12-13 yaşlı oğlanın zarıncı ağlayaraq öldürülməməsi üçün etdiyi yalvarışlar daha acınacaqlı idi.Uşaq yaxşı ki, az-çox rus dilini bilirdi.O əsgərlərimizin ona olan humanist rəftarını görüb həqiqəti danışırdı. Erməni uşaq-əsgər Edik danışırdı ki,Ermənistanda heç kim müharibəyə getmək istəmir.Cavanlar Rusiyaya və digər ölkələrə qaçaraq lazımsız müharibədən canlarını qurtarırlar.Pulu olan rüşvət verib Yerevanda özü üçün kef edir.Vuruşanlar ən çox Erməni vilayətlərinin aldadılmışları və Qarabağ erməniləridir.Mən Yerevandan olsam da, məni küçədən tutub gö-

zümü bağlayaraq bura gətiriblər.Mən əlimdə heç silah tuta bilmirəm.Mənə top atəşləri üçün güllə daşımağı tapşırmışdılar.Azərbaycan əsgərlərinin hucumuna tab gətirməyən topçular məni güllə gətirməyə göndərib,özləri isə qaçmışdılar.Mən isə bilmirdim hara qaçım.Odur ki,təslim olmağı lazım bildim.Azərbaycan əsgərləri uşaq-əsgərin aclığını nəzərə alaraq pilə kimi ağ çörək və halal kolbasa ilə onu doyuzdurub arxa çəbhəyə təxliyyə etdilər. Bəli, komandir topçu Dadaşın rəhbərliyi ilə gedən bütün döyüşlər qələbə ilə nəticələnirdi.İndi topçular yeni döyüşlər üçün hazırlıq görürdülər.

Xocavənd istiqamətində gedən döyüşlərdə böyük qələbələr əldə etmiş XTQ döyüşçüləri,o cümlədən İldırım və Həsrət verilən hərbi qərara əsasən Hadrut yaxınlığındakı Çinarlı (Noraşen) və Günəşli (Vəng) kəndlərindən Hadruta edilən əks hucumların qarşısını almaq məqsədi ilə həmən kəndlərin erməni silahlılarından azad edilməsinə hazırlıq görməyə başlamışdılar.Oktyabrın 19-u XTQ döyüşçüləri Hadruta gələrək sonradan adı çəkilən kəndlərin düşməndən azad edilməsinə başladılar.Hadrutdan keçərkən Gülalının şəhid olduğu küçədə maşını saxlatdıran İldırım, şəhidliyə qovuşmuş qardaşı Gülalıya dualar oxumuş oldu.İldırım və Həsrət qarşıdakı döyüşlərdə onun da qisasını düşməndən alacaqlarına andlı oldular. XTQ döyüşçülərinin yüksək zabit heyəti belə qərara gəldilər ki, bir qrup döyüşçü o cümlədən, İldırım və Həsrət meşələrlə hərəkət edərək dolayısı Çinarlı (Vəng) kəndini keçib,Günəşli(Noraşen)kəndində kəşfiyyat aparmalı ola-

caqdılar.Bu kəşfiyyatın uğuru Günəşli kəndinin azad edilməsinə şərait yaradacağı təqdirdə,ikinci qrup XTQ döyüşçülərinin Hadrutdan Çinarlı (Vəng) kəndinə hucumu qətiləşirdi.Hər iki kənddə yurd salmış erməni quldurları XTQ döyüşçüləri tərəfindən sıxışdırılaraq məhv edilməli idi.Dağətəyi ərazidə yerləşən Günəşli(Noraşen)kəndinin şağ hissəsindən gedən yola diqqətlə baxış keçirən XTQ komandiri kapitan Şükürov belə qərara gəldi ki, necə olursa olsun bu yolla hər hansı bir maşın keçməlidir.Odur ki,döyüşçülərdən erməni dilində səlis danışan əsgər Mehdiyev, İldırım və Həsrət olmaqla əlavə iki nəfər əsgər də yola kəşfiyyat üçün getməli oldular. Erməni hərbi geyimini əyninə taxan əsgər Mehdiyev yolda olacaq hər hansı maşını saxlamalı və kəşfiyyatçılar yaranmış şəraitə uyğun qərar qəbul etməli idilər.Yol kənarında mövqe tutmuş XTQ döyüşçüləri bir neçə dəqiqə keçməmiş ağ niva maşınının kəndə doğru hərəkətini görüb cəld fəaliyyətə keçdilər.Yola çıxan əsgər Mehdiyev yol kənarında uzanaraq yaralı olduğunu ermənicə bildirmiş oldu.Erməni sürücü heç bir şübhəyə əsas vermədən Mehdiyevi maşına dəvət etsədə,bir ayağını sürüyən Mehdiyev hərəkət edə bilmədiyini vurğulayıb zarımış olaraq onlardan köməklik istədi.Sürücü və yanında əyləşmiş yüksək çinli zabit Mehdiyevə kömək etmək istərkən İldırım bir anda zabitə gözlənilməz zərbə vurub onu keyləşdirərək meşəyə doğru çəkdi.Sürücünü isə əsgər Mehdiyev və digər XTQ döyüşçüləri zərərsizləşdirib meşəyə çəkmiş oldular.XTQ döyüşçülərindən biri niva maşınını

meşənin dərinliklərinə sürüb ağac yarpaqları ilə görünməz etdi.Mehdiyevin erməni zabitlə danışığından məlum oldu ki, bu yüksək çinli erməni zabiti podpolkovnik Karapetyandır.Hadruta hucum əməliyyatını təşkil etmək üçün Günəşli(Noraşen) və sonradan Çinarlı (Vəng)kəndinə getməli imiş.Erməni zabit körpə uşaqlarının olduğunu və buna görə onu öldürməməyi xahiş etdi.Bildirdi ki,bildiyi bütün hərbi sirrləri sumkasındakı sənədlərlə bərabər onlara verməyə hazırdır.Əsgər Mehdiyev zabitə yaxınlaşıb qeyd etdi ki bi, biz adam öldürənlər deyilik.Adam öldürənlər Xocalı qətliamını törədənlərdir.Biz sadəcə olaraq torpaqlarımızı siz işğalçılardan azad etmək istəyirik.Əgər sənin bizə verəcəyin hərbi sirrlər aldadıcı olmasa vəziyyətini müəyyən qədər yüngülləşdirə bilərsən.Düzgün məlumatlara görə bəraəti komandanlıq verəcək. Kapitan Şükürov Günəşli kəndindəki hərbi qüvvələr haqqında məlumatları almağı lazımlı bildi.Məlum oldu ki, kəndin yüksəkliyində əsasən kənd kişilərindən ibarət olan yerli döyüşçülər qərar tutmuşlar. Meşəlikdən bir az aralıdakı qəbiristanlıqda isə,ermənilərin bir neçə tankı və PDM-i gizlədilmişdir.Əsas qüvvələr isə Çinarlı ilə Günəşli arasındakı süni düzəldilmiş mağara tipli siçan yuvalarında gizlənərək Hadruta hucum əməliyyatının əmrini gözləyənlərdir.Podpolkovnik Karapetyan yeni hucum planı ilə təşrif gətirmişdi.Beləliklə, kapitan Şükürov yuxarıdan aldığı əmrə əsasən oktyabrın 20-si sübhdən Günəşli tərəfdən hucuma başladı. Hadrutda dislokasiya olunan digər XTQ döyüşçüləri isə Çinarlı kəndinə

hucuma keçdilər.Bu hucum gözlənilməz və dəqiq kəşfiyyat məlumatına əsaslandığından ermənilər çaş-baş qalmışdılar.Hər iki istiqamətdən hucuma keçən döyüşçülərimiz erməni quldurlarını pərən-pərən saldılar.Mağarada gizlənib Hadrutu azad etmək eşqi ilə günlərini keçirən erməni silahlıları XTQ döyüşçülərinin qəfil hucumları qarşısında özlərini itirib xeyli itgilər vermiş oldular.Sağ qalanlar silah-sursatlarını,ağır texnikalarını tərgidərək meşələrdəki sığınacaqlarada gizlənməklə canlarını ölümdən qurtarmağa çalışsalar da,əsirlik qismətlərinə yazıldığından özlərini təslim edərək imdad istəməli oldular.Axşama yaxın hər iki kənd ermənilərdən azad edilib müzəffər ordumuzun dislokasiya hissələrinə çevrildilər.İldırım və Həsrət hər iki kəndin azad edilməsində fədakarlıq göstərib Gülalının da yetərincə qisasını aldılar.

Həkəri çayı sahilində Zəngilan şəhərinin azad edilməsini bayram edən komandir Yadullanın əsgərləri müzəffər ordu tərkibində sərhəd qoşunlarının döyüşçüləri ilə bərabər Həkəri kəndini azad etdikdən sonra, oktyabrın 21-də Hacallı kəndi uğrunda erməni quldurlarına qarşı hucuma keçdilər.Hacallı kəndi düzənlik ərazidə yerləşdiyindən düşmənin hər bir texnikası və canlı qüvvəsi peşəkar ordumuz tərəfindən məhv edilirdi.Hacallı kəndində düşmənin əks hucum göstərmə cəhdləri uğursuzluqla nəticələndiyindən düşmən Xurama kəndi istiqamətində geri çəkilirdi.Heç bir döyüşçülük qabiliyyətini ortaya qoya bilməyən ermənilərin miflənmiş “məğlubedilməz ordusu”Xurama kəndini də qoruya bilməyib də-

miryolu boyu qatar sürəti ilə Mincivana doğru geri çəkildilər.İndi vuruşan erməni əsgərlərinin valideyinləri bir vaxtlar Mincivan adı gələndə necə dodaqları uçuqlayırdısa,həmin qorxunu canlarında saxlayan erməni övladları indi də var qüvvələri ilə çalışırdılar ki,Mincivanı əldən verməsinlər.Strateji əhəmiyyət kəsb edən Mincivanın azad edilməsi Kafan və Yerevan arasında hər hansı nəqliyyat əlaqəsinin sonu demək olacaqdı.İkinci bir tərəfdən ermənilər yaxşı başa düşürdülər ki, Mincivan əldən getsə Bartaz və Ermənistanla dövlət sərhədi olan Ağbənd tezliklə azad ediləcəkdir.Ordu tərkibində vuruşan iki nəfər Zəngilanlıdan biri, hələ on iki yaşından köçkün olmuş və Mincivanı yaxşı xatırlayan könüllü əsgər 42 yaşlı İsfəndiyar Mincivan adlı döğma qəsəbəsini görmək eşqi ilə yaşayırdı.Onlar hələ Həkəri kəndini azad edib dinclik taparkən,düşməndən azad etdikləri bütün kəndlərin erməni vandalları tərəfindən necə darmadağın etdiklərini görürdülər.Döyüşən əsgərlərin çoxundan yaşca böyük olan İsfəndiyar əsgərlərə Mincivanın mərdanə keçmişini danışaraq bildirirdi ki, ermənilər cürət edib Mincivanı tarmar edə bilməzlər.Mən inana bilmərəm ki,Mincivanın memarlığı ilə seçilən vağzalı, vağzal qarşısındakı dekorativ yolkaların düzəni bu vandallar tərəfindən dağıdılsın.Əsgərlər Mincivanlı İsfəndiyarın ümidlərinin çin olacağına inam bəsləyirdilər.İkinci bir Zəngilanlı əsgər isə,təbiətin öz gözəlliyini əsirgəmədiyi Sobu kəndinin şamlı balası İsrafil idi.İsrafil kəndlərinin bulaqlarından,Sobu qalasından,alagöz Ceyranın gözündən su içdiyi

Vənnı bulaqdan nağıl kimi danışaraq əsgərləri məst etmişdı.Sonra kəndçisinin kəndlərinə həsr etdiyi şeirdən bir parçasını oxumaqla əsgərlərin ruhunu təzələmişdi:

***Qar örpəkli şiş qayalar,***
***Yallı gedən gəlin,baylar,***
***Mənzərəli,sirli yaylar,***
***Çıxmır yadımdan,ay baba?***

Əsgərlər döyüşkən ruh yüksəkliyi ilə Mincivan istiqamətində irəliləyirdilər. Oxçu çayının Araz çayına töküldüyü yerdə mövqe tutan əsgərlər Mincivana hucum üçün əmr gözləyirdilər.Araz çayının sol sahilindəki düzənliklə bərabər dağların ətəyində yerləşən Mincivan düşməndən azad olunacaq saatlarını gözləyirdi.Əsgərlər Oxçu çayının kənarındakı kolluqlardan qalxıb hucuma keçmək eşqi ilə yaşayırdılar.Hələ hucum əmri verilmədiyindən İsfəndiyar azad edəcəkləri Mincivanı haqqında söhbətə başlamaqla əsgərlərdə Mincivan təəssüratlarını genişləndirmək istəyirdi.Uşaq vaxtı biz Mincivanlı böyüklərlə bərabər yay vaxtlarında mövqe tutduğumuz Oxçu çaya çimməyə gələr və isti yay günlərində sərinlənərdik.Yeri gəlmişkən bir dəfə elə isti yay günlərinin birində Oxçu çaya çimməyə gəlmişdik.Çimmək eşqi ilə çırpınan Oqtay dözümsüzlük göstərib özünü ilk olaraq çaya atdı.Ha gözlədik ki,Oqtay sudan baş qaldırar,ancaq Oqtay görsənmirdi.Bir az keçməmiş  sarı palçığa bülənmiş Oqtay təngənəfəs çaydan baş qaldırdı.Demə Oqtay başı üstə

çaya atılanda başı lil palçığa batmış və bir təhər boğulmaqdan canını qurtarmışdı.Çay həməşə sapsarı lil olardı.Susuyanda maykamızdan süzgəc kimi istifadə edib lilli sudan içərdik.İndi çay elə şəffafdır ki,adam gözünə inana bilmir.İsfəndiyarın reallıqdan doğan nağılı sona çatmamış qəflətən ilan fısıltısı əsgərləri qorxutmuş oldu.Kolluğun gövdəsində qıvrılaraq başını qaldıran ilan, sanki müdafiə olunmaq üçün hucuma hazırlaşırdı.Sobulu balası İsrafil tez başındakı yun papağını yumrulayıb ilana yaxınlaşdı.Bir əlində tutduğu papağa hucum edən ilanın digər əli ilə boğaz hissəsindən yapışan İsrafil onu çəkib kolluqdan çıxardaraq papağı kənara qoyub metr yarım olan ilanın quyruğuna yaxın olan hissəsindən yapışmış oldu.Hucuma hazırlıq sakitlik vəziyyətini tələb etdiyindən İsrafil ilanın baş hissəsini daşla yaxşıca əzişdirib əlindəki süngü ilə qumlu yumşaq torpaqda dərin yer qazaraq ilanı basdırmış oldu.Mincivanlı İsfəndiyar Sobulu balasına zarafatla bildirdi ki, elli lənət qazanma.Eşitməmisən məgər,babalar ilanı dərin basdırmaq üçün necə məsəl buyurublar:-İlanı görənə,görüb öldürmüyənə, öldürüb yeddi metr dərinlikdə basdırmayana lənət!Elə bu hey Mincivanın azad edilməsi hucumu verildi.Oxçu çayını nərilti ilə keçən tanklar,PDM-lər və ardınca əsgərlər hucum əməliyyatına başladılar.Mincivan uğrunda şiddətli döyüşlər aparan müzəffər ordumuzun əsgərləri, komandir Yadullanın döyüşçüləri strateji əhəmiyyət kəsb edən Sovet dövrünün məşhur Mincivan stansiyasının hər evi uğrunda qızğın döyüşlər aparırdılar. Mincivanlı İs-

fəndiyar ata evini görmək üçün çox darıxırdı.Düşmənlər nə qədər möhkəm mövqe tutsalar da,Azərbaycan ordusunun hucumları qarşısında aciz olub geri çəkilməli olurdular.Tanklar,PDM-lər İsfəndiyarın dediyinə görə həm Mincivanı iki yerə bölən K.Marks adlı əsas küçə ilə həmdə ki,C.Cabbarlı küçəsində əsas qüvvələrini toplamış ermənilərlə qeyri bərabər döyüş apararaq irəliləyirdilər. Axşama yaxın demək olar ki, Mincivan erməni qaniçənlərindən azad edilmiş oldu.İsfəndiyar vaxtilə göz açdığı, yaşadığı iki üçmərtəbəlini görməyib dəhşətə gəldi.Bu ola bilməz! Bu alçaqlar binaları tamamən yox ediblər ki?!İsfəndiyar hələ Mincivanın girəcəyində böyük Xəstəxananın,onun yanındakı yaşayış binalarının olmamasını görəndə şaşırmışdı.İndi isə,bir vaxt göz açıb həyatində uşaqlarla xoş günlər keçirdiyi üç mərtəbələrin, iki mərtəbəli "parax" adı ilə tanınan binanın yoxluğunu görüb sarsılmışdı.İmkan tapıb vağzala doğru addımladı.Dəhşət! Mincivan stansiyasına yaraşıq verən,memarlığı ilə seçilən vağzal binasından iki-üç sütun qalmışdı.Dekorativ yolkalar məhv edilmiş, dəmir yolları tamamilə sökülüb aparılmış, vağzal indiki görünüşünə rəğmən xarabazara çevrilmişdi.İsfəndiyar az qala boğulurdu. O vaxt uşaq olanda, stansiyaya düşüb özünü biədəb aparmaq istəyən erməniləri Mincivan cavanları əzişdirəndə sanki bilirmişlər ki, bu millət yer üzünün ən vandalı,varvarlarıdır.Eh,ay alçaq millət! Biz bu gün qürurlu Mincivanımızı sizdən azad etdik! Bir neçə illərdən sonra siz yenidən qurulan, abadlaşan Mincivanımızı görəcəksiniz.Ancaq, biz sizlərin

insanlığa yaraşmayan varvarlığını heç vaxt unutmayacaq və gələcəkdə sizlərə yerinizi göstərəciyik.İsfəndiyar doğma Mincivanına bədahətən bir  bəndlik şeir deməyi də unutmadı:

***Qoynunda mən göz açmışam,***
***Böyümüşəm, Mincivanım.***
***Üç on illik adınla mən,***
***Səsləşmişəm, Mincivanım.***

Komandir Yadullanın əsgəri Xudayar İsfəndiyarın bədahətən dediyi şeiri muğam üstündə elə oxudu ki, İsfəndiyarın sevincdən doğan göz yaşlarına məlhəm olan"Vətən yaxşıdır"təsnifi ilə sonluqladı. Sərhəd qoşunları Mincivanın keçmiş "zastavasının" ermənilər tərəfindən istifadə edildiyini və macal tapıb dağıda bilmədikləri hərbi hissəsini bərpa edib Mincivanın sərhəd keşiyində dayanmış oldular.Həmən gün müzəffər ordumuzun digər hərbi birləşmələri Zəngilan-Mincivan yolu boyu yolun sağ-sol hissəsində yerləşən bütün kəndləri düşməndən təmizləyib Bəsit çayı sahilində, dağətəyi ərazidə yerləşən Baharlı kəndini də düşmənlərdən azad etmiş oldular. Mincivan azad edildikdən sonra ordu birləşmələrimiz,o cümlədən komandir Yadullanın döyüşçüləri və Sərhəd qoşunları Sərhəd boyu hucumu davam etdirərək Bəsit çayının Araza töküldüyü və Naxçıvan istiqamətindəki dəmiryol xətləri sökülmüş körpüyə nəzarəti ələ keçirdilər. Bir az aralıda Azərbaycan bayrağının dalğalandığı Baharlı kəndi

diqqəti cəlb edirdi.Digər ordu birləşmələrimiz Baharlı kəndini düşməndən azad etdikdən sonra Dəlləkli,Qaradərə,Çöpədərə kəndləri istiqamətində hucumlarını davam etdirirdilər.Komandir Yadullanın tərkibində vuruşduğu müzəffər Azərbaycan əsgərləri dağların ətəyində yerləşən Bartaz kəndini düşmənlərdən azad etmək üçün genişmiqyaslı hucumlarını davam etdirirdilər.Bütün gecəni düşmənlə vuruşan əsgərlər tankların və PDM-lərin,ZRK-ların düşmənə endirdiyi zərbələrə rəğmən geri çəkilən düşmənləri təqib edirdilər.Artıq döyüşlərdə məğlubiyyətlərini anlayan erməni əsgərləri silahlarını ataraq dövlət sərhədləri boyu geri çəkilməkdə idilər.Düşmənin müasir tankları məhv edildiyindən, yaxud qənimət olaraq ordumuzun əlinə keçdiyindən köhnə T-55 tanklarının ümidinə qalmışdılar.Bu tanklarla erməni əsgərləri tək-tük atəşlər açmaqla məhv olmağa məhkum olunmuş varlıqlarını nümayiş etdirsələr də, komandir Yadulla deməli, onların bu canfəşanlığı toydan sonra nağara çalmağa bənzəyirdi.Düşməni təqib edən ordumuzun əsgərləri Bartaz kəndi uğrunda qızğın döyüşlər aparıb günortaya yaxın kəndi tamamən düşməndən azad etdilər.Dağların qoynunda yerləşən Bartaz kəndi öz yerləşmə relyefi və füsunkarlığı ilə Xudayarı muğam oxumağa vadar etmişdi.Xudayarın ecazkar və qəlbləri oxşayan mahnıları əsgərləri nəinki ruhlandırırdı, eyni zamanda zəfərin bizimlə olacağına tam əminlik yaradırdı.Xudayar musiqisiz, ancaq musiqi ahəngi verən səsi ilə muğam və mahnılarına sonluq vermək istəyəndə, əsgərlər bir daha oxumasını

tələb edərək deyirdilər ki, allahımız bu gözəl təbiəti və bu təbiətə şaqraqlıq verən muğam-mahnıları sanki bizim millət üçün yaratmışdır.Erməni varvarları təbiətimizə göz dikərək bu təbiətin bizə məxsusluğunu bildiklərindən vəhşilik edərək təbiətlə də müharibə ediblər.Eyni ilə də əsrlər boyu muğam və mahnılarımızı oğurlayıb özününküləşdiriblər.Müharibədən əvvəl restoranların birində aşbaz işləyərək zəfaranlı plovumuzun, yarpaq dolmamızın ətrini restoranlarda hiss etdirən, indi isə doğma torpağının azadlığı uğrunda mücadiləyə qalxan əsgər Murad döyüşçü yoldaşlarına ərz edirdi ki, bu ermənilər ki var ha, bilirsiniz necə qısqanclıq hissi ilə yanan paxıl millətdirlər.Nəinki təbiətimizi,musiqimizi,üstəlik utanmaz olaraq mətbəximizi də oğurlamaqla məşğuldurlar.Rusiyaya qonaq getmişdim.Gözümə inanmadım.Ermənilər reklam dirəyi vurublar.Lavaşı,təndir çörəyini özlərinin milli mətbəxi kimi təqdim edirdilər.Deyən gərəkdir ay erməni köpəkoğlu, sən nə bilirsən lavaş nə deməkdir?Sənin erməni baban nə vaxtdan bəri Azərbaycan mətbəx nümunəsi olan təndiri, "tandır" kimi adlandırır.Digər əsgər isə,Muradın həqiqət deyən sözlərinə qüvvət olaraq dedi:-Düz deyirsən qardaş, bu əclaflar o yekəlikdəki müsiqi beşiyimiz olan Şuşanı, Şuşi etməyiblərmi?Digər bir əsgər isə,az qalıb füsunkar Şuşamız murdar düşməndən azad edildikdən sonra, "Şuşini" ermənilərin gözünə dağ edib Şuşa edəcəyik.Bütün əsgərlər ayağa qalxıb inşallah,amin!-deməklə əsgərin haqqdan doğan uzaqgörənliyini alqışladılar. Komandir Yadulla əsgərlərə

bildirirdi ki, İranla olan dövlət və Ermənistanla olan Sovet dönəmindəki sərhədləriimizə az qalıb.Biz Ağbənd qəsəbəsini də ermənilərdən təmizlədikdən sonra İranla olan dövlət sərhədimiz tamamilə dövlətimizin ixtiyarında olacaqdır.Ara-sıra silahlarını işə salan erməni quldurları sonuncu işğal məskəni olan Ağbəndi əldən verməmək üçün, Ermənistan ərazisindən də müntəzəm olaraq ağır silahlarla təhciz olunurdular.Əks həmlələr göstərmək istəyən ermənilərin ordumuzun qalibiyyətli hucumu qarşısında Ağbənd qəsəbəsinə doğru geri çəkilmələri hiss olunurdu.Xeyli itgilərə məruz qalan düşmən Ağbənd qəsəbəsini əldən vermək istəmirdi.Ağbənd dağının ağ suxurları Araz boyunca dağ ətəyində yerləşdiyindən qəsəbəyə xüsusi bir gözəllik verirdi.Bu gözəlliyin aludəçisi olan Xudayar vətənin hər diyarının füsunkarlığından vəcdə gəlib ecazkar səsini işə salırdı.Yenə“Vətən yaxşıdır”təsnifini oxuyaraq belə bir gözəl diyarın düşməndən azad ediləcəyini əsgərlərimizə musiqisi ilə çatdırırdı.Komandir Yadulla bu şən və gülərüz oğlanın vətən vurğunu olmasından fəxarətlənirdi.Xudayar hər dəfə oxuduqca əsgərlərdə elə döyüş əhvalı yaradırdı ki, sanki Koroğlunun dəli Eyvazı “Hoydu dəlilərim”!-deyərək qəhrəman döyüşçüləri düşmənə qarşı qələbə yürüşünə çağırırdı.Komandir Yadullaya görə Xudayar şən və gülərüz olmaqla bərabər,allahımızın ona bəxş etdiyi nurluluqdan da əskik deyildi.Xudayar vətən uğrunda döyüşən cəsarətli bir əsgər olduğu kimi, vuruş vaxtı mahnıları ilə döyüşçüləri qələbəyə ruhlandırdığı kimi,romantik həyat eşqi ilə yaşa-

yan bir gənc idi. Döyüş zamanı oxuduğu mahnıları ilə romantikləşən Xudayara komandir ayıq-sayıq olmağı təvəqqe edirdi.Xudayar isə allahın ona bəxş etdiyi bu qeyri-adi romantik xarakterdən uzaq düşə bilmədiyini dilə gətirirdi. Erməni silahlıları isə öz düşmən xislətlərindən əl çəkməyərək Ağbəndi əldən verməmək üçün əks-hucumlar yaratmaqda davam edirdilər.Ağbəndi düşməndən azad etmək üçün yeganə yol Ağbənd dağının yüksəkliyini ələ keçirib erməniləri Ermənistan sərhədinə doğru sıxışdırmaq idi.Nəhayət ki, yüksəklik uğrunda gedən qızğın döyüşlər nəticəsində yüksəkliyə hakim olan əsgərlərimiz,düşmən qüvvələrini kənddən çıxartmaq ərəfəsində idilər.Bu zaman bütün əsgərlərin məyusluğuna Xudayarın düşmən gülləsinə tuş gəlməsi oldu.Dayanmadan,mahnı oxuyaraq düşməni güllələbaran edən Xudayar xaincəsinə vurulmuşdu.Komandir Yadulla Xudayara yaxınlaşıb onu qucaqlayarkən,artıq Xudayar əbədiyyətə qovuşaraq şəhidlik zirvəsinə yüksəlmişdi.Onun çöhrəsində qalan təbəssüm isə şəhidliyin ölməməzliyi demək idi.Xudayarın dodaqlarından mahnı səsləri gəlməsə də,çöhrəsində qalan təbəssüm əsgərləri düşmənə qarşı döyüşə çağırırdı. Yaralananlar və şəhid olanlar az deyildi.Komandir Yadulla  Xudayar itgisi ilə barışmayıb tapançasını ələ alaraq əsgərləri ardınca döyüşə aparmaq istərkən,düşmən gülləsi onun torpaq,vətən uğrunda  döyüşən qəlbini parçalamış oldu.Əsgərlər komandiri yıxılmağa qoymayıb,onu qucaqlarında Xudayarın böyrünə uzatmış oldular.Komandir Yadulla ayağa durmaq,hu-

cum əmrini vermək istəsə də bacarmadı.O yalnız əli ilə düşmən istiqamətini göstərərək döyüşməyi tələb edirdi.Artıq,Ağbənd qəsəbəsi müzəffər ordumuz tərəfindən azğın düşmənlərdən azad edilmişdi.Komandir aramla gözünü açıb baxışları ilə nə isə soruşmaq istəyirdi ki, əsgərlərdən Murad var gücü ilə qışqırdı:-Ağbənd bizdədir!Bu qışqırıqdan təbəssümlənən komandir Yadulla gözünü yumub əbədiyyətə qovuşmaqla şəhidliyi qəbul etmiş oldu.Oktyabr ayının 22-si idi.Hava qaralmağa doğru getsə də Araz çayına doğru dağ ətəyini bürümüş ağ suxurlar bütün Ağbəndi elə işıqlandırmışdı ki,talan edilmiş Ağbəndin dağıdılmış damsız evləri aydınca görsənirdi.Komandir Yadullanın,ecazkar səsi ilə əsgər qəlblərini düşmənə qarşı ruhlandıran Xudayarın və digər şəhid olmuş,yaralanmış əsgərlərin arxa cəbhəyə təxliyyəsi yerinə yetirilmişdi.Müharibə başlanandan onlara komandirlik edən Yadullanın, mahnıları ilə onlara ruh verən Xudayarın və digər şəhidlərin xatirəsini yad edən əsgərlər silahları ilə yaylım atəşi açmış oldular.

Komandir oğlunun şəhidlik zirvəsini qəbul edən və vətən bayrağını öpərək bağrına basan qazi Hüseyin kişi adəti olaraq dəfn mərasimində yığılmış əsgərlər qarşısında bircə onu deyə bildi:-Vətən sağ olsun!

Oktyabrın 21-də komandir Dadaşın topçular alayı dəqiq atəşləri ilə Cəbrayılın Tulus və Hacılı kəndlərinin azad edilməsində göstərdikləri qəhrəmanlıq ona gətirib çıxardı ki, həmin gün istehkamları dağıdılmış erməni silahlılarının geri çəkilməsi nəticəsində ordumuzun hucu-

mu daha qətiyyətli olmuş və adı çəkilən kəndlər düşmən tapdağından azad edilmişdi.Komandir Dadaşın topçu alayının bu müvəffəqiyyəti onların kombriqada tərəfindən digər bir istiqamətdə döyüşməsinə səbəb yaratmışdı. İndi topçular Cəbrayılın Dağ Tumas istiqamətində mövqe tutub düşmən qüvvələrinin fəallıq etdiyi hissələrə zərbələr endirmə əmrini almışdı.Adından da göründüyü kimi dağ yamacında yerləşən Dağ Tumas kəndinin dağlıq hissəsində mövqelənmiş ermənilər kəndi əldən verməmək üçün böyük və keçilməz səddlərdən ibarət istehkamlar qurmuşdular.Kəşfiyyatçıların əldə etdiyi "dil" yəni kəl boyda olan erməni əsir düzgün koordinasiya vermişdi.Hadisə belə olmuşdu.Kəşfiyyata gedən XTQ əsgərləri ermənilərin tutduğu mövqeyə yaxınlaşarkən mövqelənmiş erməni dəstəsindən kənarda artilleriya qurğusunu döyüş hazırlığına gətirən erməni kəlinin başına torba keçirib ağzını bağlamaqla gəldikləri gizlin yolla geri qayıtmışdılar.Yol boyu erməni əsgəri əl-qol atıb tabeçilik etmək istəmədikdə idmançı XTQ əsgəri yekəpəri qüvvətli qolları ilə qaldırıb yerə elə çırpmışdı ki,erməni uzun müddət müvazinətini itirərək ayağa belə qalxa bilməmişdi.Sonradan özünə gələn erməni əsir yalvararaq deyirdi ki,bildiyi nə sirrlər varsa söyləməyə hazırdır.Erməni əsir yerləşdikləri mövqelərin koordinasiyalarını və silahlarının qədərini,hansı silahların növündən olduğunu dedikdən sonra öldürülməməsini yalvararaq xahiş etdi.Erməni əsirinin vücudu ilə yalvarışları arasında olan təzad onu yerə çırpan İdmançı XTQ döyüşçüsünü elə özündən çı-

xardı ki, dözməyib dedi:-ayə, alçaq! Öküz boydasan elə yalvarırsan ki, gövdənə yaraşmayan tülkü səsi çıxarırsan.Düşmən olanda nə olar? Heç olmasa zəbt edib illərlə özününküləşdirdiyiniz torpaqda özünüzü kişi kimi aparın! Biz də bilək ki, sizin atalarınız bu torpaqları kişi kimi zəbt ediblər.Yoxsa arvad donuna girib tülkü kimi hiyləgərlik edərək arxayınlaşdığınız havadarlarınızın fitvası ilə sizə aid olmayan torpaqları işğal etmisiniz.Bilmirdiniz bu torpağın sahibləri bir gün peyda olub sizdən haqq-hesab soracaq?!İndi de görüm,Qarabağ kimindir?Bayaqdan dil çıxarmayan kəl erməni əsiri bizim ana dilimizin qolqıçasını sındıraraq dedi:-ara, mani cani Karabaq Azirbiyjandır!Ara man sakit bir dığa, zapravşik işlayırdım.Mani bura gondaran armani boyuklarına lanat olsun. Man bilmaram niya sizin Karabaqı tutub bizı başı balalı ediblar.Yaxşı dur ayağa erməni köpəyi!-deyə XTQ döyüşçüsü dilləndi.Əsir düşüb ölməmək üçün yalvarışlar etmək, millətinə lənət demək siz ermənilərin çoxdankı milli xislətidir.Erməni əsirin dəqiqliklə verdiyi koordinasiyalar nəticəsində topçular alayı komandir Dadaşın rəhbərliyi ilə atəşlər açıb düşmən istehkamlarını,onların mövqeləndiyi əraziləri darmadağın etdilər.Pərən-pərən düşmüş erməni silahlılarını piyada quru qoşunlarımız ağır texnikaların köməyi ilə qovub kənddən çıxarmış oldular.Artıq axşama yaxın kənd düşmənlərdən tamam azad edilmişdi.Kəndin ətrafında yanan ağır texnikalar ondan xəbər verirdi ki, erməni əsirin koordinasiyaları düzgündür və bu dəqiqlik Dadaşın topçu alayının fədakarlığının nəticə-

sidir.Erməni tör-töküntüləri Dağ Tumas kəndini saxlaya bilməyib geri çəkilərək Dağ Maşanlı kəndi istiqamətində yerləşərək əks hucuma keçməyi düşünürdülər.Komandir Dadaşın topçu alayı erməni əsirin verdiyi koordinasiya dannılarını nəzərdə tutaraq gecəni dincliklə keçirib sübh tezdən dağlıq hissədə yerləşən dağ Maşanlı kəndinin erməni mövqelərini atəşə tutmaq planını nəzərdən keçirdilər.Oktyabrın 24-də hava şəraitinin dəyişilməsi dumanlı, çiskinli olması nəticəsi olaraq hər iki tərəfdə sakitliyin hökm sürməsinə səbəb oldu.Səhəri günü Dadaşın topçuları dəqiq atəşlə düşmən mövqelərinin sakitliyini pozmuş oldular.Gözləmədikləri halda mövqeləri darmadağın olmuş erməni silahlılarının qışqırıqları çox yaxından eşidilirdi.Pərən-pərən düşən ermənilərin ağır texnikaları yanaraq ətrafa işıq saçırdı və ermənilərin hay-küylü siluetlərini görməmək mümkün deyildi.Düşmənin parakəndliliyindən istifadə edən Azərbaycan əsgərləri Dağ Maşanlı kəndinə hucum edib kəndi düşmənlərdən azad etdilər.Düşmənin xeyli canlı qüvvəsi məhv edilmiş və bir neçə erməni dığası da əsir götürülmüşdü ki,onlar da Dağ Tumasda əsir düşmüş kəl ermənidən heç nə ilə fərqlənməyərək sağ qalmaları üçün yalvarışlar etməkdə idilər.Dadaşın topçu alayı Sofulu kəndi uğrunda hucuma hazırlaşsalar da rəhbərlikdən gələn əmrə əsasən,Dadaşın topçular alayı digər istiqamətdə döyüşə hazırlaşmalı və Çullu, Qazanzəmi ətrafında mövqe tutmalı idilər.

Müharibə başlanandan müxtəlif ərazilərdə düşmənlə fədakarcasına vuruşan komandir Allahverdinin

döyüşçüləri Füzuli rayonunun bir çox yaşayış məntəqələrinin azad edilməsində böyük nailiyyətlərə nail olduğundan,kombriqadanın əmri ilə komandir Allahverdinin tabe olduğu hərbi birləşmələr və Müdafiə nazirliyinin XTQ döyüşçüləri Zəngilan-Cəbrayıl rayonları sərhədləri yaxınlığındakı Qubadlı rayonunun yaşayış mənrtəqələri olan Zilanlı,Kürd Mahrızlı istiqamətində, ikinci bir istiqamətdə isə digər hərbi birləşmələr Muğanlı,Alaqurşaq yaşayış məntəqələri olmaqla oktyabrın 23-də hucum əməliyyatına başladılar.Qubadlı rayonunun Zilanlı kəndi Həkəri və Bərgüşad çaylarının düz qovuşduğu sahədə Həkəri çayının  sol sahilində dağətəyi düzənlikdə yerləşdiyindən füsunkar təbiət mənzərəsi ilə diqqəti cəlb edirdi.Düzdür alçaq düşmən çay sahillərindəki çinar ağaclarını məhv etsə də,Zilanlı kəndi öz təbiət gözəlliyini sahibləri üçün qoruyub saxlaya bilmişdi. Artıq bir neçə strateji əhəmiyyətli yaşayış məntəqələrini müzəffər ordunun qətiyyətli hucumları qarşısında tərk edən erməni varvarları Qubadlı rayonunu əldən vermək istəmirdi.Ermənistan tərəfindən xaricdən gətirilmiş erməni quldur ailələri məskunlaşaraq ömürlük yaşamaq arzusunda idilər.Gəlmələr üçün tövləyə bənzər evlər tikilmiş,onlara kənd təsərrüfatı ilə məşğul olmaq üçün təsərrüfat texnikaları da verilmişdi.Erməni ağılsızları dərk edə bilmirdilər ki,nə vaxtsa bu torpaqların sahibləri qanı bahasına olsa belə öz tarixi torpaqlarını azad edəcəklər.Bəli,indi elə bir vaxt gəlib çatmışdı ki,ermənilərin xülyaları puç olmaqda idi.Komandir Allahverdinin döyüşçüləri və bütün hərbi birləşmələr er-

məni silahlılarını sıxışdıraraq onların bir neçə tank və PDM-lərini məhv edib əks hucumlarının qarşısını alaraq ildırım sürətli hucumla dığaları geri oturtmuş oldular.Azərbaycan ordusunun hərbi birləşmələrinin hucumlarına tab gətirməyən ermənilər Kürd Mahrızlı kəndinə doğru geriləyib yeni mövqe tutdular.Dağətəyi ərazidə yerləşən Kürd Mahrızlı kəndini zenit raket kompleksləri ilə dəqiq atəşə tutan döyüşçülərimiz düşmənin hucum planlarını pozaraq kəndə doğru irəliləmiş oldular.Xeyli canlı itgi verən düşmən hərbi birləşmələri kortəbii halda vuruşmağa cəhd göstərsələr də döyüşçülərimiz onların dirçəliş etməsinə imkan verməyib iki tərəfdən kəndi mühasirəyə almaqla xeyli düşmən əsgərlərini əsir götürdülər.Axşama yaxın Kürd Mahrızlı kəndi əsgərlərimizin ixtiyarına keçmiş oldu.İkinci istiqamətdə erməni işğalçılarına qarşı vuruşan hərbi birləşmələrimiz Muğanlı,Alaqurşaq kəndlərini də erməni quldurlarından təmizləmiş oldular.Erməni varvarları otuz il müddət ərzində torpaq sahiblərinin hazır qoyub getdiyi evləri talan etmiş,özlərinin xudmani yaşayışlarını qurmağa çalışmışlar.Ancaq, atalar yaxşı deyiblər:-sən saydığını say,gör fələk nə sayır.Bəli,fələk də varvar ermənilər üçün fələk dağını sinələrinə çəkmiş oldu.Qubadlı rayonu ərazilərini düşməndən tezliklə azad etmək üçün komandanlıq əlavə qüvvələr cəlb etməklə bir neçə istiqamətdə hucum planlarını hazırladı.Bir istiqamətdə Əfəndilər,Yusifbəyli səmtində,ikinci istiqamətdə Xanlıq,Çaytumas səmtində, üçüncü istiqamətdə isə Mollabürhan kəndi və Qubadlı

şəhəri səmtində hucumlar nəzərdə tutulurdu. Bütün istiqamətlərdə azad ediləcək kəndlər Həkəri çayının sahillərində yerləşsələr də, Xanlıq kəndi dağətəyi ərazidə yerləşdiyindən və kənddə erməni miqrantlar məskunlaşdığından kəndin dağ hissəsində güclü mövqe tutan ermənilər kəndə olan giriş yollarını ağır silahlarla nişangahda saxlayırdılar.Odur ki,ilk olaraq Xanlıq kəndinin düşməndən təmizlənməsi Həkəri çayı boyunca yerləşən digər kəndlərin azad edilməsinə tam şərait yaradırdı. Eyni zamanda kəşfiyyat əməliyyatı aparmadan Xanlıq kəndinin azad edilməsi xeyli itgilərlə nəticələnə bilərdi. Birləşmiş ordu rəhbərliyinin qərarı ilə xüsusi kəşfiyyat peşəkarlığı ilə seçilən daxili qoşunların və müdafiə nazirliyinin XTQ döyüşçülərindən ibarət kəşfiyyatçılar hərəkətə keçmiş oldular.Havanın qaralmasını gözləyən kəşfiyyatçılar nəhayət ki,Xanlıq kəndinin dağ yüksəkliyinə doğru yola düşdülər.İyirmi nəfərdən ibarət olan XTQ kəşfiyyatçıları daşlı-kəsəkli yollarla on-on bölünərək yüksəkliyə iki tərəfdən yanaşmağı məğbul hesab etdilər.Daxili qoşunların kəşfiyyat qrupuna kapitan Mətinov,Müdafiə nazirliyinin kəşfiyyatçı onluğuna isə baş leytenant Məmmədov rəhbərlik edirdilər.Kapitan Mətinovun kəşfiyyatçıları kəndin sağ hissəsindəki təpəlikdə mövqe tutmaq istərkən, mövqelənmiş erməni hissələrindən kəşfiyyatçılara doğru hərəkət edən "villis UAZ" markalı maşın diqqəti cəlb etmiş oldu.Erməni dilində səlis danışmağı bacaran əsgər-kəşfiyyatçı Yunus ehtiyat üçün götürdüyü erməni hərbi formasını əyninə geyib təpəlikdəki daşlar arxasında gizlənə-

gizlənə UAZ maşınına doğru hərəkətə keçdi.Digər üç idmançı kəşfiyyatçı Yunusu hər hansı gözəgörünməz qüvvədən qorumaq üçün, onu izləmiş oldular.Heç bir silahı olmayan Yunus maşının qabağına çıxaraq hərbi hissəsindən azaraq uzaqlaşdığını bildirib kömək göstərilməsini xahiş etdi.Maşında olan sürücü əsgərdən başqa yüksək çinli zabit Yunusu özlərinki bildiyindən onu yaxınlaşarkən,əks istiqamətdən gələn kəşfiyyatçı üçlük artıq sürücünü və zabiti tərksilah etmişdilər.Erməni paltarında olan Yunus tez maşının sükanına yiyələnib təpəliyin əks görünməz hissəsində digər kəşfiyyatçıların yaxınlığında maşını əyləmiş oldu. Mayor çinli erməni zabiti Azərbaycanlı kəşfiyyatçılar tərəfindən əsir götürüldüyünü başa düşüb özünü təmkinli aparmağa başladı.Məlum oldu ki,mayor Poqosyan Xanlıq istiqamətində dağ hissədə möhkəmlənmiş və Xanlıqa olan girişləri nişangahda saxlayan erməni hərbi birləşməsinin rəhbəridir.Kapitan Mətinov"yağlı"əsirin ələ keçməsindən məmnunluq duyurdu.Özünü ələ alan mayor Poqosyan bildirirdi ki, onun heç vaxt ağlına belə gəlməzdi ki, onların mövqelərinin üç yüz metirliyində Azərbaycan kəşfiyyatçıları ola bilər.Maşındakı tilovu göstərən mayor hər gün bu yolla Həkəri çayına balıq tutmağa getdiyini,Həkəri çayının balıq kababının əvəzedilməz olduğunu bildirirdi.Qudurmuş erməni zabitinin vaxt itirmək üçün mənasız söhbətlərə rəvac verməsi kəşfiyyatçılar üçün xarakterik deyildi.Poqosyandan ətraflı məlumatlar əldə edən Mətinov bildirdi ki,verdiyin hərbi sirrlər dəqiq olmasa yerindəcə güllələnəcək-

sən.Özünə inamlı olan erməni mayoru isə,əgər sirrlər düz olsa məni azad edəcəksinizmi?-sualını verəndə ona tuşlanmlş ciddi Azərbaycan baxışlarına tab gətirməyib sakitcə kəşfiyyatçı Yunusun ermənicə dediklərinə tabeçilik etmiş oldu.Kəşfiyyatçıların yüksək çinli erməni zabitini əsir götürməsindən xəbərdar olan baş leytenant Məmmədovla Mətinov belə qərara gəldilər ki,iki tərəfdən hucuma keçərək düşmənin istehkamlarını ələ keçirib,onların canlı itgisinə səbəb olmaqla hərbi qənimətlər  də əldə etmiş olsunlar.Mətinov onu da bildirdi ki, təpəlikdə olan düşmən qüvvələri sən deyən ciddi qorunmur.Özündən razı olan "məğlubedilməz ordunun" erməni ağılsız zabitləri qətiyyən inanmazlar ki, onların mövqelərinin çox yaxınlığında balıq kababı aludəçisi olan mayor Poqosyan deməli,Azərbaycan kəşfiyyatçıları ola bilər.Təpəlikdə olan və elektrik dirəyindən sallanan işıq projektoru erməni mövqelərni yaxşı işıqlandırdığından hucum əməliyyatına imkan yaradacaqdı.Yüksəkliyin sağ və sol hissəsindən düşmən mövqeyinə yaxınlaşan döyüşçülər içərisindəki kəşfiyyatçılardan Səməndər istehkam qarşısında gözətçilik edən erməni əsgərini görüb komandirdən ona RPQ verilmıəsini xahiş etdi.Hündür boylu,gövdəli Səməndər RPQ-ni gözətçinin dayandlğı istehkama atıb,haykü qaldıran ermənilərin hər iki tərəfdən güllləbaran edilməsinə şərait yaratdı. Projektor işığında istehkamdan əli silahlı çıxan erməniləri ikinci bir RPQ partalayışı cəhənnəmə vasil etdi.Cəmi iyirmi nəfər kəşfiyyatçı ermənilərin canlı qüvvəsini tamamilə məhv edib, heç bir silah işlədə

bilməyən ermənilərin istehkam daxilindəki iç-içəri bir neçə otağını ələ keçirərək xeyli sila-sursatı qənimət olaraq əldə etmiş oldular.Kəşfiyyatçıların erməni mövqelərini ələ keçirməsi piyada quru qoşunlarının Xanlıq kəndini ələ keçirməsinə şərait yaratdı.Xanlıq kəndini düşmənlərdən təmizləyən qoşun hissələri Həkəri çayı boyunca hucuma keçərək düzənlikdə yerləşən Çaytumas kəndinə doğru irəliləmiş oldular.Azərbaycan ordusunun digər hərbi birləşmələri isə Əfəndilər,Yusifbəyli kəndləri uğrunda,digər hərbi birləşmələr isə Mollabürhan və Qubadlı şəhərini düşmən torpağından azad etmək üçün hucuma keçmiş oldular.Oktyabrın 25-26-ı müddətində iki gün ərzində erməniləri sıxışdıraraq adı çəkilən kəndləri və Qubadlı şəhərini müzəffər ordumuz düşmənlərdən təmizləmiş oldular.Düşmən mövqelərini ələ keçirib möhkəmlənən Azərbaycan hərbi birləşmələri,o cümlədən komandir Allahverdinin qəhrəman döyüşçüləri digər ərazilərin düşmənlərdən təmizlənməsi üçün yeni döyüşlərə hazırlıqlar aparmağa başladılar.

Cəbrayıl istiqamətində döyüşlərini davam etdirən komandir Dadaşın  topçu döyüşçüləri Cəbrayıl rayonu istiqamətində Çullu və Qazanzəmi uğrunda yeni hucumlara başladılar.Düzənlik ərazidə yerləşən bu kəndləri ermənilər minalayaraq quru piyada qoşunlarının irəliləməsinə əngəllik yaratmışdılar.Erməni faşistləri hər addımda piyada və tank əleyhinə minalar yerləşdirmişdilər ki,minaları təmizləmədən hucuma yol vermək olmazdı.Eyni zamanda erməni quldurları bir neçə səddən ibarət bufer

zonası və özlərinin gizləndikləri siçovul yuvası olan istehkamları ilə də müdafiə olunurdular. Minatəmizləyən əsgərlər minaları təmizləməklə məşğul olduğu bir vaxtda,komandir Dadaşın topçu alayına istehkamları dağıtmaq əmri verilmişdi.Topçular dəqiq və sərrast atəşlə düşmən istehkamlarını dağıdaraq həm texnika,həmdə canlı itgi vermələrinə müvəffəq oldular.Komandir Dadaşın topçuları arasında "ağsaqqal topçu Ələmdar" adı ilə tanınan Rizvan adlı topçu ermənilərin qəniminə çevrilmişdi.Topçu Rizvan birinci Qarabağ müharibəsində məharətinə görə "topçu ƏLəmdar" adına layiq görünmüşdü.İndi düşmənə qarşı vuruşduğu gənc əsgərlər ondan "topçu Ələmdar" adının qoyulma səbəbini soruşduqda,Rizvan danışırdı ki,birinci Qarabağ müharibəsində ermənilərlə vuruşarkən top atəşinə tutduğu ermənilərə deyərmiş:-ay dığalar indi sizə topumla dar saatlar yaşadacam və sizin üçün ələm günləri başlayacaq. Bizimlə bərabər vuruşan müəllim döyüşçü hamıya elan etdi ki, bu gündən düşmənə dar və ələm günlər yaşadan Rizvana "topçu Ələmdar" deyəcəyik.Elə o vaxtdan mənim adım topçu Ələmdar kimi tanınmağa başlandı.İndi çallaşmışıq.Balalarım yaşında olan sizlər isə məni ağsaqqal,əlli beş yaşlı topçu Ələmdar kimi tanıyırsınız.Mən öz topumla bu ermənilərin ona görə qənriminə çevrilmişəm ki,bu otuz ildə onlar öz qaniçən hərəkətləri ilə buna layiq olublar.Rizvanın yerlisi və birinci Qarabağ müharibəsinin iştirakçısı olan Xankişi zarafatları ilə tanıdığından və Rizvana ruh vermək üçün dedi ki,ay Rizvan sən öz topunla və parta-part yaşınla

düşmənlərin qənimisən.Allah qoysa torpaqlarımız azad olunduqdan sonra çiçəklənən vətənimizdə sənin iki doqquzunu qeyd edəcəyik.Allah ağzından eşitsin,ay Xankişi!-deyə Rizvan topçu adı ilə fəxarətlənib demişdi:-iki doqquz azdır,arzulardım yüz yaşımda ermənilərin yanından düz keçim.Yəni şahlığına heyran olduğum sərkərdə Nadir ermənilərə kəniz kimi baxdığı kimi,mən də yüzümdə bu kəniz-nökərlərin yanından bəy kimi keçim. Riszvanın ağsaqqalığına və topçuluq dəqiqliyinə hörmətlə yanaşan komandir Dadaş topçu döyüşçülərinin düşmən qüvvələrini tar-mar etməsinə razılıq edib piyada qoşunların hucuma keçərək əl içi kimi görsənən Çullu kəndinə girməsini alqışladı.Kəndi düşmən töt-töküntülərindən təmizləyən ordumuzun fədəkar əsgərləri Qazanzəmi kəndinin düşməndən azad edilməsi üçün döyüş imkanlarını genişləndirdilər.Qazanzəmi kəndi düzənlik zəmidə yerləşdiyindən Çullu kəndi kimi əl içi kimi görsənirsdi. Dağıdılmış evlərdən bir sipər kimi istifadə edən düşmən ara-sıra atəşlər açaraq kəndi əldən vermək istəmirdilər.Tanklardan və toplardan açılan sərrast atəşlər düşmənin hər hansı əks hucum aparmasını mənasız edirdi.Topçuların dayanmadan düşmənləri atəşə tutması onlarda bir qıcıq yaradırdı.Komandir Dadaş əlindəki qırmızı bayrağı qaldırmaqla atəş əmrini verirdi.Qəflətən düşmən tərəfindən atılan mərmi komandirin yaxınlığında partlamaqla torpağı göyə sovurmuş oldu.Topçu Ələmdar peşəkar olduğundan hələ torpağın tozu səngiməmiş komandir Dadaşın olduğu istiqamətə qaçdı.İkinci bir mərminin

yerə düşməsi Ələmdarı də yaraladı.Erməni tərəfdən mərminin atıldığı yer döyüşçülərimiz tərəfindən şiddətli olaraq atəşə tutulduğundan düşmən silahları susmuş oldu.Topçular baş hissədən yaralanmış Dadaşın dayanmadan axan qanını saxlaya bilmədilər.Başın arxa hissəsi yox dərəcəsində idi.Komandir Dadaş özündə deyildi.Ona ilk tibbi yardım göstərsələr də,Dadaş aldığı mərmi yarasından dünyasını dəyişib əbədiyyətə qovuşaraq şəhidlik zirvəsinə yüksəldi.Ayağından qəlpə yarası almış topçu Ələmdar tibb səhra məntəqəsində əvəzsiz komandirinin şəhid olmasını eşidib uzun müddət bu itgi ilə barışa bilmədi.Bu döyüş günündə,yəni oktyabrın 28-də Çullu və Qazanzəmi kəndlərinin azad edilməsində göstərdiyi qəhrəmanlığa görə topçu Dadaşı təltifə layiq görmüşdülər.Oktyabrın 30-da Xiyabanda dəfn edilən zabit Dadaşın dəfn mərasimində iştirak edən polkovnik Bəydullayev Dadaşın komandirliyindən, peşəkarlığından, qəhrəmanlığından xeyli danışdı.Polkovnikdən qəbul etdiyi bayrağı öpərək bağrına basan Hüseyin kişi:-vətən sağ olsun!-deməklə yağış kimi sellənən göz yaşları ilə bayrağı islatmış oldu.

Oktyabrın 25-26–ında Qubadlı rayonunun bir neçə yaşayış məntəqələrinin azad edilməsində qızğın döyüşlər apararaq fədakarlıq göstərmiş komandir Allahverdinin döyüşçüləri digər hərbi birləşmələrlə bərabər Qubadlının digər istiqamətində erməni quldurlarının fəallığının qarşısını almaq üçün Milanlı,Muradxanlı və İşıqlı kəndlərinin azad edilməsi üçün dislokasiya olunduqları

hərbi sahəni tərk etmiş oldular.Noyabrın 2-də yeni mövqedə möhkəmlənən döyüşçülər iki istiqamətə bölünərək hucum mövqeyində dayandılar.Birinci birləşmə Milanlı kəndi istiqamətində,ikinci birləşmə isə Muradxanlı istiqamətində əməliyyata başlayıb son olaraq İşıqlı kəndini azad etməli idilər. Komandir Allahverdi ata yurdunun azad edilməsində iştirak edəcəyini bildiyindən qürur hissi keçirirdi.İşğal etdikləri torpaqları əldən vermək istəməyən erməni quldurları bir neçə dəfə köhnə T-55 tankları ilə əks-hucum əməliyyatına keçmiş olsalar da müzəffər ordumuzun T-72, T-90 müasir tanklarının dəqiq atəşi ilə vurularaq tüstülənirdilər.Yanan tanklardan sağ qalan erməni tankçıları qorxaqlıqdan düşüb dabanqırma marafon yürüşünə düzləndə snayperçi əsgərlərimiz sürətli marafon yürüşündən geri qalanları məhv edirdilər.Hətta, kiçicik təpəlik yaradaraq istehkam qurmuş siçovul yuvasına doğru start götürmüş UAZ maşının aşması əsgərlərimizdə gülüş obyektinə çevrilmişdi.Yaxud yanaraq tüstülənən tankdan düşüb canını qurtarmaq istəyən erməni tankçısının kitelini əynindən çıxardıb ağ alt köynəyini təslim olmaq üçün bayraq kimi yelləndirərək imdad istəməsi erməni ordusunun "məğlubolunmaz" mifinin əsil göstəricisi idi.Muradxanlı kəndi istiqamətində döyüşə atılmış əsgərlər,o cümlədən komandir Allahverdi döyüşçülərinin ruhu o qədər yüksək idi ki,ölümdən qorxmayan bu döyüşçülər ölməzlik eşqi ilə vuruşurdular.Günortaya yaxın Muradxanlı kəndini mühasirəyə alan döyüşçülər erməni faşistlərinin evləri necə darmadağın etdiklərini,

qəbirlərin baş daşlarını atəşə tutduqlarını,hətta kəndi azad edərkən qəbirsanlıqdan sipər kimi istifadə etdiklərini görüb erməni vəhşiliyinə məətəl qalırdılar. Bu döyüşlərdə erməni varvarlığının əsil xislətini görməmək mümkün deyildi.Azərbaycan əsgərlərinin möhtəşəm hucumları qarşısında aciz qalan ermənilər qəbirsanlığı belə tərk edərkən qisaslarını qəbirin baş daşlarındakı mərhum şəkillərindən alırdılar.Ermənilərin vəhşiliyinə təəccüblənən Allahverdi:-Bu necə millətdi,ilahi!-deyə ermənilərin qəribəlik doğuran hərəkətlərini ağlına sığışdıra bilmirdi.Azərbaycanın tankçı oğulları evlərdən,qəbirlərdən sipər kimi istifadə edən ermənilərə atəş açmağı şənlərinə belə sığışdırmırdılar.Məqsəd yalnız bir idi.Erməni vəhşilərini silahları ilə bərabər məhv edib yerdə qalan töt-töküntülərini torpağımızdan qovmaq!Muradxanlı kəndini tamamilə azad edib Xəndək kəndindən dolayı Həkəri çayı sahilində yerləşən İşıqlı kəndini düşməndən təmizləmək lazım gəlirdi. Artıq Allahverdinin döyüşçüləri komandirlərinin ata yurdu uğrunda döyüşlərə girəcəklərindən xəbərdar idilər.Komandir Allahverdinin əsgərlərdən birinin telefonu ilə atasına zəng etməsindən bunu anlamışdılar.Atasına zəng edən Allahverdi böyük sevinc və qürur hissi ilə bildirirdi ki,biz yurdumuz olan İşıqlı kəndimiz uğrunda bir azdan döyüşə girəcəyik.Allahverdi atasından qardaşları,bacısı haqqında soruşsa da atasından bir xəbər ala bilməmiş,atasından özünü düşmən gülləsindən qorunmağın xahişini eşitmişdi.Nədənsə atası telefonu tez söndürmüşdü.Allahverdi atasının telefonu tez

söndürməsini ayıq-sayıq olmaq kimi qiymətləndirmişdi.Azərbaycan torpağının dilbər guşələrindən olan Qubadlı rayonunun qəlbindən axan Həkəri və Bərgüşad çayları otuz ilə yaxın bir müddətdə düşmən tapdağı altında mərhumiyyətlərə dözsə də,haray-həşir qopararaq yenə də məğrur görünüşü ilə sahiblərini gözləyirdi.Bu çaylar öz axınını Azərbaycan adlı bir millətin muğam və mahnılarından,muğamın zənguləyə bənzəyən şaqraq səsindən götürmüş və qoruyub saxlaya bilmişdi.Həkəri və Bərgüşad çayları sahillərində yaşayan bütün Azərbaycan kəndləri kimi İşığlı kəndi də düşmən tərəfindən tar-mar edilməyinə baxmayaraq milliliyini itirməmiş və məğrur torpaq olaraq Həkəri çayına çox bağlı olmuşdu.Gecələr şırıltı ilə axaraq,sahillərinə mən varam deyən Həkəri çayı nə qədər böyük və uludursa,İşığlı kəndi darmadağın edilsə belə İşıqlı adı ilə ətrafına işıq saçan bir oba kimi ulu və möhtəşəm idi.Bu kəndin övladı olan Hüseyin kişinin oğlu ata yurdunu düşmənlərdən təmizləməyə gəlmişdi.Özüdə tək yox ha,müzəffər Azərbaycan ordusunu hərbi birləşmələri ilə!İşıqlı kəndini talan edib özlərinə ermənisayağı tövlələr tikən erməni vandalları,onları qəbul etməyən bu torpaqda həmişəlik yaşamaq üçün dili olmayan torpağı ermənisayağı dilə gətirmək istəsələr də bu arzularına nail ola bilməmişdilər.Allahverdi hərbçi olmaqla bərabər insanlığa yüksək dəyər verən bir şəxsiyyət idi. Odur ki,özgə torpaqlarına olan erməni hərisliyini bir insan olaraq anlaya bilmirdi.Daha doğrusu insanlığı olmayıb vəhşiliyi ilə seçilən bir toplumun millət kimi for-

malaşmasına inana bilmirdi.Çünki ermənilərin insanlığa yaraşmayan hərəkətləri Afrikada toplum halında yaşayan və ibtidai təfəkkürə malik olan qəbilələr kimi anlaşılsa da,bu qəbilələr özlərini bir millət kimi görə bilmədiklərindən ermənilər də millət kimi formalaşmaq iqtidarında ola bilməzdilər.Vətəni olmayıb özgə torpağını vətən kimi qəbul edən,paytaxtı olmayıb ona yad olan şəhəri özünə paytaxt edən bir toplum heç vaxt millət ola bilməz!Ətraf havadarların köməyi ilə vətən,paytaxt əldə etmək millət kimi formalaşmaq deyil,əslində bu özünəməhv yolunun seçilməsi deməkdir.Allahverdiyə görə haqsızlıqdan yeganə çıxış yolu haqqın qələbəsidir.Ola bilər ki,haqsızlığı bayraq edən bir toplum haqqı qəbul etməsin. Ancaq,haqqın təntənəsi olan"dəmir yumruq" haqsız toplumun başında oynayana qədər?!Azərbaycan ordusunun, o cümlədən komandir Allahverdinin apardığı "dəmir yumruq" vuruşu haqqın təntənəsidir.Komandir Allahverdinin və bütün döyüşçülərin haqq vuruşu nəticəsində,artıq İşıqlı kəndi uğrunda gedən döyüşlərdə Azərbaycan ordu birləşmələri irəliləyərək kəndin hər bir evini yağı düşməndən təmizləyirdi.Tankların dayanmadan düşmən mövqelərini atəşə tutması,əsgərlərin erməni quldurlarını güllələbaran etməsi ondan xəbər verirdi ki, kəndi əllərində saxlaya bilməyən dığalar Həkəri çayına doğru geri çəkilirlər.Axşama yaxın düşmən qüvvələri Həkəri çayına doğru sıxışdırıldı.Düşmən silahlıları xeyli itgilər verdiyindən Həkəri çayını da tərk etməli oldular.Azərbaycan hərbi birləşmələri erməniləri çaydan da

kənarlara qovub çaya yaxınlaşmaqda idilər.Həzin-həzin axan Həkəri çayı sahiblərinin gəldiyini hiss etdiyindən otuz ildə qoruyub saxladığı kükrəyən səsini artırıb şaqraq bir səslə axmağa başladı.Şaqraq səsli çay sanki dilə gəlib deyirdi ki, mən zəngulə üstündə bəstələnmiş çayam və haray-həşirimlə sizlərin doğma torpağa qayıtmağınızı müjdələyirəm.Özlərini doğma çaya çatdıran əsgərlərimiz Muradxanlı və İşıqlı kəndlərinin ermənilərdən təmizlənməsindən sonra yaranmış yorğunluqlarını Həkəri çayının qəribsəmiş suyu ilə çıxardır və bayram əhvalı-ruhiyyələrini qeyd edirdilər.Həkəri çayının canlara dərman olan suyundan doyunca içən əsgərlər çay qırağında oturaraq cənnəti-məkan olduqlarını dilə gətirirdilər.Ətrafda atəş, güllə səsləri gəlmirdi.Düşmənin tamamən qovulduğuna əmin olan komandir Allahverdi atasının bir vaxtlar çayın zümzüməsi ilə böyüdüyünü xəyalına gətirərək,çay qırağında diz çöküb təbiətin füsunkar gözəlliyi olan haray-həşirli çayı məhəbbətlə oxşamış oldu.Dodaqları susuzluqdan qurumuşdu.Əli ilə çaydan bir az götürüb quru dodaqlarına apararaq çayın həyat mənbəyinə heyrətləndi.Əyilib sudan xeyli içmək ehtirası onu sakit buraxmadı.Dodaqlarını çaya yaxınlaşdırıb acgözlüklə içməyə başladı.Birdən açılan atəş nəticəsində üzüqoylu çaya düşən Allahverdinin bu halını görən əsgərlər tez komandiri qucaqlayıb çay sahilinə çəkdilər.Əsgərlər atəş gələn səmtə doğru qaçaraq xayin düşməni zərəsizləşdirməkdə qərarlı oldular. Tankçılardan Əmiraslan bu xayin hərəkətə dözməyib tez tanka əyləşərək atəş gələn səmtə yollandı.İlk

tibbi yardım əlini uzadan əsgər komandirin boyun hissəsindən güllə aldığını bildirdi.İlk tibbi yardımçı əsgər komandirin tibb məntəqəsinə aparılmasının vacibliyini qeyd etsə də, aramla gözünü açan komandir əli ilə əsgərləri sakitliyə çağırıb xırıltılı səslə demək istədiyini çatdıra bilmədən qaralmış gözlərini qapadı.Allahverdinin gözləri qapansa da ürəyi vətən eşqi ilə, ata yurdunun azad edilməsi sevinci ilə döyünürdü.Komandirin ürək döyüntüsünü sakitliklə qəbul edən əsgərlər onun yaşaması üçün dualar edirdilər.Komandir Allahverdi isə, şəhidliyə gedən yolun ilk röyasını görürdü.Bütün ailə İşıqlı kəndində toy-bayram əhvalını keçirirdilər.Fərman kişi lap başda oturub vətəni düşməndən azad edən nəvələri ilə xoşbəxtçilik anını yaşayırdı.Atası Hüseyni qucaqlayan Fərman kişi Rəbbiyəni oğluna göstərərək mənim aslan balam, -deyə fəxarətlənirdi.Hələ,anası Səmayə necə fəxrlə mənim medallı balalarım deyərək onları ağuşuna alırdı.İlahi,ana Səmayənin necə də böyük ağuşu var idi?Bütün yeddi balasını ağuşuna yerləşdirmişdi.Ana ağuşunun böyüklüyü bütün kənd əhlini təbəssümləndirirdi.Bu xoşbəxt mənzərədən Allahverdinin də dodaqlarında təbəssüm yaranmışdı.Birdən əsgərlərdən kimsə,-deyəsən komandirin üzündə təbəssüm yaranıb, şükr! Deyəsən bu təbəssüm üzü yaşamağa doğrudur.Münəccimlik edən əsgərin müsbət yozumu ona gətirib çıxardı ki,döyüşçülər bir səslə:-komandir biz sənin yanındayıq, -deyə xorla dilləndilər.Üzündəki təbəssümü saxlayan komandir son gücünü toplayıb qapanmış gözlərini açmaq istəsə də bacar-

madı və müvazinətini itirmiş başı yana əyilərək ürək döyüntüsünə son qoymuş oldu.Komandirə ilk tibbi yardım göstərən əsgər onun nəbzinin daha döyünmədiyini və şəhidliyə qovuşduğunu görüb,bütün var səsi ilə komandir!-deyə bağırdı.Bu bağırtı sanki bütün təbiəti təlatümə gətirdi.Bu bağırtı Həkəri çayının təlatümlü şırıltısına qoşularaq bütün çay boyu əks səda vermiş oldu. Bu bağırtı şəhidlər ölməzdir əks sədası olaraq nəinki ulu Həkəri çayını aşıb-daşdırdı,nəinki əziz komandirləri ilə bir yedə döyüşərək bütün çətinlikləri keçmiş əsgərləri göz yaşında boğmuş oldu.Bu ölümə təbiət də dözmədi.Birdən-birə göydəki işıq saçan ulduzlar qeyb oldular.Qara buludlar hər tərəfi cənginə aldı.Bu buludlardan yaranan şimşək bir anda şıdırğı yağış gətirdiyi kimi son anda narın-narın yağaraq,həzinləşmiş Həkəri çayı ilə həmahəng olub şəhidlik simfoniyasını çalmış oldu.

Çox keçməmiş tankçı Əmiraslan peyda olub əlindəki əzilmiş erməni kəlləsini şəhid olmuş komandirin ayaqları altına atdı.Komandirin şəhidliyinə dözməyən tankçı göz yaşını silərək bildirdi ki, həyatı boyu bir qarışqa belə ayaqlamayıb.Ancaq,komandirə qarşı insanlıq etməyən bu xayini mən tankla qovalayanda o tankın qarşısına yıxılaraq imdad istədi.Lakin,özümdən asılı olmadan mən onun xayin hərəkətini bağışlaya bimədim.Onu nə vaxt tankla əzdiyimi təssəvvür edə bilmirəm. Babam uşaqlıqdan bizə deyərdi ki, su üstündə ilanı vurub öldürmək belə günahdır.Ancaq,bu vicdansız erməni su içən komandiri öldürdü.Elədiyi xayin hərəkətlə bərabər, utanmadan

yaşamaq arzusu ilə imdad da istəyirdi.Xayin hərəkəti,imdad imici ilə bu erməni mənim nəzərimdə ziyankar həşəratdan da pis idi.Komandirlə bərabər kənddə şəhid olmuş və yaralanmış əsgərlər arxa cəbhəyə təxliyyə olundu.Noyabrın ikisi axşam şəhid olan komandirin şərəfinə döyüşçülər yaylım atəşi açmaqla onun şəhid ruhunu şad etmiş oldular.

Noyabrın 5-də yuxusunu qarışdırmış Hüseyin kişi işə tələsdiyindən gördüyü qarmaqarışıq yuxunu yozmayıb allah xeyir eləsin!-deməklə qapını açarkən qapı önündə dayanmış və əlində al bayraq tutmuş zabit və əsgərləri görüb duruxdu.Hüseyin kişiyə yaxınlaşan zabit və əsgərlər Allahverdinin ata yurdunu düşməndən təmizləyən zaman şəhid olduğunu bildirib bayrağı ona təqdim etməklə,-başınız sağ olsun!- dedilər. Karıxmış Hüseyin kişinin qarmaqarışıq yuxusunun nəticəsi aydın oldu.Zabitlərlə bərabər bütün bina əhlinin toplaşdığı izdiham içərisində qəhrəman oğlunun tabutunun üzərinə çəkilmiş bayraq önündə göz yaşı axıdan Hüseyin kişi xiyabandakı dəfn mərasimi zamanı cərgə ilə düzülmüş övladlarının qəbirləri üstündə:-Şəhidlər ölməzlərdir,təki vətən sağ olsun!-deyə bildirdi.Şəhid olmuş beş övladlarının qəbirləri üstündə iki əlini yaradana uzadaraq,-verən də sənsən, alan da! Sənin yaratdıqların da,aldıqların da mənim fəxarətimdirlər.Allahım sənin duaçınam! Uşaqlarım şəhidlikləri ilə tək mənim yox,vətən torpaqlarının azadlığı uğrunda ayağa qalxan bütün xalqın övladlarıdır.Allahım

sənin qüdrətinin nəticəsidir ki, uşaqlarım şəhiddirlər və ölməzlər cərgəsində əbədiyyətə qovuşublar.

Xocəvənd rayonunun Hadrut yaxınlığındakı Çinarlı-Günəşli kəndlərinin azad edilməsində döyüşçülərin göstərdikləri  qəhrəmanlıq komandir Şükürovun ürəyincə olmuşdu.İdmançı cüssəsi və döyüşkən ruhu ilə erməni silahlılarının qənimimə çevrilmiş İldırım bir an olsun belə sakit oturmur və torpaqlarımızın tezliklə düşmənlərdən təmizlənməsi üçün yeni döyüşlər üçün darıxırdı.Komandir Şükürov aldlğı əmrə əsasən Tuğ yaxınlığındakı Ataqut və Hünərli(Tsakuri) kəndlərinin düşmənlərdən azad vedilməsi üçün noyabrın biri axşamı döyüşə hazırlaşıb noyabrın 2-nə keçən gecə kəndlərin düşmənlərdən azad edilməsi üçün hərəkətə keçdilər.XTQ komandiri Şükürovun idmançı döyüşçüləri demək olar ki,Xocavənd rayonunun Hadrut və hələlik azad olunmamış Tuğ kəndi ərazisindəki erməni silahlılarının törətdikləri əks hucumları ləğv etmək işində peşəkarlıq qazanmışdılar.İndiki halda Ataqut və Hünərli kəndlərində yaranmış  erməni terror fəaliyyətinə son qoymaq Şükürovun döyüşçülərinə həvalə edilmişdi. Noyabrın birinin axşamı adı çəkilən kəndlər ətrafında dislokasiya olunmuş Şükürov döyüşçüləri kəndlərin coğrafi relyefini diqqətdən keçirib belə qərara gəldilər ki,hər tərəfdən meşə təpəliklərilə əhatə olunmuş və dağların ətəyində yerləşən  Hünərli(Tsakuri)kəndində kəşfiyyat aparmaqla kəndə hucumu təşkil etmək olar.Kəşfiyyatın məlumatlarına əsaslanıb Hünərli kəndini azad edəcəyimiz təqdirdə,adını Quruçayın sağ qolu

olan Ataqut çayından götürmüş kəndi düşmənlərdən azad etmək elə də çətin olmayacaqdı.Beləliklə, Şükürovun seçimi ilə İldırım başda olmaqla daha iki əsgər Rasim və Bəybala kəşfiyyata yollandılar.Həsrətin kəşfiyyat xahişinə baxmayaraq komandir Şükürov onun kəndə hucumda yer alacağını bildirdi.Həsrət allahına duaçı olaraq İldırımın kəşfiyyatdan sağ-salamat qayıtmasını arzulamalı oldu.Hünərli kəndinin meşə təpəliyinə doğru addımlayan kəşfiyyatçılar meşənin zülmət qaranlığının işıqlanması anını gözləməklə bərabər irəliləməkdə idilər. Birdən qarşıdan bir neçə nəfərin hərəkətini görüb onların zərərsizləşdirilməsi,tərksilah olunması və əsir götürülməsi qərara alındı.Əsgər Rasim snayperçi olaraq düşməni hədəfə almalı olacaqdı.İldırım və boyun sındırmaqda mahir olan əsgər Bəybala düşmənləri izləməli oldular. Erməni quldurlarının bellərindəki yüklərdən anlamaq olurdu ki, onlar təpəlikdə mövqelənmiş erməni silahlıları üçün ərzaq aparırlar.Arxadan gedən və yorularaq donquldanan iki erməniyə yaxınlaşan İldırım və Bəybala onları zərərsiz ölü vəziyyətinə salıb,daha iki nəfəri də dincəltmiş oldular.İldırım və Bəybalanın ardınca qarabaqara addımlayan Rasim zərərsizləşdirilmiş erməni silahlılarının tərpəniş edənini də süngü ilə rahatlayırdı.Daha iki nəfərin ağzını yummaqla onların əsir götürülməsini təmin edən İldırım kəşfiyyatçıları erməni əsirlərinin yalvarışlarına əhəmiyyət vermədən onlardan bəzi məlumatları isti-isti almış oldular.Erməni əsirlərin dediklərinə əsasən onlar ancaq, gecələr meşə yüksəkliyində mövqelənmiş

ermәni silahlılarına әrzaq aparır vә kәşfiyyat mәlumatları da çatdırırdılar.Ermәni әsirlәrin dediyinә görә kәşfiyyat mәlumatı olan mәktub zәrәrsizlәşdirilmiş ermәnilәrdәn Vazgen adlı ermәninin döş cibindәdir.İldırım vә Rasim ermәnilәrin gözәtçisi olub Bәybalanı kәşfiyyat mәlumatı olan mәktub üçün yola saldılar.Yarım saat keçmәmiş Bәybala geri qayıdıb kәşfiyyat mәlumatı olan mәktubu İldırıma tәqdim etmәklә bәrabәr bildirdi ki,uzaqdan hәnirti sәsi gәlirdi.Mәn zәrәrsizlәşdirdiyimiz ermәnilәri böyük ağacların gövdәsindә gizlәdә bildim.Ancaq,hәr ehtimala qarşı cәld geri qayıtmalıyıq. Ermәni әsirlәrdәn biri ayaq ağrısından әziyyәt çәkdiyini bildirib aramla gedәcәyini desә dә,İldırım silahını Bәybalaya verib donuz әti yemәkdәn donuz çәkili olmuş ermәnini kürәyinә alıb cәld geri döndülәr.Sübh işığında özlәrini XTQ birlәşmәsinә çatdıran kәşfiyyatçılar çox әlverişli vә qiymәtli informasiya gәtirmişdilәr.Mәktubla tanış olan XTQ komandiri Şükürov әsirlәrin donoslarını әldә edib Hünәrli kәndinin dağlığındakı hәrbi gücü qiymәtlәndirdikdәn sonra dağlıq hissәdә yerlәşәn ermәni mövqelәrinә hucum әmәliyyatını vermiş oldu.Sübhün gözü açılmamış әrzaq gözlәntisinin әvәzinә edilәn qәflәt hucum ermәnilәrin çaşbaş olaraq parakәndә döyüş göstәrmәlәrinә sәbәb oldu.Әsasәn kәnd әhlindәn ibarәt olan ermәnilәr meşәlәrә üz tutaraq qaçmış oldular.Meşә tәpәliyinin әtәyindә yerlәşәn kәndә hucum edәn XTQ döyüşçülәri kәndin yerli әhali tәrәfindәn tәrk edildiyini,ancaq tәk-tük ermәni silahlılarının atәşlәrinin sәsini eşitdilәr.Ermәni әsirlәri Azәrbaycan

döyüşçülərinə "kardaş" deyərək,ərzaqların yerləşdirildiyi kilsə anbarlarının qapısını "dədələrinin yurdu" kimi açıb azad olunmaqlarını xahiş etdilər.XTQ komandiri Şükürov Ataqut kəndinin azad edilməsindən sonra onları evlərinə buraxacaqlarını bildirdi.Erməni əsirləri can-başla razılıqlarını bildirib kömək etməyə hazır olduqlarını nümayiş etdirdilər.Erməni əsirlərinin bələdçiliyi ilə XTQ döyüşçüləri Ataqut çayı boyu irəliləyərək sağ sahildə yerləşən kəndə köməyə gəlmiş hərbi birləşmələrimizin köməyi ilə qəflət hucum təşkil etdilər.Ataqut kəndinin döyüşən erməni silahlıları Azərbaycan ordusunun dinc əhali evlərinə silahlı hucum etmədiyini bildiklərindən evlərin çardaq hissəsində yerləşdirilmiş silahlardan atəş açaraq Azərbaycan döyüşçülərinin itgi vermələrinə səbəb olsalar da, hər ev uğrunda getmiş döyüşlərdə peşəkarlıq qazanmış Azərbaycan döyüşçüləri günortaya yaxın erməni silahlılarını məhv edib kəndi tamamilə azad etdilər.Ataqut kəndinin azad edilməsi erməniləri bərk qorxuya saldığından Tuğ kəndinə doğru geri çəkilməli olmuşdular.Tək-tük erməni silahlıları müqavimət göstərərək gizləndikləri evlərdən əsgərlərə atəş açsalar da yerlərindəcə məhv edilirdilər.Ataqut kəndinin azad edilməsində Həsrətin qol hissəsindən yaralanmasına baxmayaraq heç bir tibbi yardım almadan,qolundan axan qana əhəmiyyət vermədən döyüşünü davam etdirməsini komandir Şükürov xüsusilə qeyd etmişdi.Kəndlərin alınmasında kəşfiyyatda əldə etdikləri qiymətli informasiyaya görə XTQ döyüşçüləri İldırım,Rasim və Bəybala ko-

mandir Şükürovun təşəkkürnaməsini qazanmışdılar.Noyabrın 2-si günü Ataqut və Hünərli kəndləri ilə bərabər,müzəffər ordumuz tərəfindən Xocavənd torpağının daha 12 yaşayış məntəqəsinin düşmən tapdağından azad edilməsi Xocəvənd döyüşlərinin ən parlaq səhifələrindən biri idi.Artıq musiqi beşiyimiz olan Şuşanın azad edilməsinə barmaqla sayılası günlər qalırdı.Komandanlığın Şuşanı azad etmək planı tarixə yazılası qəhrəman döyüşlərdən başlıcası olacaqdı.Çünki, düşmən tərəfindən alınmaz qalaya çevrilmiş Cəbrayıl,Füzuli ərazilərinin azad edilməsi Şuşa döyüşünün qalibiyyətlə başa çatacağına böyük inam verirdi.Düşmən Şuşanın girişində böyük qüvvə toplayaraq Şuşanı alınmaz qalaya çevirmişdi.Şuşanın başqa bir istiqamətdən azad edilə biləcəyini ağıllarına sıxışdıra bilməyən erməni zabit və generalları Azərbaycan ordusunun və onun komandanlığının Şuşa uğrunda hucum əməliyyatını şəhərin əsas girəcəyində gözləyirdilər.Lakin,Şuşanı azad etmək üçün Şuşanın girəcəyində hucum şəraiti yaradacaq ordu saxlamaqla Azərbaycan komandanlığı aldadıcı manevrlər edəcəyini qərarlaşdırmişdi.Azərbaycan komandanlığı düşmənin ağlına belə gətirə bilməyəcəyi Daşaltı və Şuşanı əhatə edən dağ massivindən keçməklə şəhəri azad etməyi planlaşdırmışdı.Daşaltı sıldırım qayalarını və Şuşaətrafı dağ massivini keçmək ağır silahlarla mümkün deyildi.Dağ massivlərini piyada qət edəcək idmançı XTQ döyüşçülərinin tank və topa qarşı silahsız vuruşmaları,qaniçən cəlladlarla əlbəyaxa döyüş aparmaları Şuşanın azad

edilməsi demək olacaqdı.Odur ki,ilk növbədə tarixi Daşaltı əməliyyatını aparmaq qərara alındı.Əvvəlki döyüşdə qolundan yara almış Həsrət Daşaltı əməliyyatında iştirak etməyəcəkdi deyən,İldırımı qucaqlayıb Gülalı xatirinə özünü qorumağı xahiş etdi.İldırım üçün bu döyüş bir də ona görə sevincli idi ki, birinci Qarabağ müharibəsində iştirak edərək qazi olmuş atasının qisasını düşməndən alaraq Daşaltını azad edilməsində iştirak edib atasının başını dik tutmasına səbəb olacaqdı.Birdə ki,Daşaltı azad edildikdən sonra qayaları dırmaşaraq Şuşaya hucum edib onu düşməndən azad etmək ön planda dayanırdı.İldırım üçün Şuşanın düşmənlərdən azad edilməsi qələbə demək idi.XTQ komandiri Şükürovun dediyinə görə "Qarapaltarlılar XTQ","Yaşma"XTQ,"Kobra"XTQ Naxçıvan XTQ döyüşçüləri ilə bərabər, bütün hərbi birləşmələrin XTQ döyüşçüləri Daşaltının,Şuşanın azad edilməsində iştirak edəcəkdilər.Daşaltını düşməndən təmizləmək üçün kəndin yüksək qayalıq hissəsinin sağ və sol hissəsindəki sıldırım təpəlikləri əldə edib,təpəlikdən düşmənin gözləməyəcəyi halda kəndə hər iki tərəfdən hucum etməklə Daşaltını azad etmək planı qərara alındı.Azərbaycanın müzəffər ordusunun XTQ döyüşçüləri noyabrın 3-də sübhə yaxın dağlar və qayalıqlarla Daşaltının yüksəkliklərinə doğru irəliləyib dan yeri açılmamış hər iki cinahdakı yüksəklikdə olan qayalardan Daşaltı kəndinə hucuma keçdilər.Kəndin müdafiəsində mövqe tutan erməni quldurları bu qəflət hucumdan dəhşətə gəlib pərən-pərən düşərək kəndin qayaltı hissəsindən aşa-

ğıya doğru sıxışdırıldılar.Bu döyüşdə Şükürovun qəhrəman döyüşçüləri İldırım,Rasim,Bəybala böyük igidlik və şücaət göstərirdilər.Qayaaltı döyüşlərdə İldırım silahını kənara qoyaraq ermənilərlə əlbəyaxa döyüşə girişib onlara fiziki gücünü göstərir,yaralı əsgərlərimizi tənha qoymayıb onları kürəyinə ataraq bir əlində silah döyüşür və yaralıların ilk tibbi yardım almasına şərait yaradırdı.Qaydasız döyüş növünün ustası olan əsgər Bəybala erməni silahlılarını şil-küt edir,snayperçi Rasim isə əlbəyaxa döyüşən dostlarını xain atəşdən qorumaqla bərabər,cəhənnəmə gedənlərin sayını artırırdı.Aşağıya,kəndə doğru sıxışdırılan erməni silahlıları Azərbaycan əsgərlərinin gözlənilməz hucumu ilə qarşılaşmış olurdular ki,buda ermənilərin xeyli itgilər verməsinə səbəb yaradırdı.Noyabrın 4-ü günü Daşaltını ələ keçirən Azərbaycan ordusunun əsgərləri kəndi mənfur düşməndən təmizlədikdən sonra,Daşaltı kəndində möhkəmlənib Şuşa şəhərini azad etmək üçün hazırlıq görməyə başladılar.Daşaltı qayalarından dörd istiqamətdə hərəkət etməklə,özüdə ancaq avtomat,əl qumbarası,süngü ilə düşmənin Şuşanı müdafiə edəcək tank,PDM və s. kimi ağır silahlarına qarşı da döyüşməli idilər.XTQ döyüşçüləri ağır silahlarla müdafiə olunan erməni quldurlarına qarşı əlbəyaxa döyüş aparacaqlarını da yaxşı bilirdilər.Belə bir döyüş hərb tarixində anoloqu olmayan döyüş demək olacaqdı.Şuşaya giriş Daşaltından əlavə,Şuşaətrafı sıldırım qayaları fəth edərək daxil olduqları möhtəşəm Cıdır düzündən Şuşaya hucum da nəzərdə tuturdu.Bunun üçün Naxçıvan XTQ, Hərbi

dəniz qüvvələrinin Xüsusi Təyinatlıları və digər döyüşən qüvvələr meşələrdən,sıldırımlı qayalardan keçməli və bu dağdan o dağa kəndir-trosla adlayaraq Şuşaya girməli və düşmənlə faktiki olaraq əlbəyaxa döyüş aparmalı idilər.Birinci Qarabağ müharibəsində "Dağlarda döyüş" mifini yaradaraq bu mifin kölgəsində hərbi gücdən danışan erməni quldurlarını,indi Azərbaycan əsgərlərinin ermənilərə qarşı "Qayalardan gələnlərin əlbəyaxa döyüşü"adlı hucumu gözlənirdi ki, bu döyüş nəinki ermənilərin,hətta onun havadarlarının yuxusuna belə girə bilməzdi.Azərbaycan ordusunun hərbi strateqləri əvvəlcədən qərara alındığı kimi erməniləri çaşdırmaq üçün Şuşanın əsas giriş tərəfində qoşun saxlamaqla,onların hərbi anlamayan boş başlarını qatmaqla, hərb tarixində anoloqu olmayan döyüş planını həyata keçirmək ərəfəsində idilər. İgid XTQ döyüşçülərimiz meşələrdən,sıldırımlı qayalardan Şuşaya doğru irəliləməkdə olsun,sizə Şuşanın əsas giriş istiqamətində müdafiə mövqeyi tutan ermənilərin cənfəşanlığından,Azərbaycan əsgərinin qəhrəmanlığından danışaq.Belə ki,Azərbaycan ordusunun ancaq,Şuşaya əsas giriş istiqamətində hucuma keçəcəyini miflənmiş başları ilə inanan erməni "generalları" elə bu istiqamətdə də əsas gücülərini toplamışdılar.Ermənilər Şuşaya əsas girişdə yük maşınlarından və ağır silahlardan ibarət bufer zonalarıı yaradaraq,zonaya yaxınlaşacaq canlı qüvvədən tutmuş ağır texnikaya qədər hər bir hucumun qarşısını alacaq mövqe yaratmış,Şuşaya girişi qeyri-mümkün etmişdilər.Ancaq, Azərbaycan əsgərləri qəhrəmanlıq sal-

namələri yaratmaq üçün bu dünyaya gəlmişdir desək, yanılmarıq.Çox da hündür olmayan arıq gənc bir Azərbaycan əsgərinin ermənilərin bufer hiyləgərliyinə dözməyib ağır yük maşınını idarə edərək bufer zonasına tarana keçməsi və şəhidliyi ilə qəhrəmanlıq salnaməsini yaratması ikinci Qarabağ müharibəsinin şanlı tarixi kimi yaddaşlara yazılmış oldu.Daşaltıda mövqe tutmuş Şükürov döyüşçüləri,İldırım və əsgər dostları Şuşaya giriş anını gözləyir və sakitlik tapmırdılar.İldırım üçün tank qorxulu deyildi, onu idarə edən ermənininin hansı ürəyə malik olması idi.Müharibə anlarında erməni tankçılarının tankı ataraq qaçmalarını, hətta imdad diləmələrini az görməmişdi.Noyabrın 5-dən 6-na keçən gecə qayaları,zülmət meşələri keçən XTQ döyüşçüləri Şuşa ətrafında yorğunluqlarını dəf etdikdən sonra sübh səhər, dan yeri açılmamış Şuşaya giriş etməli idilər.Kəndir–trosla dağları fəth edən digər XTQ döyüşçüləri artıq, Şuşa-Xankəndi yolunda mövqelənərək Şuşa şəhərinə Xankəndindən göstəriləcək köməyin qarşısını almaq üçün döyüş mövqeyi tutmuşdular.Qaranlıq zülmət kecədən sonra səhərin işıqlanmasına az qalmış hərb tarixi yazacaq Azərbaycan ordusunun xüsusi döyüşçüləri bir neçə istiqamətdən Şuşaya hucuma keçdilər.Gözlənilməz hucumdan karıxan və dəhşətə gələn erməni əsgərləri özlərini itirmuişdilər.Azərbaycan döyüşçüləri əlbəyaxa döyüşə girişdilər. Süngü, bıçaqla yaralanan erməni əsgərlərinin qışqırtıları, imdad istəmələri dəhşətli bir mənzərə yaratmışdı.Ağacları sipər edən XTQ döyüşçüləri tankları belə əl qumbarası ilə sıra-

dan çıxarırdılar.Rasim snayper məharəti ilə erməni silahlılarını cəhənnəmə vasil edirdi.Bəybala da düşmənlərə öz dediyi kimi,"limonka"ilə cavab verirdi. Əlbəyaxa döyüşdə gücsüzlüyünü görən ermənilər tankları hərəkətə gətirərək üstünlüyü ələ almağa çalışsalar da, cəsarətli XTQ döyüşçüləri onları yerindəcə zərərsizləşdirirdilər. İldırım döyüşçü dostu,snayperçi Rasimdən onu düşmən gülləsindən qorumağı xahiş edib yaxınlıqdakı ağaca dırmaşaraq oradan tankın üstünə atıldı.Əynindəki kitelini çıxardıb tankın hərəkət istiqamətini göstərən gözlüyü bağladı.Hərəkəti itirən erməni tankçısı tankın lyukundan başını çıxararkən bir əlindəki kitellə tankın hərəkətdə olan gözlüyünü bağlayaraq tankın hərəkətini əngəlləyən İldırım,digər əli ilə erməni tankçısının başını lyukun bağlanan istiqaməti ilə sıxaraq onu cəhənnəmlik edərkən düşmən gülləsi ilə yaralandığını hiss etdi.Özünü itirməyən İldırım əlindəki RPQ-ni tankın lyukundan içəri atıb özünü tankdan kənara atmış oldu.Tankın içərisindəki partlayışdan sonra tankin hərəkəti dayandı.Rasim İldırımın özünü tankın üstündən kənara atdığını görüb, İldırıma kömək üçün onun yanına qaçarkən düşmənin xayin gülləsi onu yerə sərmiş oldu.Rasimə atılan atəşin istiqamətini dəqiqləşdirən Bəybala əlindəki qumbara ilə atəş nöqtəsini susdurdu.Rasimə yaxınılaşan Bəybala onun xahişi ilə,İldırıma köməklik etməyi vacib bildi.İldırıma yaxınlaşan Bəybala onun qan içərisində olduğunu görüb onu ağaca tərəf çəkərək gövdəli ağacdan sipər kimi istifadə etməyi lazım bildi.Bir azdan digər əsgərin köməkliyi

ilə buna müəssər oldu.Bəybala tibbi yardım üçün əsgərlərə müraciət etsədə faydasız oldu.Bəybala onu köməyə çağıran Rasimə onun xahişi ilə çubuq vermiş oldu. Ayağının baldır hissəsindən ağır yara almış snayperçi Rasim boynundakı şərflə çubuğu ayağına bağlayıb bir təhər ayağa durdu. Bu zaman erməni silahlısının Rasimi nişan aldığını görən Bəybala əl qumbarasını erməni nişançısına atmaqla onu məhv edib dostu Rasimdən:-sağ ol qardaşım!-təşəkkürünü almış oldu.Hər iki dost hələ də qan içində olub özünə gəlməmiş İldırımı yaxınlıqdakı yarıuçuq binaya gətirdilər.İldırımın ağır vəziyyətindən xəbərdar olan komandir Şükürov onun həm kürəyindən,həm də baş nahiyəsindən güllə və qəlpə yaraları aldığını görüb tibbi sanitarin dəvət olunması üçün Rasimə göstəriş verdi. Komandir Şükürovun qolundan yapışan İldırım döş cibindən çıxardığı məktubu ona verib qardaş kimi yanaşdığı və Gülalının qardaş əmanəti olan Həsrətə vermәsini xahiş etdi.Bir də komandirdən xahiş etdi ki, Həsrət məktubu atama təqdim etməlidir.Məktubda ünvan göstərilibdir.Tezliklə gələn tibb nümayəndəsi ilk tibbi yardımı göstərsə də komandir Şükürova bildirdi ki,yaralı xeyli qan itirildiyindən sağ qalmaq ehtimalı çox azdır.Ağır texnika ilə boğaza qədər silahlanmış ermənilər süngü,bıçaq,qumbara,tapança və fiziki gücə malik olan Azərbaycan əsgərləri qarşısında aciz qalıb məğlub olaraq Şuşanı tərk edirdilər.Şuşada hələ də yanaraq tüstülənən tank,PDM və yük maşınlarına qarşı vuruşan yüngül silahlı Azərbaycan döyüşçüləri öz misilsiz qəhrəmanlıqları

ilə hərb tarixində yeni səhifə açmış olurdular. Demək olar ki, noyabrın 6-7- günləri Şuşanı ələ keçirmiş Azərbaycan əsgərləri noyabrın 8-i erməni quldurlarından tamamən təmizlənmiş musiqi beşiyimiz Şuşada üçrəngli bayrağımızı dalğalandıraraq qalibiyyət bayramını qeyd edirdilər.Ağır yaralanmış igidimiz İldırım isə hərbi qospitalda Şuşa qalibiyyətini eşidib böyük sevinc hissini keçirsə də,həkimlərin bütün səylərinə baxmayaraq əbədiyyətə qovuşub şəhidlik zirvəsinə qalxmış oldu.

Şuşanın düşmən tapdağından azad olunmasını eşidən Həsrətin sevinci yerə-göyə sığmırdı.Həsrət Şuşanın azad olunmasında iştirak edən qardaşı İldırımla bir yerdə olmamasına görə təəssüflənsə də,xəyalən İldırımın Şuşa döyüşlərində göstərə biləcəyi qəhrəmanlığı xatırlayaraq təbəssümlənirdi.Axşama yaxın Həsrətin döyüşçü olaraq tabe olduğu kapitan Mehdiyevdən Şuşanın azadlıq təbrikini dinləyən əsgərlər Xocavəndin kəndlərinin azad olunması üçün hucuma hazırlaşmaq əmrini aldılar.Kapitan Mehdiyevin döyüşçüləri Tuğ kəndinin azad edilməsində,digər hərbi birləşmələr isə Susanlıq kəndinin düşməndən təmizlənməsində iştirak etməli idilər.Kapitan Mehdiyevin döyüşçüləri dağətəyi ərazidə yerləşib,hər tərəfdən meşəliklə əhatə olunan Tuğ kəndinin yüksəkliklərində mövqelənmiş oldular.Meşəliklə əhatə olunmuş təpəlikdə qarşılaşdıqları erməni silahlılarını zərərsizləşdirib üstəlik bir erməni silahlısını da əsir götürdülər.Şuşanın,Hadrutun əldən getməsindən sonra Azərbaycana qarşı vuruşmağın mənasızlığından danışan er-

məni əsir Lyudvik Tuğ kəndindəki erməni qüvvələrinin yerləşməsini kapitan Mehdiyevə donosladı.Əsirin dediyinə görə Azərbaycanlı əsgərlərin dinc əhaliyə silah qaldırmamasını bilən ermənilər arvad-uşağı Xankəndinə göndərmiş evlərdə isə özünü dinc sakin kimi göstərən silahlı erməni quldurlarını yerləşdirmişdilər.Erməni xislətinin murdarçılığı birdə ondan ibarət idi ki,onlar Tuğdakı kilsəyə və onun qüllə hissəsinə ağır silahlar yerləşdirmişdilər.Kapitan Mehdiyev Tuğda yerləşən və tarixi memarlıq abidəsi olan  Müqəddəs İohann kilsəsinin xıı-xııı-əsrə aid olduğunu və bu kilsənin bütün tarix boyu erməni vəhşiliklərinin şahidi olmasını da bilirdi.Kapitan Mehdiyev Alban kilsəsi olan bu dini məbədin vaxtilə necə erməniləşdirildiyini,sonra isə qriqorianlaşdırıldığını müstəqil Azərbaycan alimlərinin yaratdıqları yeni tarixi kitablardan əxz etmişdi.İndiki zamanda keçmiş sələflərindən seçilməyən erməni varvarları yenə də dini abidədən cəbbəxana kimi istifadə edirdilər.Odur ki,kapitan Mehdiyev dini abidəyə zərər vurmadan düşmənin məhv edilməsini döyüşçülərinə məsləhət gördü.Beləliklə,erməni əsir Lyudvikin donosuna əsasən meşə təpəliyindən Tuğ kəndinə hucum sağ və sol cinahdan aparılmalı idi.Mehdiyevin döyüşçüləri iki cinahdan hucuma keçməklə kəndi mühasirəyə almaqda məqsədli oldular.Hər iki cinahdan Azərbaycan əsgərlərinin hucumunu görən erməni quldurları demək olar ki, hər bir yaşayış evini səngərə çevirib kəndi əldən vermək istəmirdilər.Lakin,erməni əsirin donoslarından ağılla istifadə edən Mehdiyev əsgərləri,az

qala partizan xarakterli döyüşlər apararaq hər evdə bir neçə düşmən silahlısını məhv etmiş olurdular.Bu partizan xarakterli döyüşlərdə qardaşı İldırımla birgə döyüşlər aparmış Həsrət ermənilərin canlı qüvvəsini itgilərə məruz qoyurdu.Demək olar ki,kəndin xeyli hissəsi ələ keçirilmişdi,yalnız kilsə ətrafı ərazilərə yaxınlaşmaq çətinlik yaradırdı.Çünki,kilsədəki ağır silahdan açılan atəşlər nəticəsində yaralanan və şəhid olan əsgərlərimiz də var idi.Kilsəni diqqətlə nəzərdən keçirən Həsrət kapitan Mehdiyevin icazəsi ilə kilsənin yaxınlığındakı nərdivandan istifadə etməklə kilsəyə daxil oldu. Həsrət və bir neçə cəngavər əsgərlər əlbəyaxa döyüş vəziyyətinə düşərək kilsədə atəş açan erməniləri məhv etdilər.Yeganə olaraq əlbəyaxa döyüşə girən əsgər Muradov qolundan süngü yarası almışdı.Axşama yaxın Tuğ kəndi kapitan Mehdiyevin əsgərləri tərəfindən düşmənlərdən təmizləndi.Ağır silahın kilsəyə yerləşdirilməsi isə ən azından ibadətgaha olan iyrənc münasibətin təzahürü idi.Bir neçə vaxtdan sonra məlum oldu ki,Susanlıq kəndi də əsgərlərimiz tərəfindən düşmən tapdağından azad edilmişdir.

Noyabrın 10-da Erməni dövlətinin kapitulyasiya aktını imzalaması isə əsgərlər tərəfindən böyük coşqu ilə qarşılandı.Qalib Azərbaycan əhalisi bu bayramı qeyd edərək qələbə bayraqları ilə şəhər və kəndləri zəbt etmişdilər.Bütün ölkə 44 günlük müharibədə müzəffər ordumuzun Ali Baş Komandanın rəhbərliyi ilə əldə etdiyi qələbəyə öz sevincini bildirirdi.Sevinənlər içərisində beş şəhid balasını qələbə münasibəti ilə yad edən Hüseyin kişi

də var idi.Ali Baş Komandan İlham Əliyevin Azərbaycan xalqını təbrikini evində qarşılayan Hüseyin kişi vaxtsiz dünyasını dəyişmiş,lakin ona qəhrəman oğullar bəxş etmiş Səmayəsinin şəkilinə xeyli baxıb təəssüfləndi. Belə bir bayram günündə bayram libaslı olmaq üçün vaxtilə Səmayəsinin bəyənərək aldığı kostyumu dolabdan götürdü.O bu kostyumu vur-tut bir dəfə Səmayə ilə birlikdə getdiyi qonşu toyuna geymişdi.Səmayənin vaxtsız ölümündən sonra kostyumu əyninə almamışdı.Hüseyin kişi gah əlində saxladığı kostyuma diqqət etdi,gah da Səmayəsinin rəsminə diqqətləndi. Səmayənin gülərüz şəkilindən razılıq hiss edən Hüseyin kişi, sanki ondan icazə alırmış kimi kostyumu əyninə geyib bir də Səmayənin əksinə baxmış oldu.Deyəsən, şəkildə Səmayənin razılıq təbəssümü daha geniş şəkildə görsənirdi.Hüseyin kişi qızı Rəbiyyənin və oğlanlarının şəkillərini də öpərək balalarının bu qələbədəki paylarına rəğmən fərəhlə qələbə bayramı izdihamına qoşulmuş oldu.

Son döyüş olaraq Tuğ kəndinin azad edilməsində iştirak edən Həsrət gah döyüşçü qardaşları Gülalını, gah Şuşada son döyüşünü qalibiyyətlə keçirmiş İldırımı xatırlayaraq ordudan tərxis olunacağı gününü, İldırımla görüşəcəyi anını səbirsizliklə gözləyirdi.Həsrət hamıdan gizli saxladığı və müharibəqabağı ailə qurduğu Mətanət,İnternatdakı yaşam yeri olan kiçicik otaq,İnternat sakinləri haqqında qardaşı İldırıma bildirəcəyi anı xəyalında gəzdirərək həyacanlanırdı.Həsrətin bu 44 gündə sevgili həyat yoldaşı Mətanətlə, iki sevən gəncin məhəbbət bəhrəsi

olacaq gələcək oğlan övladının həyata göz açması ilə sayıqlaması az olmamışdı.Müharibədən sağ-salamat çıxacağı anlarından sonra o necə sevən ər,gələcək körpəsinə necə ata olacağını xatırlamaqla keçmişdəki ata-anasız uşaqlığına əlvida demək arzusu ilə yaşamışdı.Hazırkı məqamda müharibə sədalarının olmadığı bir vaxtda,Həsrət gecələri xəyallaşaraq Mətanət sevgisi, bu sevginin bəhrəsi olacaq körpə uşaq qığıltısı ilə keçirirdi.Gündüzlər isə,əsgərlər arasında vurnuxaraq qardaşı İldırımı axtarırdı.Noyabrın 12-i günü yenə əsgərlər arasında səbirsizliklə vurnuxan Həsrəti keçmiş komandiri Şükürov qarşıladı.Həsrət sevindiyindən Şükürovu qucaqlayıb elə ilk anda İldırımı soruşdu.Şükürov komandir olaraq insanlara, o cümlədən əsgərlərə qarşı münasibətdə çox həssas adam idi.O,Gülalı əmanəti olan Həsrətlə İldırımın qardaşlığının möhkəmliyindən xəbərdar idi.Əslində bütün döyüşlərdə birgə olmuş İldırımla Həsrəti Şükürov Şuşa döyüşlərində bir–birindən ayırmaq fikrində də deyildi.İldırım Şuşa döyüşlərinin çətinliyini dərk etdiyindən Həsrətin bu döyüşlərdən kənarlaşdırılmasını komandir Şükürovdan xahiş etmiş və yaralı olduğu zaman atasına ünvanladığı məktubu da Həsrətə çatdırmaq üçün Şükürova vermişdi.Həsrətin sual dolu baxışlarını süzən Şükürov, müharibənin insanlara verdiyi dəhşətlərə qarşı döyüşçü əsgərlərin dözümlü olduğunu vurğulamaqla,kitelindən çıxardığı məktubu Həsrətə verməyi eyni anda baş verdi.Şükürov üzünü Həsrətə tutaraq bildirdi:-Həsrət,İldırımla olan qardaşlığından xəbərdaram.O,Şuşa dö-

yüşlərində yaralanaraq son anda bu məktubu mənə verdi. Xahiş etdi ki,qardaşım Həsrət məktubu atama çatdırsın.Həsrət məktubu alıb titrəyən əl və dodaqları ilə, bəs İldırım indi hardadır?-deyə soruşdu.Sağ əlini Həsrətin çiyninə qoyan komandir Şükürov qəhərini boğazında sıxıb,dedi:-İldırım qospitalda dünyasını dəyişərək şəhidlik zirvəsinə qalxıb.İndi o,əbədiyyətdədir.

Şuşa şəhərinin azad edilməsindən artıq bir neçə gün keçmişdi.Digər işğal altında olan Ağdam,Laçın, Kəlbəcər rayonları isə müharibə yolu ilə deyil siyasi müstəvidə azad ediləcəkdi deyən,Hüseyin kişi İldırım və Arif oğlanlarının yolunu səbirsizliklə gözləyirdi.Arif hələ müharibənin ilk günlərində Murovun düşməndən azad olunmasında iştirak etmişdi və bu günə qədər ondan bir xəbər-ətər yox idi.Hüseyin kişi çox yaxşı bilirdi ki, indi Murovun şaxtalı və soyuq günləri olduğundan hər hansı əlaqənin olmaması yaranmış çətinliklə bağlı ola bilər.İldırım isə Gülalının vəfatından sonra Xocavənd istiqamətində vuruşduğunu bildirmişdi.Qəhrəman övladları ilə görüşəcəyi o xoş anları xatırlayan Hüseyin kişi beləcə xəyallara dalaraq övladlarının gələcəyi günə qurban da demişdi.Noyabr ayının 13-də səhər erkən işinə tələsən Hüseyin kişinin qarşısına çıxan qara pişik elə bir fəryadlı səs çıxardı ki, Hüseyin kişi bu nəs günündə qara pişiyin naləli səs çıxarmasını yaxşı əlamət kimi qəbul etməyib evə qayıtmağı qərarlaşdırdı.Tələm-tələsik və təngənəfəs olaraq evinə qayıdan Hüseyin kişini yarı yolda qonşusu Əhməd kişi qarşıladı.Əhməd kişi qonşusunu iki əlli qucaqlayıb,

göz yaşını sel kimi axıdaraq İldırımın Şuşa uğrundakı döyüşlərdə şəhid olduğunu bildirdi.Sən gedəndən heç beş dəqiqə keçməmiş xeyli əsgər və zabitlər bina həyətinə gələrək sənin qapını döydülər.Mən onlara sənin işə getmiş olduğunu deyib sənin arxanca gəlmiş oldum.Binanın həyətində əllərində xeyli bayraq tutmuş əsgər-zabitlərlə bərabər bina əhli də az deyildi.Hüseyin kişi izdihama yaxınlaşanda oğlu İldırımın qara lentlə bağlanmış şəkilini görüb özünü birbaşa tabutun üstünə atmış oldu.Hönkürtüsü ilə bütün izdihamı göz yaşına qərq edən Hüseyin kişi:-ay oğul,axı mən sənin yolunu gözləyirdim,gələcəyin günə qurban demişdim!-deyə zarıdı.Zabitlərdən biri cəld olaraq Hüseyin kişini qucaqlayıb, atam ağlama!- dedi.Sən şəhidlik zirvəsinə qalxan bir igidin xoşbəxt atasısan ki, vətən uğrunda canından keçən övladının şəhid ruhunu sənin diz çökməyin yox, məğrur dayanışın şad edə bilər.Beş övladının dəfn mərasimində qürurlu duruşunu xatırlayan Hüseyin kişi övladlar becərib itirməklərin atalar üçün nə qədər çətin və ağrılı olmasını anladığından təmkinini itirməyərək ayağa qalxıb,təqdim olunan bayrağı öpdü.Sonra isə, övladlarının hər dəfn mərasimində olduğu kimi,vətən sağ olsun!- dedi.İldırım xiyabanda aslan qeyrətli bacı və cəngavərlər olan dörd qardaşın yanında dəfn edildi.

İldırımın şəhidlik xəbəri ilə barışmayan Həsrət axır vaxtlar çox hüzünlü görsənirdi. Həsrət müharibə ərzində özünə iki qardaş qazansa da,onları itirdiyindən özünü ələ ala bilmirdi.Kitelinə qoyduğu məktub isə qardaşı İldı-

rımdan olduğundan narahat anları daha da çoxalmışdı. Hərdən internat işçilərini,sevimli Mətanətini, qığıltısı ilə onu şad edəcək gələcək körpəsini xatırlayaraq şirin anlar yaşamaq istəsə də İldırımın,Gülalının xəyal rəsmləri göz önündə canlanaraq onu hüzünlü olmağa vadar edirdi.

Noyabrın axırları idi.Kəlbəcər,Laçın,Ağdam rayonları bir güllə atılmadan düşməndən azad edilmişdi.Hüseyin kişi bütün ümidini sonbeşik oğlu Arifə bağlamışdı.Şəhidlik zirvəsinə yüksəlmiş altı övladlarının şəkillərini öpərək, onların ölməz ruhları ilə xəyali söhbətləşən Hüseyin kişi son anda Arifin şəkilinə baxaraq təsəlli tapırdı.Hərdən Arifin:-"Murov mənzərəli, gözəl təbiətli yerdir.Bakıda nə var? Biz Fuadla bərabər Murovun gözəl təbiətinə vurulmuşuq və müharibə qurtarandan sonra burada qalacağıq!"-deyimini xatırlayaraq təbəssümlənirdi.Son övladını qəlbində əzizləyən Hüseyin kişi onunla danışırmış kimi yüz cür xəyallara dalırdı.Bəlkə,Arif oğlum heç Bakıya gəlmək istəmir?!Yox! O, elənçi oğul deyil.Indi Murovun ən soyuq vaxtıdır.Həmdə ki, hərbi xidmətini hələ başa vurmayıb.Bəs,niyə narahatlıq keçirən mən atasına zəng etmir?Hüseyin kişinin dodağı qaçdı, gülümsəndı.Yadına düşdü ki, Rusiyada hərbi xidmətdə olarkən qol saatı tez-tez donardı.İsti nəfəs versədə saat işləməzdi.Murovun soyuğu,şaxtası Rusiyadan da sərtdir.Ola bilər telefonları donur, yaxud dalğa olmadığından tutmur.Beləcə,övladları ilə xəyali söhbətlər edən Hüseyin kişi narahatçılığına son qoymaq,oğlu Arifdən bir xəbər əldə etmək üçün Hərbi Səfərbərlik idarəsinə baş

vurmuş oldu.İdarədən ona səbir,dözüm arzulayıb Murovda hava şəraitinin çətinliyini nəzərə alaraq gözləməsini xahiş etdilər.Oğlu Arif üçün ümidini qırmayan Hüseyin kişi bir neçə əsgər valideyinlərin xəbər-ətər gəlməyən övladları üçün axtarışa getməsini görüb evin açarını qonşusu Əhməd kişiyə verərək Murov deyə,oğlu Arifin axtarışına yollandı.Lakin, bu axtarışlar heç bir nəticə vermədi.Qarşılaşdığı hərbi və mülki şəxslər nəinki Murovun şaxtalı-çovğunlu olmasını, habelə Laçın-Kəlbəcərdəki soyuq hava şəraitindən danışaraq onu Murov axtarışından, eyni zamanda ata yurdu İşıqlı kəndinə belə getmək fikrindən daşındırdılar.On beş gündən çox övlad axtarışı ilə bəri-biyaban olan Hüseyin kişi çarəsiz qalıb Bakıya qayıtmağı qərarlaşdırdı.Bu on beş gün ərzində torpaq həsrəti ilə yaşayanların, oğul axtarışında olanların minalara düşərək yaralanmaları və ölənləri onu çox məyus etmişdi.

Bakıya geri qayıdan Hüseyin kişini Əhməd kişi qarşılamalı oldu.Evin açarını Hüseyin kişiyə vermədən qapını açıb divardan asılmış şəhid övladlarının şəkilləri arasında qara lentə alınmış sonbeşik oğlu Arifin şəkilini görüb dizi üstə düşdü.Göz yaşlarını saxlaya bilməyən ata oğlunun şəkilini qucaqlayaraq:-mən səni axtarmağa getmişdim axı,bala!?Demə sən məndən tez gəlmisən?! Sən mənim son ümidgahım idin.Bəs,siz yeddi övlad məni kimin ümidinə qoyub şəhid oldunuz?!Bəlkə mənim günahım qazi olmağımdadır.Niyə allahım mənə şəhidlik qismət etmədi?! Niyə axı, niyə!?Əhməd kişi qonşusu Hüseyini qucaqlayıb,-şəhidlər atası ey məğrur kişi, al bu so-

nuncu qəhrəmanının bayrağını öp! Hüseyin kişi sonuncu bayrağı da öpüb,vətən sağ olsun!-deyərək qonşusu ilə bərabər xiyabanda uyuyan Arifin məzarına baş çəkdi.Yeddi övlad, yeddi qəhrəman, yeddi şəhid və bir qürurlu ata!

Həsrət yeni 2021-ci ili də Xocavənddə qarşılamış oldu.Bütün ordu birləşmələri yeni ili işğalsız azad torpağımızda coşqu ilə qeyd etdilər.Sonra ordudan tərxis olunacaq əsgərlərin adları sadalandı.Tərxis olunanlar içərisində Həsrətin də adı var idi.Həsrət sevimli həyat yoldaşı Mətanətini görmək,hələ dünyaya göz açmamış övladının ona bəxş edəcəyi atalıq hissiyyatını duymaq üçün sevincli idi.Lakin,Gülalı-İldırım axtarışında olan Həsrət döyüşçülər içərisində onların varlığını hiss etdiyindən ordudan ayrılmaq məcburiyyətini qəbul edə bilmirdi. Noyabr ayının 15-i Həsrət əsgər dostları ilə xudahafisləşib Bakıya yola düşdü.Xocavənd ərazisi ilə şütüyən maşından meşələri seyr edən Həsrət,Gülalı və İldırımla bərabər meşə döyüşlərini xatırlayıb döyüşən ruhları meşələrdə qalmış qardaşlarına, əlvida!-demiş oldu.

Bütün internata hay düşdü ki, bəs Mətanətin həyat yoldaşı,İnternatın sevimlisi Həsrət əsgər paltarında döşü medallı təşrif gətirib.Bir göz qırpımında özünü həyətə atan Mətanət Həsrəti qucaqlayaraq sevincdən axıtdığı göz yaşları ilə Həsrətin üz-gözünü islatdı.İnternat əhli, Həsrəti tanıyanlıar ən çox internat müdirəsi Səyyarə müəllimə Həsrətə xoş gəldin etdilər.Həsrətin gəlişini eşidən Yaslı-bağça müdirəsi Sənəm müəllimənin və İnternat müdirəsi Səyyarə müəllimənin təşkilatçılığı ilə İnternatın

yeməkxanasında Həsrətin qələbə ilə gəlməsi şərəfinə şənlik ziyafəti quruldu.Ziyafətdə çıxış edən Sənəm, Səyyarə müəllimələri Həsrəti zəfər qələbəsi münasibəti ilə təbrik etdilər.Ziyafət axşama kimi davam etsədə daxilindəki məktub nigarançılığı Həsrəti incidirdi.Ziyafət qurtarandan sonra otaqlarına qayıdan Həsrət və Mətanət cütlüyü və birdə Həsrətin atalıq hissini duyğulandıran "övlad tərpənişi"onlara xoş anlar yaşatmış oldu.Səhərisi İldırımın əmanət məktubunu xatırlayan Həsrət əsgər paltarını geyinərkən,Mətanətin onun üçün tədarük gördüyü yeni kostyumu görüb duyğulandı.Mətanətini nəvazişlə qucan Həsrət ona sevgi dolu təşəkkür edib bildirdi ki, hələ bir neçə vaxt əsgər paltarında olmağı məsləhətdir.Həsrət əsgər atası ilə görüşəcəyini Mətanətə bildirib Hüseyin kişinin məktub üstündə yazılmış ünvanını axtarmağa getdi. Bakı küləyi həmişəki kimi sərtliyini göstərsə də, isti küləkdən çox şimal soyuq havası ilə adamın sifətini yalayaraq codlaşdırırdı.Xeyli axtarışdan sonra əziz qardaşlarının atası Hüseyin dayının qapısının önündə dayanaraq onu bürümüş həyəcanı boğub qapı zənginin düyməsini basmış oldu.Bir neçə dəfə zəngin düyməsini bassa da, qapını açan olmadı. Həyətə çıxıb var-gəl edərək qardaşlarının uşaqlıq illərini keçirdiyi bina ətrafını xeyli seyr edib yenidən zəngin düyməsini çalmaq istədi.Qonşu qapını açan  Əhməd kişi əsgər paltarında olan gənci xoş təbəssümlə salamlayıb Hüseyin kişinin işdə olmasını bildirdi.Axşam saat yeddi radələrində Hüseyin kişinin evdə olacağını deyib əsgərdən hansı məramla gəldiyini soruş-

du.Həsrət Gülalı və İldırım qardaşları ilə birgə müharibədəki iştirakını qeyd edib, sağollaşaraq axşam yenidən gələcəyini bildirdi.Evə qayıtmaq tez olduğundan və havanın küləkli olmasını nəzərə alıb şəhidlər xiyabanını ziyarət etməyi qərarlaşdırdı.Şəhidlər xiyabanında xeyli ziyarətçilərin, ən çox anaların göz yaşlarını görüb məyuslandı.Şəhid əsgər məzarlarının baş daşlarındakı şəkillərə baxaraq qardaşları İldırım və Gülalının axtarmağa başladı.Hər məzar başındakı başdaşı şəkillərini həyəcanla izləyən Həsrət İldırım və Gülalı ilə birlikdə biri xanım olmaqla eyni soy adlı yeddi məzarlığı görüb dəhşətə gəldi.Qəhərlənmiş boğazını əlləri ilə sıxıb hönkürtü çıxartmamaq istəsə də, bacarmadı.Az qala ürəyi yerindən qopacaqdı.Və birdən yanıqlı hönkürtüsü ilə ziyarətçi izdihamını göz yaşlarına qərq etmiş oldu.Bütün gününü qardaşlarının məzarında keçirərək ürəyinin yanğısını göz yaşlarının damcıları ilə soyudan Həsrət, bihal olaraq yeddi qəhrəman övladların atasının görüşünə tələsdi. Binanın həyətinə yaxınlaşanda qonşu kişinin yanındakı qürurlu atanı İldırım və Gülalıya oxşatdığından heç bir sorğu etmədən onun ayaqları altına düşüb həyəcan dolu hönkürtüsünü saxlaya bilmədi.Əsgər paltarlıdan övladlarının iyisini alan Hüseyin kişinin dayanmadan axan göz yaşları Bakı küləyinin codlaşdırdığı Həsrət yanaqlarına,sanki atalıq istiliyini gətirirdi.Beləcə,uzun ayrılıqdan sonra bir-birini tapmışlar kimi donub qalmış "ata-bala" özlərində güc taparaq onların yollarını gözləyən yeddi şəhidin intizarda qalan rəsmilərinin görüşünə qalxdı-

lar.Hüseyin kişi qapını açanda evin girəcəyində xiyaban məzarlığında olduğu kimi düzlənmiş şəhid bacı və qardaşlar şəkillərini və hər şəkilin yanındakı vətən bayraqlarını görən və tükənməz ehtiramını bildirən Həsrət, Hüseyin kişiyə ata!- deyə müraciət edərək Gülalılı və İldırımlı döyüş yollarından danışıb son anda kitelində saxladığı məktubu ürək sıxıntısı ilə ona təqdim etdi.Ailəsinin nigaran olacağını dilinə gətirən Həsrət,ata Hüseyinin əlindən öpərək birisi gün bu vaxtda gələcəyini bildirib üzrxahlıq edərək evi tərk etmiş oldu.Hüseyin kişi övladı kimi bağlandığı Həsrəti yola salıb böyük bir aclıq hissi ilə, həyəcanlı olaraq məktubu zərfdən çıxarıb oxumağa başladı.İldırım yazırdı:

Salam, Ata!

Bütün həyatım boyu özümü tanıyandan bəri sən atama xidmət etməyi özümə borc bilmişəm.Biz qardaşlar həməşə bizim üçün min bir əziyyətlər çəkib bizi ana əvəzi olaraq ərsəyə çatdıran atamızı sevməyə, onun qulluğunda durmağa çalışmışıq.Ancaq, başlanan Vətən müharibəsi bizi müvəqqəti olaraq övladlıq borcumuzu yerinə yetirməkdən uzaq saxlayıb.Bir ata olaraq vətən uğrunda vuruşdun,qazi oldun.Ata,biz qardaşlar hər səni düşünəndə özümüzü xoşbəxt hiss edirdik ki, sən bizi vətənpərvər övladlar kimi tərbiyə edib vətəni dar gündə qorumaq üçün,bizə qanad verib pərvazlandırdın.Məhz verdiyin tərbiyənin nəticəsidir ki, yeddimiz də vətən torpaqlarının düşməndən azad edilməsi üçün döyüşlərə atılmışıq.Yadındadırmı atam!? Böyük qardaşlarım hərbi məktəbdə

oxuyarkən bizə danışardın ki, torpaq uğrunda şəhid olmaq ölməzlikdir.Gülalı qardaşım vətən uğrunda şəhidlik zirvəsinə qalxdı,əbədi ölməzlik şöhrətini qazandı.Mən bir əsgər,döyüşçü olaraq şəhid qardaşımla fəxr edirəm.

Ata,Gülalı şəhid olmamışdan öncə Həsrətlə döyüş qardaşı olmuşlar.Onlar bir-birlərini düşmən gülləsindən dəfələrlə qoruyublar.Gülalı yaralı olanda başını dizi üstə qoyduğu Həsrəti mənə qardaş əmanəti kimi təqdim etmişdi.Gülalının şəhidliyindən sonra mən Həsrətin əsil qardaş olmasını bir daha görüb,Gülalı əmanəti olaraq onu qardaş kimi də sevdim.Həsrət Gülalıdan mənə qardaş əmanətidir, məndən sən atama övlad əmanəti.

Həsrət ata-ana qayğısından məhrum olaraq yaslıbağça,internat mühitində yaşamışdır.Adı,soyadı olmayan bu körpəni ata-ana nəvazişinə həsrət qaldığı üçün ona Həsrət adı vermişlər.Bağçada və internatda böyüdüyünə görə soyadı Baxçayev, ata adı isə İnternat olaraq təyin edilibdir.Biz düşmən üzərində qələbə çalıb sağ-salamat evimizə dönərək Həsrət qardaşımızla bərabər sənə layiqli övladlar olaraq xidmət edəcəyik.Düzdür biz çox müəmmalı bir dünyada yaşayırıq.Kiminin həyatda necə və nə cür yaşayacağı əvvəlcədən məlum olmur.Ancaq, dünyanın faniliyinə də qapılmaq düzgün olmazdı.Odur ki, Həsrətin Gülalı əmanəti olması ilə bərabər,övladlığa layiq olması əvəzsizdir.

Son olaraq atam, elə bilirəm ki, biz olmasaq belə (allah eləməsin!) Həsrəti övladlığa qəbul edib, bir vaxtlar

rəhmətlik babamın yeddi oğul istərəm,bircə dənə qız-gəlin arzusunu da tamamlamış olarsan.

Hörmətlə, səni sevən oğlun İldırım.

03.11.2020-ci il. Daşaltı.

Səhərə yaxın bilmədən uyuduğu divandan hövlank qalxan Hüseyin kişi şişkin gözlərini ovuşdurub dikəlmək istəyəndə yastığın üstündəki məktubu görüb axşamki halını xatırlayaraq həyəcanlandı.İldırımın yazdığı məktubu götürüb dərindən qoxladı.Məktubun üzərinə düşən damcılar yazı rəngləri ilə qarışaraq qurumuş gölməçələr yaratmışdı.Bu damcılar ata Hüseyinin yanan qəlbindən doğan göz yaşları idi.İldırımın və Gülalının özlərinə qardaş, atalarına övlad kimi məsləhət gördüyü Həsrəti yadına salıb qərara gəldi ki,Həsrəti övladı kimi qəbul edib övladlarının iyisinini ondan alsa allahın yolunda da savab iş görmüş olar.Hüseyin kişi evini səhmana salıb Həsrəti səbirsizliklə gözləməyə başladı.Vaxt tamam olduğu anda qapı döyüldü.Sanki,uzun ayrılıqdan sonra görüşən ata-bala qucaqlaşdılar.Hüseyin kişi övladı olaraq bağrına basdığı Həsrətin əsgər paltarlarını qoxlayaraq övladlarının iyisini alırmış kimi rahatlıq duyduğu kimi, Həsrət də Hüseyin kişinin simasında atalıq hissini duyaraq ondan qopmaq belə istəmirdi. Handan-hana Hüseyin kişi balası olaraq bağrına basdığı Həsrəti axşam süfrəsinə dəvət etdi.Süfrəyə yaxın otur övladım,-deyə Hüseyin kişi dilləndi. Bir qismət halal çörəyimizi nuş et, bala!Bax bu şəkillərdəki bizə baxan balalarımın indi ruhu çox şaddır.Çünki,mən artıq tənha deyiləm və övlad olaraq sən

yanımdasan.Hüseyin kişi övladlarının uşaqlıq və yeniyetməliyindən,Həsrət isə İldırım və Gülalı ilə olan döyüş qardaşlığından xeyli danışdılar.Bu şirinli-acılı söhbətlər axşamdan gecəyə qədər davam etdi.Nəhayət,Həsrət Hüseyin kişiyə üzrxahlıq edib getmək üçün izn istədi. Hüseyin kişi ilk andan balası kimi uyuşduğu Həsrətə:- ay oğul bu gecə vaxtı hara belə, otaqların hansını bəyənirsən birində gecələ səhəri gedərsən?!Həsrət təşəkkürlərini ifadə edib evi tərk etmiş oldu. Həsrətin gedişatı ilə Hüseyin kişini qəmginlik həyəcanı bürüdü.İldırımın məktubda yazdıqlarını xəyalında çək-çevir edib Həsrətin yaşam həyatı ilə maraqlanacağına qərar vermiş oldu. Bir neçə gündən sonra Xiyabanda övladlarını ziyarət edən Hüseyin kişi, Həsrəti bir xanımla bərabər İldırım və Gülalı məzarı başında görüb aramla onlara yaxınlaşdı.Hüseyin kişini gördüyündən sevinclənən Həsrət üzünü Mətanətinə tutaraq dedi: Mətanət, sənə haqqlarında danışdığım döyüşçü qardaşlarımın qürurlu atası ilə və mənim atamla tanış ol! Bu gözlənilməz tanışlıq əsasında Hüseyin kişiyə məlum oldu ki, Həsrət Mətanət xanımla ailəlidir və bu izdivacın yaranmasına köməklik edib,onları elə internat nəzdində işlə, evlə təmin edən İnternatın müdirəsi Səyyarə müəllimədir.Həsrət haqqında dolğun məlumatlar əldə edən Hüseyin kişi Həsrətdən və sevimli Mətanətdən ayrıldıqdan sonra İnternata gedib Səyyarə müdirə ilə görüşməyi,həm də Həsrətin yaşam şəraitini öyrənməyi lazım bildi.Günlərin birində İnternata təşrif gətirən Hüseyin kişi Səyyarə müdirə ilə görüşüb Həsrətin, övladları İldırım və

Gülalı ilə döyüş qardaşları olmasını,İldırımın yazdığı məktubu və Həsrətə duyduğu atalıq hissini bildirmiş oldu.Hüseyin kişinin keçmiş həyatı, indiki yaşam şəraiti ilə maraqlanan Səyyarə müəllimə onun nəcib hərəkətini alqışlayaraq razılığını bildirmiş oldu.Bir neçə gündən sonra Hüseyin kişinin,Səyyarə müəllimənin birgə fəaliyyəti ilə Həsrət və Mətanət ailəsi Hüseyin kişinin övladları olaraq birgə yaşam həyatına başladılar.

Həsrət və Mətanət ailəsində yeni bir körpə dünyaya gəlmək ərəfəsindəydi.Ailə bu xoş günü səbirsizliklə gözlədiyi kimi,baba olacaq Hüseyin kişi də sakitlik tapmırdı.Evdə tək olan anlarda yeddi balalarının rəsmləri ilə dərdləşən Hüseyin kişi övladlarının ruhu ilə danışırmış kimi onların əmilər və bibi olmaq şərəfinə nəsib olacaqlarını xəyalında canlandırırdı.Hər dəfə işdən evə qayıdan Hüseyin kişi hər övladının adına bir oyuncaq alaraq şəkillərinin yanına düzürdü.Sevimli həyat yoldaşını ziyarət edib nəvələri olacağını ona muşduluq müjdəsi kimi xəbər vermişdi,Hüseyin kişi!Yorğan-döşək-balıncı Səmayəsinin adından,uşaq beşiyini isə öz adından alıb otağın birini yeni nəvə üçün hazırlamışdı,Hüseyin kişi! Bəli, həftə tamam olmamış baru-həmləsini yerə qoyan Mətanət bir oğul dünyaya gətirdi.Uşağın evə mübarək gəlişini gözləyən oğul babası olmuş Hüseyin kişi işdən bir az tez çıxıb bir dəstə gül bağlatdıraraq evə doğru tələsmiş oldu.Hüseyin kişi əlində gül evə daxil olarkən, hələ gözlərini aça bilməyən körpənin papağında yazılmış Yadigar adını görüb duruxdu.Yadigar! Birdən şəkillərin divar boyu yeni

düzümünü və hər şəkilin altındakı adların baş hərflərinin yazılışını gördü.

Yadulla+Allahverdi+Dadaş+İldırım+Gülalı+Arif+Rəbiyyə.

Y A D İ G A R!

Hüseyin kişi övladlarının Yadigarını bağrına basıb sevincdən axan göz yaşlarının istiliyinə rəğmən körpənin gözünü geniş açıb baxışlarını ona dikməsinə səbəb oldu.Bu körpə baxışından riqqətə gələn Hüseyin baba Yadigar balam,-deyib övladları Həsrət və Mətanəti qucaqladı.Ruhları evdə dolanan yeddi övladın şəkillərində isə razılıq təbəssümü görsənirdi.

**S O N**



**Kitabın içindəkilər:**

**Müəllifdən..............................................................3**

**Yeddi oğul istərəm..................................................5**

“Elm və təhsil” nəşriyyatının direktoru:
*professor* **Nadir MƏMMƏDLİ**

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı

Çapa imzalanmış 05.07.2021
Şərti çap vərəqi 10,5. Sifariş № 301
Kağız formatı 60x84 1/16. Tiraj 300

Kitab “Elm və təhsil” nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: elm.ve.tehsil@mail.ru
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4